# Qərbi Azərbaycan İcması İrəvanı və Vaşinqtonu ədalətə çağırır

**Qərbi Azərbaycan İcmasının dünən yaydığı növbəti bəyanatda Ermənistan parlamentinin spikeri Alen Simonyanın öz yurdlarından qovulmuş Qərbi azərbaycanlıların tarixi torpaqlarına geri qayıtmaq hüququ ilə bağlı Azərbaycan tərəfinin bəyanatlarını təhrif etməsi və irqçi fikirlər səsləndirməsi kəskin pislənib:**



– Azərbaycan tərəfinin çıxışında vurğulanan qayıdış hüququ beynəlxalq hüququn və fundamental insan haqlarının ayrılmaz hissəsidir və Simonyanın bu hüququ ərazi iddiası kimi yozması Ermənistanın özünün "insan hüquqları" arqumentindən istifadə edərək təcavüzkar siyasət aparması vərdişindən irəli gəlir.

(ardı 6-cı səhifədə)

Xalqın qəzeti!
Xalq qəzeti
№ 216 (30620) 3 oktyabr 2024-cü il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# “Odlar yurdu”nun “qara qızıl” xəzinəsi

## *Hasilat tarixində ölkədə 2 milyard 214,2 milyon ton neft və 1 trilyon 31,9 milyard kubmetr qaz çıxarılıb*



**Ölkəmizdə neftin sənaye üsulu ilə çıxarılmasına başlandığı ötən 177 ildə quruda və Xəzər akvatoriyasında çoxsaylı axtarış-geofiziki tədqiqat işləri aparılıb. Bunun da nəticəsində 150-yə yaxın perspektivli struktur aşkar edilib. Ötən illərdə həmin strukturların əksəriyyətində uğurlu geoloji-kəşfiyyat işləri aparılaraq buradakı ehtiyatların işlənməyə cəlb edilməsinə başlanılıb.**

Hazırda ölkə üzrə 81 neft-qaz yatağı mövcuddur ki, bunun da 28-i dənizdə, 53-ü isə quruda yerləşir. Bu barədə məlumat Azərbaycan Dövlət Neft Şirkətinin 2023-cü ildəki fəaliyyəti ilə bağlı illik hesabatında yer alıb. Bildirilib ki, hazırda 58 yataqdan karbohidrogen hasil edilir, 23 yataq isə bu və ya digər səbəbdən işlənməyə cəlb olunmayıb və yaxud istismarı dayandırılıb.

İşlənmədə olan 39 yataq Azərbaycanın quru (həmin yataqların 15-i “Azneft” İB, 24-ü müştərək müəssisələr və əməliyyat şirkətləri tərəfindən istismar olunur), 19 yataq isə dəniz (onlardan 13-ü “Azneft” İB, 6-sı müştərək müəssisələr və əməliyyat şirkətlərinin balansındadır) ərazisində yerləşir.

2023-cü ildə ölkə üzrə istismarda olmuş yataqlardan 30 milyon 148,16 min ton neft və kondensat, 48 milyard 301,32 milyon kubmetr qaz hasil olunub. İl ərzində çıxarılmış ümumi neft və kondensatın 1 milyon 438,83 min tonu, qazın isə 209,64 milyon kubmetri quruda yerləşən yataqların payına düşüb. Ötən il dəniz yataqlarından 28 milyon 709,33 min ton neft-kondensat və 48 milyard 91,68 milyon kubmetr qaz çıxarılıb.

(ardı 7-ci səhifədə)

# Ermənistan və üçtərəfli Bəyanat

**Ermənistan baş naziri Nikol Paşinyan növbəti dəfə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdakı imzasını dandı. O, bunu Avrasiya İqtisadi İttifaqının (AİI) Hökumətlərarası Şurasının İrəvanda keçirilmiş geniş tərkibdəki iclası zamanı etdi. Yazımızda məsələnin təfərrüatlarına varacağıq. Ancaq əvvəlcə bir məqamın üzərində dayanaq.**



Qeyd edək ki, Ermənistan ötən ildən başlayaraq üzvü olduğu və Rusiyanın hakim rol oynadığı AİI-yə rotasiya qaydasında sədrliyi həyata keçirməkdədir. Bu ilin dekabrında sədrlik müddəti başa çatacaq və missiya başqa ölkəyə keçəcək. Paşinyan isə Ermənistan AİI-yə rəhbərliyə başlayarkən bildirmişdi ki, qurumun sırf iqtisadi zəminli təşkilat olaraq qalması vacibdir, siyasi amillər onun fəaliyyətinə hansısa formada təsir göstərməməlidir. Əlbəttə, Nikolun mövqeyi absurddur.

(ardı 3-cü səhifədə)

# Ekoloji fəlakətdən “yaşıl” transformasiyaya körpü



**(əvvəli ötən sayımızda)**

Ekoloji problemlər, iqlim dəyişiklikləri nə dövlət sərhədlərinin olduğu yerdə başlanır, nə də orada bitir, ona görə də bütün beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan onların həlli əsla mümkün deyil. Bu cür birgə səylərin tarixini 1972-ci ildə, Stokholmda BMT-nin İnsan Ətraf Mühit Konfransının keçirildiyi vaxtdan başlamaq olar.

Bu konfransın yekununda imzalanmış Stokholm Bəyannaməsi beynəlxalq ekoloji hüququn və ətraf mühitin tənzimlənməsinin əsaslarını qoydu. Konfrans iştirakçıları qəbul etdikləri ətraf mühitə dair 26 prinsipdə və 109 tövsiyədə ekologiyanın planetə təsirini nəzərə alaraq, gələcək inkişafın təmin edilməsi, təbiətə və onun qorunmasına görə məsuliyyət daşımağın zəruriliyini qeyd etdilər. Sənəddə ətraf mühitin yaxşı vəziyyəti təkcə məsuliyyət kimi deyil, həm də əsas insan hüququ kimi tanınırdı. Maraqlıdır ki, konfransın nəticəsi olaraq yaradılmış BMT-nin Ətraf Mühit Proqramının qərargahı, bütün beynəlxalq təşkilatlardan fərqli olaraq ilk dəfə idi ki, qlobal Cənub ölkəsində – hələ də onlar arasında yeganə olan (UNRWA-nın yerləşdiyi İordaniya istisna olmaqla) Keniyada yerləşirdi. İndi də bu ölkə bütün BMT sistemində eyni vaxtda iki təşkilata evsahibliyi edir.

(ardı 8-ci səhifədə)

# Bakı Beynəlxalq Kitab Sərgisinin təntənəli açılışı




Səhifə ⇨ 6




Səhifə ⇨ 9



# Urbanizasiya – sivilizasiyanın tərs üzü

Səhifə ⇨ 11




Səhifə ⇨ 11

# "İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Beynəlxalq Bakı Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**

Sizi "İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Beynəlxalq Bakı Forumunun açılışı münasibətilə səmimiyyətlə salamlayıram.

Siz xalqımız üçün olduqca əlamətdar tarixi dövrdə Azərbaycana gəlmisiniz. Artıq bir ildir ki, Azərbaycanın suverenliyi və konstitusiya quruluşu tam bərpa olunmuş, ərazilərimizdə mövcud olan "boz" zona aradan qaldırılmış və separatizmə son qoyulmuşdur.

Bildiyiniz kimi Ermənistan otuz ilə yaxın dövr ərzində beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qətnamələrinə və qəbul etdiyi qərarlara məhəl qoymayaraq Azərbaycanın torpaqlarını işğal altında saxlamış, burada etnik təmizləmə həyata keçirərək bir milyondan artıq soydaşımızı qaçqın və məcburi köçkün vəziyyətinə salmışdır.

Münaqişə bitsə də, əfsuslar olsun ki, Ermənistanın otuzillik hərbi təcavüzünün ağır fəsadları hələ də davam edərək insanların həyatına və ətraf mühitə böyük təhlükə yaradır. Ermənistan uzun müddət işğal altında saxladığı ərazilərimizdə ekosid, urbisid, kultursid törədərək torpaqlarımızı və çaylarımızı çirkləndirmiş və zəhərləmiş, meşələrimizi məhv etmiş, şəhər və kəndlərimizi dağıtmış, habelə burada insanların yaşamaq hüququnu təhdid edən və ətraf mühitə ciddi ziyan vuran çoxsaylı minalar basdırmışdır. Eyni zamanda xalqımızın bəşəri əhəmiyyətə malik mədəni irsi dağıdılmış, dini-mədəni abidələrimiz yerlə-yeksan edilmişdir.

Ermənistan beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini də pozaraq Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyi və kütləvi məzarlıqların dəqiq yeri haqqında məlumatları təqdim etməkdən imtina edir. Ermənistan törətdiyi bütün bu cinayətlərə görə üzr istəməlidir.

Otuz ildən artıq müddət ərzində əsas hüquqları kobud şəkildə pozulmuş və yurd-yuvalarından qovulmuş soydaşlarımızın doğma torpaqlarına qayıtması üçün hazırda işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı quruculuq işləri aparılır, işğal dövründə dağıdılmış infrastruktur və ekosistem bərpa olunur, "yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər və kəndlər inşa edilir. Siz işğaldan azad edilmiş ərazilərimizə səfər edərək burada vandalizmə məruz qalmış yerlər və hazırda burada aparılan yenidənqurma və bərpa işləri ilə tanış olacaqsınız.

Hörmətli Forum iştirakçıları!

Beynəlxalq Bakı Forumunun mövzusu bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edir. İqlim dəyişmələri bütün ölkələrin davamlı inkişafına və təhlükəsizliyinə təhdid törədən qlobal problemlərdən biridir. Ancaq iqlim dəyişmələri yalnız dövlətlərin sosial-iqtisadi rifahına deyil, sadə insanların gündəlik həyatlarına və yaşam tərzlərinə də birbaşa və ya dolayı yolla təsir göstərir, əsas insan hüquqlarının müdafiəsi və təminatı baxımından bir sıra ciddi çətinliklər yaradır.

İqlim dəyişmələri və onların fəsadları insanları yaşamaq, sağlamlıq, qida, təmiz su, mənzil və digər hüquqların layiqincə həyata keçirilməsindən məhrum edir, habelə bərabərsizliyi dərinləşdirərək həssas əhali qruplarının hüquqlarının təminatını olduqca mürəkkəbləşdirir.

Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn öhdəliklərə uyğun olaraq iqlim dəyişmələri və onun mənfi təsirləri ilə mübarizəyə xüsusi önəm verən ölkələr sırasındadır. Təsadüfi deyil ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Bu prioritetə uyğun olaraq, ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində məqsədyönlü işlər aparılır.

Azərbaycan eyni zamanda qlobal iqlim fəaliyyətinə də töhfə verən ölkədir. Əlamətdar haldır ki, bu forum bütün dünya üçün xüsusi əhəmiyyət kəsb edən və cari il noyabrında Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 ərəfəsində keçirilir. Bu cür mötəbər tədbirin ölkəmizdə keçirilməsi Azərbaycana olan böyük hörmət və etimadın, eləcə də ölkəmizin bütün səviyyələrdə iqlim dəyişmələrinin qarşısının alınması işinə verdiyi töhfəsinin göstəricisidir. İnanıram ki, COP29 yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə iqlim həmrəyliyinin gücləndirilməsinə mühüm təkan verəcəkdir.

Bugünkü tədbirin Azərbaycanda təşkili həm iqlim dəyişmələrinin qarşısının alınması, həm də insan hüquqlarının müdafiəsi ilə bağlı ölkəmizin qətiyyətini nümayiş etdirir. Forum iqlim dəyişmələrinin yaratdığı problemlər və onların həlli yollarının insan hüquqları perspektivindən müzakirə edilməsi, bu sahədə mövcud müsbət təcrübə mübadiləsinin aparılması baxımından əhəmiyyətə malikdir. Mən burada iştirak edən xarici ölkələrin ombudsmanları və milli insan hüquqları institutlarının nümayəndələri arasında mövcud olan tərəfdaşlıq əlaqələrini yüksək qiymətləndirir, forumda müzakirə ediləcək və ümumi maraq kəsb edən məsələlərlə bağlı gələcək birgə fəaliyyətin sistematik, əlaqəli və daha effektiv qurulması üçün təmasların intensivləşdirilməsini vacib hesab edirəm.

İnanıram ki, forum iqlim dəyişmələri kontekstində insan hüquqlarının müdafiəsi sahəsində yeni təşəbbüslərin və yanaşmaların irəli sürülməsinə, bu hüquqların təminatına ciddi maneə yaradan hallarla mübarizə istiqamətində ümumi səylərin birləşdirilməsinə töhfə verəcək, ombudsmanlar və milli insan hüquqları təsisatları arasında tərəfdaşlıq münasibətlərinin inkişafına, qarşılıqlı təcrübə və fikir mübadiləsinin aparılmasına geniş imkanlar açacaqdır.

Sizə ən xoş arzularımı yetirir, tədbirin işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 1 oktyabr 2024-cü il**

# "İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun müdafiəsi" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi itkin düşmüş şəxslər probleminə həsr olunmuş beynəlxalq konfransda salamlayıram.

Azərbaycanın təşəbbüsü ilə silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər məsələsinə dair ölkəmizdə ikinci beynəlxalq konfransın keçirilməsi bu mövzunun aktuallığını və problemin həllində qlobal səylərin artırılmasının vacibliyini bir daha təsdiq edir.

İtkin düşmüş şəxslər faciəsi Ermənistanın Azərbaycana qarşı təcavüzünün ağır fəsadlarından biridir. Birinci Qarabağ müharibəsi nəticəsində 30 ildən artıqdır ki, 4000-dək azərbaycanlı itkin düşmüş şəxs hesab olunur. Onların arasında mülki şəxslər, o cümlədən uşaqlar və qadınlar da vardır. 2020-ci il Vətən müharibəsində isə 6 Azərbaycan vətəndaşı itkin düşmüşdür.

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra meydana çıxmış yeni faktlar itkin düşmüş azərbaycanlılara qarşı törədilən vəhşiliklərlə bağlı şahidlərin ifadələrini bir daha təsdiq etmişdir. Həmin ərazilərimizdə aşkar olunmuş kütləvi məzarlıqlarda ekshumasiya işlərinin aparılması nəticəsində Ermənistan tərəfindən əsir və girov götürülmüş şəxslərin işgəncələrə, zorakılığa və qeyri-insani rəftara məruz qalaraq qətlə yetirildiyi barədə təkzibedilməz sübutlar toplanmışdır.

Siz sabah Azərbaycanda akkreditə olunmuş diplomatik korpusla birgə Ağdərə rayonunun Sırxavənd kəndində kütləvi məzarlıqların birinə baş çəkəcəksiniz. Ermənistanın işğalı altında olan zaman Şuşa həbsxanası azərbaycanlı əsir və girovların saxlanıldığı və işgəncələrlə öldürüldüyü konsentrasiya düşərgəsi kimi fəaliyyət göstərmişdir.

Açıq mənbələrdə və internet resurslarında Birinci Qarabağ müharibəsində Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş insanlığa sığmayan əməlləri sübut edən kifayət qədər foto və videolar mövcuddur. Müharibə cinayətləri və bəşəriyyətə qarşı cinayətlər törətmiş bəzi şəxslər bu gün Azərbaycanın ədalət mühakiməsi qarşısında cavab versə də, Ermənistanda buna görə hələ bir nəfər belə məsuliyyətə cəlb olunmamış, əksinə onlar qəhrəmanlaşdırılmışdır.

Eyni zamanda, müxtəlif vaxtlarda Ermənistanda olan hərbi canilər, komandirlər kütləvi məzarlıqlar barədə məlumatlara sahib olduqlarını bildirmişdir. Buna baxmayaraq, Ermənistan hələ də bu məzarlıqların, o cümlədən, Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun qalıqlarının yeri barədə məlumatları verməkdən imtina edir.

Ermənistan öz destruktiv mövqeyindən əl çəkməli və beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini yerinə yetirməlidir. Əgər Ermənistan həqiqətən də Azərbaycanla sülhə nail olmaq istəyirsə, onda əsir və girov götürülmüş azərbaycanlılara münasibətdə törədilmiş vəhşilikləri qətiyyətlə pisləməli və günahkarları cəzalandırmalıdır. Bu, həmçinin iki ölkə arasında təsirli etimad quruculuğu tədbirlərindən biri ola bilər.

Azərbaycan dövləti itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi üçün bütün zəruri addımları atır. 1993-cü ildən etibarən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bu humanitar missiyanı layiqincə yerinə yetirir. Vətən müharibəsindən sonra Komissiyanın fəaliyyəti daha da genişləndirilmiş və yaxşı nəticələr əldə edilmişdir. Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 155 nəfərin şəxsiyyəti eyniləşdirilmiş və onlar hərbi ehtiram göstərilməklə dəfn edilmişdir.

Bu günədək dövlət qurumlarımız, itkin düşmüş şəxslərin doğmaları, vətəndaş cəmiyyəti nümayəndələri tərəfindən müxtəlif beynəlxalq təşkilatlara dəfələrlə müraciətlər edilsə də, əfsuslar olsun ki, bu məsələdə də ikili standartlarla üzləşirik. Aidiyyəti beynəlxalq qurumlar bu müraciətlərə səssiz qalmamalı və qətiyyətli addımlar atmalıdır.

Azərbaycan beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü kimi silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər məsələsinə yalnız öz problemi kimi deyil, dünyanın bir sıra ölkələrinin üzləşdiyi qlobal problem kimi yanaşır. Ölkəmizin təşəbbüsü ilə BMT Baş Assambleyasında hər iki ildən bir itkin düşmüş şəxslər mövzusunda qətnamənin irəli sürülməsi və konsensusla qəbul olunması bu məsələyə beynəlxalq səviyyədə diqqətin artırılması istiqamətində fəaliyyətimizin tərkib hissəsidir.

Bu xüsusda, məsələyə beynəlxalq müstəvidə lazımi diqqətin ayrılmasını təmin etmək üçün BMT çərçivəsində itkin düşmüş şəxslərlə bağlı xüsusi mexanizmin yaradılmasına ehtiyacın olduğu qənaətindəyik.

Sonda konfransın işinə uğurlar diləyir və onun itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması istiqamətində qlobal fəaliyyətə dəyərli töhfə verəcəyinə dair əminliyimi ifadə edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 1 oktyabr 2024-cü il**

# T.E.Həsənovun ali xüsusi rütbədən və dövlət təltifindən məhrum edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Tofiq Etibar oğlu Həsənovun ağır cinayətlər törətdiyinə görə məhkum olunması barədə məhkəmə hökmünün qanuni qüvvəyə minməsini və Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin təqdimatını əsas götürərək **qərara alıram:**

**1.** Tofiq Etibar oğlu Həsənov ədliyyə general-mayoru ali xüsusi rütbəsindən və "Vətən uğrunda" medalından məhrum edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 2 oktyabr 2024-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 67 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 avqust tarixli 171 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 7-1–7-3-cü hissələr əlavə edilsin:

"7-1. Sahibkar investisiya təşviqi sənədində göstərilən məlumatlarda dəyişiklik edilməsi məqsədilə Nazirliyə müraciət edə bilər. İnvestisiya təşviqi sənədində göstərilən məlumatlarda dəyişiklik edilməsi ilə bağlı müraciətə Nazirlik tərəfindən 5 iş günü müddətində "Lisenziyalar və icazələr haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxılır. İnvestisiya təşviqi sənədində dəyişiklik edilməsi barədə Nazirlik tərəfindən qəbul edilmiş inzibati akt 2 iş günündən gec olmayaraq sahibkara təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

7-2. Sahibkar investisiya təşviqi sənədi verilmiş layihəsini (o cümlədən təsərrüfat və digər vergitutma obyektlərini, həmin layihə ilə bağlı hüquq və öhdəliklərini) digər sahibkara (bundan sonra – yeni sahibkar) ötürə bilər. Bu məqsədlə investisiya təşviqi sənədini almış sahibkar və yeni sahibkar investisiya təşviqi sənədində dəyişiklik edilməsi üçün aşağıdakı sənədlər də əlavə edilməklə birgə ərizə ilə Nazirliyə müraciət etməlidirlər:

7-2.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2.1–18.2.4-cü maddələrində nəzərdə tutulan sənədlər (yalnız yeni sahibkara münasibətdə);

7-2.2. investisiya təşviqi sənədinin əsli;

7-2.3. investisiya təşviqi sənədi verilmiş layihənin (o cümlədən təsərrüfat və digər vergitutma obyektlərinin, həmin layihə ilə bağlı hüquq və öhdəliklərin) yeni sahibkara ötürüldüyünü təsdiq edən sənədlərin surəti.

7-3. Nazirlik bu Qaydanın 7-2-ci hissəsində nəzərdə tutulmuş müraciətə 5 iş günü müddətində "Lisenziyalar və icazələr haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxır. Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar olmadığı, habelə yeni sahibkarın vergi və digər dövlət ödənişləri üzrə vaxtı keçmiş öhdəliklərinin mövcud olmadığı halda, investisiya təşviqi sənədi və həmin investisiya təşviqi sənədində dəyişiklik edilməsi barədə qəbul edilmiş inzibati akt yeni sahibkara, bununla bağlı məlumat isə investisiya təşviqi sənədinin ilkin sahibinə 2 iş günündən gec olmayaraq təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.".

**2.** 8-ci hissəyə "sənədi" sözündən sonra "və həmin sənəddə bu Qaydanın 7-1-ci və 7-2-ci hissələrində nəzərdə tutulmuş dəyişikliklər" sözləri, "verilməsindən" sözündən sonra "və ya həmin sənəddə dəyişiklik edilməsindən" sözləri əlavə edilsin və həmin hissədə "Qanununun 20-ci maddəsində" sözləri "Qanununda" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 2 oktyabr 2024-cü il**

# "Dövlət orqanlarının struktur qurumlarında onlara həvalə edilmiş funksiyalar nəzərə alınmaqla təminedici və yardımçı struktur bölmələrin siyahısı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Dövlət orqanlarının struktur qurumlarında onlara həvalə edilmiş funksiyalar nəzərə alınmaqla təminedici və yardımçı struktur bölmələrin siyahısı" təsdiq edilsin (əlavə olunur).

**2.** "İcra hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə təminedici və yardımçı bölmələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 22 oktyabr tarixli 937 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 542 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 2 oktyabr 2024-cü il**

*Azərbaycan Respublikası Prezidentinin*
*2024-cü il 2 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Dövlət orqanlarının struktur qurumlarında onlara həvalə edilmiş funksiyalar nəzərə alınmaqla təminedici və yardımçı struktur bölmələrin SİYAHISI

**1.** Təminedici struktur bölmələr – dövlət orqanı rəhbərinin qərarı ilə yaradılan və normativ hüquqi aktlara əsasən həmin dövlət orqanına həvalə edilmiş səlahiyyətləri bilavasitə həyata keçirən şöbə və sektorlar, həmçinin hüquq, dövlət qulluğu və insan resurslarının idarə edilməsi, maliyyə və mühasibat uçotu, iqtisadiyyat, strateji inkişaf (planlaşdırma), beynəlxalq əlaqələr, ictimaiyyətlə əlaqələr (mətbuatla iş), sənədlərlə və vətəndaş müraciətləri ilə iş, informasiya texnologiyaları, məxfi (xüsusi) şöbə və sektorlar.

**2.** Yardımçı struktur bölmələr – dövlət orqanı rəhbərinin qərarı ilə yaradılan və normativ hüquqi aktlara əsasən həmin dövlət orqanına həvalə edilmiş səlahiyyətlərin həyata keçirilməsi ilə bağlı təminatı həyata keçirən şöbə və sektorlar (işlər idarəsi, təsərrüfat, təminat və digər).

# BTQ Kanak xalqını təbrik edib

**Bakı Təşəbbüs Qrupu Kanak xalqını azadlıq mübarizəsində verdiyi böyük qurbanlar hesabına Makron iqtidarını geri çəkilməyə məcbur etməsi münasibətilə təbrik edib.**

**Təbrikdə deyilir:**

"Məlum olduğu kimi Yeni Kaledoniyada Fransa müstəmləkəçiliyi, habelə Kanak xalqının hüquq və azadlıqlarının Makron iqtidarı tərəfindən kobud pozulmasına etiraz əlaməti olaraq bir neçə aydı dinc aksiyalar keçirilir. Bu aksiyalar nəticəsindən 10-dan artıq mülki şəxs Fransa təhlükəsizlik qüvvələri tərəfindən qətlə yetirilib, yüzlərlə adam həbs edilib. Bakı Təşəbbüs Qrupu ilk gündən bu siyasi məhbus ailələrinə dəstək verib və dəstək verməkdə davam edəcək.

Dinc etiraz aksiyalarını yerli xalqlara atəş açmaqla susdura bilməyəcəyini nəhayət dərk edən Makron iqtidarı Kanak xalqı qarşısında geri çəkilmək məcburiyyətində qalıb. Yeni Kaledoniyanın ardınca digər müstəmləkələrdə etiraz dalğasının baş qaldırması və sürətlə genişlənməsi Fransa hökumətini məcbur etdi ki, aşağıdakı güzəştləri etsin:

– Bundan sonra Koloniyaların məsələləri ilə Dənizaşırı ərazilər üzrə nazir deyil, Baş nazir özü birbaşa məşğul olacaq.

– Baş nazir və dənizaşırı ərazilər naziri yanında formallaşdırılmış nazirliklərarası nümayəndə heyəti Yeni Kaledoniya ilə danışıqlar aparacaq (əvvələr Kanak xalqı ilə dialoqdan imtina edirdilər).

– Dövlət başçısı ilə razılıq əsasında Yeni Kaledoniyada 2024-cü ilin sonunda keçirilməsi nəzərdə tutulan əyalət seçkiləri 2025-ci ilin sonuna qədər təxirə salınır.

– Fransa hökuməti bundan sonra Yeni Kaledoniyaya məqsədli şəkildə kənardan köçürtdüyü miqrantlara səsvermə hüququ verə bilməyəcək.

Bakı Təşəbbüs Qrupu inanır ki, Kanak xalqının azadlıq mübarizəsi yerli xalqın əsas tələbi olan müstəqilliyin qazanılması ilə yekunlaşacaq".

# Ermənistan və üçtərəfli Bəyanat

## Rəsmi İrəvan avantürizmdən əl çəkmir



(əvvəli 1-ci səhifədə)

Birincisi, AİI nə qədər iqtisadi təmayüllü təşkilat olsa da, mümkün deyil ki, siyasi ritorikadan kənarda dayansın. İkincisi, Paşinyan haqqında söz açdığımız fikri elə-belədən səsləndirməmişdi. Məlumdur ki, rəsmi İrəvanın anti-Rusiya köklənişi var. Ermənistan o zaman da, elə indi də üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının fəaliyyətini ciddi şəkildə boykot etməklə məşğuldur. KTMT müstəvisində Rusiya əleyhinə demarş edən Paşinyan ölkəsinin, hətta, qurumdan çıxa biləcəyini də təkrarlamaqdadır. Aydındır ki, Rusiyanın başlıca mövqe tutduğu bir təşkilatla yaxşı olub, o biri ilə pis olmaq ağlabatan deyil. Nikol isə faktiki olaraq bunu deyir: siyasi planda Moskvaya qarşı çıxacağıq, amma bunun iqtisadi zərərini görməməliyik. Əlbəttə, belə yanaşmada normal məntiq yoxdur.

Ermənistanın KTMT-ni gözdən salmaq istəyi xüsusunda onu da deyə bilərik ki, ölkə, ümumən, Rusiyanın hakim rol oynadığı bütün təşkilatları heçə saymaq üçün bəhanə axtarışındadır. Paşinyan 2 il əvvəl KTMT-yə sədrliklə dağıdıcılığa yol verdiyi kimi, hazırda eyni "missiyanı" AİI müstəvisində gerçəkləşdirir. O, bunu 1 il əvvəl dilə gətirdiyi və qurumun iqtisadi yönümlü olmasının vacibliyinə, siyasi amillərin onun fəaliyyətinə təsir göstərməsinin yolverilməzliyinə dair tezisi inkar etməklə gerçəkləşdirir.

***

Beləliklə, Paşinyan birbaşa 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın adını tutmasa da, tam aydındır ki, həmin sənədlə bağlı manipulyativ mövqeyini AİI müstəvisinə keçirir. Nikol bildirib ki, ölkəsi malların və insanların Ermənistandan keçidinin təhlükəsizliyinin təminatına hazırdır. Ardınca isə vurğulayıb ki, rəsmi İrəvanın haradasa, hansısa sənəddə üçüncü dövlətin Ermənistan ərazisində kommunikasiyaların təhlükəsizliyini təmin etməsinə razılıq verməsi barədə bəyanatlar reallığın təhrifidir. Baş nazir onu da bildirib ki, reallığın təhrifi İrəvanın regional kommunikasiyalarla bağlı öz suverenliyinin məhdudlaşdırılmasına nə vaxtsa razılıq verdiyini nəzərdə tutan bəzi şərhlərə də aiddir.

Elə isə 44 günlük müharibəyə son qoymuş, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat üzərində dayanaq. Daha doğrusu, sənədin 9-cu bəndinə diqqət yetirək. Həmin bənddə açıq şəkildə bildirilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

Göründüyü kimi, bəyanatda hər şey dəqiq göstərilib. Konkret olaraq, sənəddəki "Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili" fikrinə nəzər salaq. Deməli, ölkəmizin Naxçıvana yolun "Azərbaycandan Azərbaycana yol" kimi olmasına dair təsəvvürü tam doğrudur. Rəsmi İrəvan isə bununla razılaşmır.

Digər tərəfdən, bəyanatdakı "Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir" fikri də konkretdir. Yəni, Paşinyanın bu məsələdə da nəyi dandığı məlum deyil. Onun inkarçılığı AİI müstəvisinə gətirməsi isə əlavə mülahizələrə yol açır. Çox güman ki, bir azdan Paşinyan və komandasındakılar KTMT kimi, bu qurumu da Ermənistanın mənafelərini dəyərləndirməməkdə günahlandıracaqlar. Düşünülməsi mümkündür ki, üçtərəfli bəyanata üstüörtülü istinad, daha dəqiq desək, sənədi danma ritorikası bunun üçün yaxşı fürsət verib.

Bəli, Ermənistan rəhbərliyi özü təhrifçiliklə məşğuldur. Tam dəqiq yazılmış bir müddəanın inkarı misli-bərabəri olmayan həyasızlıqdır. Ancaq Paşinyanın və komandasının üzvlərinin ifasında belə qeyri-ciddilik dolu həyasızlıq, ilk dəfə deyil ki, yaşanır. Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova əbəs yerə danışmır. O, son vaxtlar inadlı şəkildə Ermənistanın üçtərəfli bəyanatdakı imzasını geri götürmədiyini xatırladır. Xanım Zaxarova belə deyir: Paşinyan bəyanatdakı imzasını geri götürsün ki, Ermənistanın ondan üz döndərdiyi rəsmiləşsin. Bunu etmirsə, deməli, sənəddə yazılanlar icra olunmalıdır.

Ancaq Paşinyan həm üçtərəfli bəyanatın icrasından boyun qaçırır, həm də imzasını geri götürmək istəmir. Məsələn, bir müddət əvvəl Ermənistan parlamentinin spikeri Alen Simonyan bildirmişdi ki, üçtərəfli bəyanatdan imtina sənədin icrasını təmin etmək potensialından uzaqlığın təsdiqi olar və bu səbəbdən belə bir addım atılmayacaq. Deməli, Simonyanın da həyasızlığı sərhəd tanımır.

Əlavə edək ki, Paşinyan, təxminən, bir ay öncə üçtərəfli bəyanata Ermənistanın məğlub, Azərbaycanın qalib ölkə statusunu təsdiqləyən sənəd kimi yanaşılmasının yolverilməzliyini də dilə gətirmişdi. Görəsən, başqa necə yanaşılmalıdır? Belə çıxır ki, Azərbaycan Ordusu erməni silahlı birləşmələrini İrəvana qədər qovmalı və Paşinyan daha rüsvayçı akta imza atmalı idi. Bir daha belə qənaətə gəlirik ki, Ermənistan rəhbərliyi üçün reallığın dərkinin gücdən başqa vasitəsi yoxdur.

Onu da deyək ki, Azərbaycan, heç bir halda, Ermənistanın Naxçıvana yol məsələsində regional kommunikasiyalarla bağlı təhlükəsizlik təminatına etibar etmir. Bu mövqenin əsaslandırılması üçün arqumentlər çoxdur. Həm 30 ilə yaxın davam etmiş işğal, həm də ondan əvvəl erməni millətçilərin Naxçıvana gedən qatarları daşa basması unudula bilməz. Habelə, Ermənistan 44 günlük müharibədən sonra özünün reabilitasiyası, inam və etibar qazanması naminə heç bir iş görməyib, səmimiyyət mühiti yaratmayıb, hər vəchlə Qarabağdakı artıq canını tapşırmış olan separatçı rejimi saxlamağa çalışıb. Azərbaycan hər bir nəticəyə öz gücü hesabına nail olub və nail olmaqdadır.

Üstəlik, hazırda Qərbin erməni avantürizmini Cənubi Qafqaz reallığının tərkib hissəsinə çevirmək istəklərini görürük. Bu meyilin nəticəsidir ki, rəsmi İrəvan "Dünyanın kəsişməsi" kimi cəfəng ideya səsləndirir. Belə bir ideya sözügedən avantürizmi diri saxlamaq məqsədinə hesablanmış həm siyasi, həm iqtisadi, həm də mənəvi dividend qazandıran təbiətə malikdir. Deməli, N.Paşinyanın AİI-nin Hökumətlərarası Şurasının İrəvanda keçirilmiş geniş tərkibdəki iclası zamanı bildirdikləri də Ermənistanın avantürizmdən əl çəkməyəcəyinin növbəti dəfə bəyan edilməsidir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# ABŞ Qarabağ məsələsini "canlandırmağa" çalışır

## Dövlət katibinin köməkçisinin də bu məsələyə qoşulması təsadüfi deyil

**Cənubi Qafqaz regionundan xeyli uzaqda yerləşən bir sıra ölkələr, xüsusilə ABŞ, Fransa və Kanada Azərbaycanın hərbi-siyasi gücü hesabına həllini tapmış keçmiş Qarabağ münaqişəsi məsələsini gündəmdə saxlamaq üçün son vaxtlar bir sıra addımlar atırlar. Bu addımları diqqətlə nəzərdən keçirdikdə onların bir mərkəzdən idarə olunduğu və sistemli xarakter daşıdığı hiss olunur.**

Məsələn, keçmiş separatçı rejimin nümayəndələri ABŞ Konqresinə dəvət edilir, Konqresdə "Dağlıq Qarabağın süqutu"na həsr olunan tədbir keçirilir. Həmçinin ABŞ və Fransanın hökumət, parlament və vətəndaş cəmiyyəti səviyyəsində aparıcı qurumları Qarabağdan köç etmiş ermənilərə dəstək verən çoxsaylı təşəbbüslər irəli sürürlər. Nümayəndələr Palatasının üzvü, Konqresdəki erməni qrupu sədrinin müavini Adam Şiff və bir sıra digər konqresmenlər tərəfindən irəli sürülən 2024-cü il üçün "Artsax gəlirlərinin bərpası aktı", OCCRP tərəfindən sifariş edilmiş "araşdırma", "Freedom House"un hazırladığı material, separatçı rejimin "dövlət naziri" Ruben Vardanyanın tərəfdaşı, USAID-in rəhbəri Samanta Pauerin "ermənilərin Qarabağdan kütləvi köçü"nə dair bəyanatı və ümumilikdə, USAID-in Ermənistana dəstəyinin artırılması, fransız diplomatı və siyasətçisi Natali Luazonun "Dağlıq Qarabağ ermənilərin etnik təmizlənməsi" gününü Avropa Parlamentində qeyd etmək təşəbbüsü və sair, necə deyərlər, eyni zəncirin halqaları təsirini bağışlayır.

Bu anti-Azərbaycan fəaliyyətinə, həmçinin ABŞ-nin aparıcı piar şirkətlərinin (məsələn, "Edelman" şirkəti ABŞ-nin ən iri piar şirkətidir–S.H.) Azərbaycana qarşı beynəlxalq media kampaniyasına cəlb edilməsi, Ermənistanın ABŞ və Fransa tərəfindən silahlanması, həmçinin Fransa lisenziyası altında Hindistan silahlarının ötürülməsi, anti-Rusiya sanksiyalarından yan keçmək və müvafiq olaraq Ermənistana böyük gəlirlər əldə etmək üçün imkan yaradılması, ABŞ və Fransanın Ermənistana irimiqyaslı iqtisadi yardımları da daxildir. Güman etmək olar ki, bu, məqsədyönlü siyasətdir. Məqsəd isə həllini tapmış, artıq haqqında keçmiş zamanda danışdığımız Qarabağ problemini yenidən "canlandırmaq" və Ermənistanı Qarabağ uğrunda yeni müharibəyə hazırlamaqdır. Bütün bunlar isə Ermənistanda yeni ümidlər yaradır, onun mövqeyini sərtləşdirir. Artıq İrəvanda "Dağlıq Qarabağ"dan daha çox danışmağa başlayıblar. Ölkənin xarici işlər nazirliyi və baş nazir "etnik təmizləmə"dən bəhs edir. Ermənistan 2023-cü ildəki lokal xarakterli antiterror tədbirləri ilə nəticələnmiş köhnə səhvlərini yenə təkrarlamağa başlayıb.

Oktyabrın 1-də ABŞ Dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə köməkçisi Dafna Rand Varşava insan ölçüsü konfransında bildirib ki, ABŞ tərəfi "Dağlıq Qarabağda beynəlxalq humanitar hüququn və insan hüquqlarının iddia edilən pozuntularını nəzərdən keçirməkdə" davam edir. Bu bəyanat isə ermənilərin revanşist iddialarına dəstavüz verən daha bir addım kimi nəzərdən keçirilməlidir.

Məsələyə Azərbaycan tərəfinin reaksiyası özünü çox gözlətməyib. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə elə həmin gün bildirib ki, Dövlət katibinin köməkçisinin məlum bəyanatı təəccüb doğurur: "Maraqlıdır ki, Azərbaycan ərazilərinin hərbi işğalı zamanı Ermənistan tərəfindən törədilmiş bəşəriyyətə qarşı irimiqyaslı cinayətlər və azərbaycanlılara qarşı qırğınlara baxmayaraq, ABŞ tərəfi beynəlxalq humanitar hüququn pozulması hallarının aradan qaldırılmasının vacibliyinə yalnız indi istinad edir. 30 ilə yaxın müddətdə Ermənistanın bu cinayətləri ABŞ tərəfindən tam sükutla qarşılanıb. Əgər ABŞ tərəfi qərəzsizlik və ədalətli mövqe nümayiş etdirmək istəyirsə, ilk növbədə Ermənistanın indiyədək törətdiyi çoxsaylı cinayətlərin araşdırılmasını, günahkarların qanun qarşısında cavab verməsini tələb etməlidir".

A.Hacızadə qeyd edib ki, əks halda, bu, beynəlxalq ictimaiyyəti çaşdırmaq, Ermənistanın təcavüzü zamanı yüz minlərlə azərbaycanlının əsas insan hüquq və azadlıqlarının kobud şəkildə pozulmasından diqqət yayındırmaq məqsədi güdən erməni təbliğatı nəticəsində verilən birtərəfli bəyanatdan başqa bir şey deyil.

Göründüyü kimi, ABŞ-dən konqresmen və senatorların, QHT təmsilçilərinin və ermənipərəst medianın verdiyi bəyanatlara artıq rəsmi şəxslər də qoşulub. Bu isə proseslərin vahid mərkəzdən idarə olunduğunu, məkrli niyyətlər güddüyünü deməyə əsas verir.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin rəhbəri Fərid Şəfiyev** mövzu ilə bağlı "XQ"-yə şərhində



bildirdi ki, baş verənlərə ABŞ-də noyabrın 5-nə planlaşdırılan seçkiqabağı kampaniyanın tərkib hissəsi kimi baxmaq lazımdır.



Onun sözlərinə görə, xüsusilə, demokratlar ənənəvi olaraq "erməni məsələsi"nə xeyli diqqət ayırıb və erməniləri dəstəkləyiblər: "Onların ABŞ-də yaşayan ermənilərlə yaxın bağlantıları var. Konqresmen Adam Şiff, hazırda korrupsiya məsələsinə görə istintaq altında olan senator Robert Menendes Konqresdə erməni lobbisini təmsil edən əsas şəxslərdir. Ermənistanla və ermənilərlə bağlı səslənən fikirləri seçkiqabağı kampaniya çərçivəsində hazırkı hökumətin yenidən seçilmək üçün erməni icmasına verdiyi mesajlar kimi qiymətləndirməliyik".

Bununla belə F.Şəfiyev kimlərinsə Qarabağ məsələsini yenidən "canlandırmaq" istəyində olmasına, yaxud buna nail olacağına inanmadığını bildirdi: "Mən buna inanmıram. Burada əsas məsələ Ermənistan hökumətinin mövqeyidir. Amma erməni diasporu, təbii ki, bu məsələni "canlı" saxlamaq istəyir. Buna görə də ABŞ, Kanada və Fransa hakimiyyətinin məsələni gündəmdə saxlamasını təmin etməyə çalışır".

**Politoloq Yeganə Hacıyeva** isə açıqlamasında dedi ki, hələ ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq azərbaycanlı əhalinin indi Ermənistan Respublikasının ərazisi olan tarixi topraqlarından zorla köçürülmələri zamanı soydaşlarımıza qarşı qətl hadisələri də daxil olmaqla xeyli cinayətlər törədilib. Bu cinayətlərin baş verməsinin yeganə səbəbi onların milli mənsubiyyəti olub. Etnik zəmində törədilən cinayətlər isə beynəlxalq konvensiyalarda bəşəriyyətə qarşı cinayətlər kimi tövsif edilir: "Törədilən cinayətlərlə bağlı məlumatlar təkcə Azərbaycana məlum deyil, həm də beynəlxalq ictimaiyyətə, o cümlədən ABŞ-yə məlumdur. Məsələ ondadır ki, SSRİ-nin dağılması prosesini diqqətlə izləyən ABŞ təhlükəsizlik orqanları məhz Ermənistan ərazisində azərbaycanlı əhaliyə qarşı törədilən cinayətlərlə bağlı dəqiq



məlumatlara malik idilər. Həmin dövrdə baş verən hadisələr həm faktlaşdırılır, həm də gələcək üçün arxivləşdirilirdi. Bu baxımdan azərbaycanlıların deportasiyası və bu zaman baş verən bütün xoşagəlməz hadisələr ABŞ-yə məlum idi. Amma, məsələ ondadır ki, Vaşinqton nə həmin dövrdə, nə də ondan sonra bir dəfə də olsun Ermənistanla bağlı kütləvi qətllərdən tutmuş bəşəriyyət, sülh və insanlıq əleyhinə cinayətlər kimi təsnifatlandırılmış cinayətlərin heç birinə reaksiya verməyib. Ağ Ev Ermənistanı beynəlxalq humanitar hüququn pozulmasına görə bir dəfə də olsun təqsirləndirməyib".

Y.Hacıyeva qeyd etdi ki, sonrakı dövrdə, yəni 1990-cı ildən sonra Azərbaycanda baş verənlər isə hamının gözləri önündədir. Ümumilikdə, bir milyon əhali qaçqın və məcburi köçkünə çevrilmiş, böyük məhrumiyyətlərə düçar olmuşdur. Nə azərbaycanlıların Ermənistan ərazisindən deportasiyası, nə də işğal olunmuş ərazilərdən məcburi çıxmaları zamanı beynəlxalq humanitar hüququn heç bir qaydasına əməl edilməmişdir. Həmin dövrdə humanitar qaydalara əməl edilməməsi, beynəlxalq konvensiyaların tələblərinin pozulması ABŞ-yə yaxşı məlum olsa da, nə Dövlət Departamenti, nə Nümayəndələr Palatası, nə də Senat tərəfindən bununla bağlı hansısa fikir bildirilməmişdir: "Burada bir haşiyə çıxmaq istərdim. Məlumdur ki, Birinci Qarabağ müharibəsinin gedişi zamanı mülki əhaliyə qarşı soyqırımı cinayətləri də törədilmişdir. Bu cinayətlərin təsnifatlaşdırılması da məhz beynəlxalq konvensiyalar, beynəlxalq qanunvericilik əsasında həyata keçirilib. Etnik mənsubiyyət əsas götürülərək dəfələrlə soyqırımı cinayətlərinin baş verməsi göz önündə idi. Amma bütün dünyada insan hüquqlarının və demokratiyanın müdafiəçisi qismində çıxış edən ABŞ bununla bağlı hər hansı mövqe nümayiş etdirməyib".

Müsahibimiz bildirdi ki, Ermənistana qarşı sanksiyaların tətbiq olunması məsələsi Nümayəndələr Palatasında indiyədək cəmi bir dəfə gündəmə gəlib. Bu da Vaşinqtonun şəxsi maraqları ilə bağlı olub: "1990-cı illərdə Yaxın Şərqdəki etnik ermənilər bölgədəki qarışıqlıqdan istifadə edərək, Ermənistan hakimiyyəti vasitəsilə qeyri-qanuni silah satışı həyata keçirirdilər. Həmin silahlar regiondakı amerikalı əsgərlərə tuşlandığı üçün konqresmenlər, necə deyərlər, ənənəni cəmi bir dəfə pozaraq, Ermənistana sanksiyalarla bağlı təkliflər səsləndirmişdilər".

Politoloq digər bir müqayisə də apardı. Dedi ki, SSRİ-nin dağılmasından ötən 33 il ərzində postsovet ölkələrində, yaxud dünyanın digər yerlərində milyonlarla insanın qaçqın və məcburi köçkünə çevrilməsi halları baş verib. ABŞ Konqresi, yaxud da Dövlət Departamenti bu hadisələrin heç biri ilə bağlı humanitar hüququn pozulması məsələsini qaldıraraq, sanksiya tətbiqi məsələsini gündəmə gətirməyib: "Ona görə də belə bir məntiqi sual yaranır ki, nə üçün sanksiya məsələsi yalnız 2023-cü ilin sentyabrında Qarabağı könüllü şəkildə tərk etmiş etnik ermənilərlə bağlı gündəmə gətirilir? Onların gedişini beynəlxalq humanitar hüququn pozulması, deportasiya kimi qələmə verməkdə məqsəd nədir? Əlbəttə, biz burada məqsədin nədən ibarət olduğunu bilirik. Bunun izahı hazırda ABŞ-də hakimiyyətdə olan Demokratlar Partiyası daxilində ermənilərin rəhbər şəxslərə təsir imkanlarının kifayət qədər olmasında, demokratların isə öz növbələrində erməni icmasından istifadə etməsindədir. Nümayəndələr Palatasının spikeri Nensi Pelosi də 2022-ci ilin sentyabrında demokratların rəhbəri qismində məhz erməni lobbisinin vəsaiti hesabına İrəvana səfər etmişdi".

Y.Hacıyeva onu da bildirdi ki, ABŞ-də keçiriləcək prezident seçkiləri öncəsi erməni əsilli vətəndaşların səslərini qazanmaq üçün Demokratlar Partiyası rəhbərliyi ismarıclar verməkdədir. Amma Vaşinqton bu ismarıcların uzunmüddətli perspektivdə Cənubi Qafqaz kimi mühüm regionda ABŞ-nin strateji tərəfdaşı olan Azərbaycanın maraqlarını zədələdiyini nəzərə almalıdır.

***Səxavət HƏMİD***
***XQ***

# Milli ideya və “millət” ideyası



### I məqalə

## Milli ideyanın fəlsəfəsi

Yeni tarixi mərhələdə milli ideyanın müəyyən edilməsi fonunda “millət” ideyasının da fəlsəfi dərkinin əhəmiyyəti aydın görünür. Mövcud fəlsəfi araşdırma təcrübəsinə baxanda burada mürəkkəb və dərin dinamikalı bir fenomenin olduğunu görürük.

Məsələ onunla bağlıdır ki, milli ideya çoxaspektli semantik, fəlsəfi, siyasi-nəzəri və sosial-mədəni anlamı olan məhfumdur. Həm də milli ideyada toplumun (millətin) geosiyasi, tarixi və mədəni özəllikləri ciddi rol oynayır. Bütövlükdə, milli ideyanın toplumun dünyaduyumu, həyat fəlsəfəsi, strateji məqsədləri, tarixi, sosial-mədəni özəllikləri ilə sıx bağlılıqda formalaşması haqqında yekdil mövqe mövcuddur. Daha geniş kontekstdə isə onun dövlətçilik ənənəsi, lider–toplum münasibətləri, milli xarakter, fərdi və kollektiv identikliyin nisbəti, milli özşüur, dövlətçilik şüuru və etnik identikliklə qarşılıqlı bağlılıqda yarandığını deyə bilərik.

Avropa və Rusiya filosofları bununla bağlı geniş araşdırmalar aparmışlar. Məsələn, indiki mərhələdə M.Hrox milli hərəkatın xarakter və məzmununu milli ideya ilə əlaqələndirir. O vurğulayır ki, bu zaman milli hərəkatı stimullaşdıran və yönəldən milli ideya konkret ölkənin tarixindən, sosial-psixoloji özəlliklərindən, mədəniyyətindən və milli özşüur tərkibində dövlətçilik şüurundan asılı olur.

Beləliklə, hər bir tarixi dönəmdə milli ideya geniş anlamda geosiyasi və tarixi-mədəni xüsusiyyətlərin qarşılıqlı münasibətləri fonunda formalaşa bilər. Təbii ki, ümumfəlsəfi aspektdə məsələnin belə qoyuluşunun mənası vadır. Bununla yanaşı, söhbət konkret cəmiyyətdən gedəndə milli ideya kontekstində həm geosiyasi amilləri, həm də tarixi-mədəni özəlliyi ayrıca nəzərə almaq gərəkdir. Bu da məsələnin həm fəlsəfi, həm də praktiki reallaşma aspektini daha da aktuallaşdırır.

## Geosiyasi və tarixi-mədəni amillər

Milli ideya haqqında söylənilən fikirlər onu göstərir ki, o, toplumun mövcudluğunun geosiyasi və tarixi-mədəni şərtləri ilə sıx əlaqəlidir. Bu keyfiyyətdə milli ideya üçün meydana çıxan əsas suallardan biri konkret tarixi dönəmdə tarixi-mədəni, yaxud geosiyasi amillərin həlledici rol oynaması ilə bağlıdır.

Onu da deyək ki, geosiyasi kontekst milli ideya baxımından heç də ikincidərəcəli amil deyildir. XIX əsrdə yaşamış T.Rasselin milli ideya ilə bağlı 1898-ci ildə yazdığı məşhur məqalədə geosiyasi kontekst ciddi surətdə nəzərə alınmışdır. Konkret olaraq, T.Rassel milli ideyanı, bütövlükdə, dövlətin və millətin təhlükəsizliyi ilə sıx əlaqələndirmişdir.

Eyni mövqe XX əsrin sonu və XXI əsrin ilk onilliklərində də geostrateqlərin və filosofların əsərlərində özünü göstərir. 1994-cü ildə Henri Kissincer yazırdı ki, hər bir dövlətin “həyati əhəmiyyətli maraqları” mövcuddur. Dövləti əhatə edən “beynəlxalq aləmdə elə dəyişikliklər” baş verə bilər ki, “böyük ehtimalla milli təhlükəsizliyin dağılmasına səbəb olar”. Bu halda dövlət və cəmiyyət təhlükənin hansı formada olmasından asılı olmayaraq, ona qarşı durmalıdır.

Başqa bir nümunə kimi keçən əsrin sonlarında Rusiyada aparılan tədqiqatlarda yer almış fikirləri göstərmək olar. A.Arbatov yazırdı ki, “rus ideyası” milli ideya kimi rus milli xarakteri ilə sıx bağlıdır. Eyni zamanda, bu məsələ Rusiyanın geosiyasi durumu ilə birbaşa əlaqəli olmuşdur. Hətta XX əsrin sonlarında rus milli ideyası daha çox geosiyasi amildən asılı hala gəlmişdir.

## Milli ideya, milli kimlik və siyasi identiklik

Frensis Fukuyamanın milli kimlik və milli identiklik aspektində “siyasi identiklik” anlayışını təhlili milli ideyanın fəlsəfi anlamı baxımından maraqlıdır. F.Fukuyama müasir mərhələdə toplumsal miqyasda identikliyin siyasi və geosiyasi anlamlar kəsb etdiyini vurğulayır və belə qənaətə gəlir ki, milli identikliyə sayğılı münasibət həm də siyai identikliyi beynəlxalq miqyasda qəbul etməyə imkan yaradır. O yazır ki, “öz identikiliyinə sayğılı yanaşma və etiraf etdirmə tələbi universal anlayışdır” ki, bu da müasir dünya siyasətində “çox şeyi əhatə edir”.

Belə görünür ki, F.Fukuyama kollektiv identikliyi qəbuletdirməni müasir dövlətçilikdə mühüm fenomen hesab edir. Bu yanaşma çərçivəsində özlüyündə milli identikliklə siyasi identiklik və milli ideya sıx bağlı görünür. Onun fəlsəfi təməli kimi, F.Fukuyama “öz ləyaqətini daxilən duyma” ilə həmin ləyaqəti ətraf aləmə qəbuletdirmə arasında sıx əlaqənin olmasını bildirir.

Buradan F.Fukuyama identikliyin müəyyən edilməsini XXI əsrdə dünya siyasətində ciddi hadisə kimi təqdim edir. Bu mənada o, identikliyin hətta “solçuluq” və “sağçılıq”dan daha çox cəmiyyət və dövlətin ümumi obrazını müəyyən etdiyini ifadə edir.

Nəhayət, “inkişaf etmiş milli identiklik” “etnomillətçiliyə” yuvarlanırsa, bir növ cəmiyyət və deməli, milli ideya formalaşdırır, başqa struktur-funksional özəllik kəsb edirsə, fərqli milli ideya formalaşdırır .

Frensis Fukuyamanın bu ideyaları Qərbdə maraqla qarşılanmışdır. Bütün hallarda tədqiqatçılar milli və siyasi identiklikdə geosiyasi və tarixi-mədəni amillərin qarşılıqlı əlaqəsini inkar etmirlər.

## Milli ideya və “millət” ideyası anlayışı

Yuxarıdakı fikirlərdən belə çıxır ki, hər bir ölkənin konkret tarixi mərhələdə milli identikliyinə tarixi-mədəni amillər ciddi təsir edir. Bu proses müxtəlif aspektlərdə həmin dövrün geosiyasi xüsusiyyətləri ilə qarşılıqlı əlaqədə özünü göstərir. Məhz buna görədir ki, eyni tarixi mərhələdə müxtəlf ölkələrin milli ideyaları bir-birindən fərqlənirlər. Bu özəllik hətta eyni regionda yerləşən iki qonşu dövlətə xas ola bilər.

Tarixi-mədəni kontekstdə milli ideyanın fəlsəfi dərki üçün əhəmiyyətli olan bir özəlliyi vurğulamaq gərəkdir. Filosoflar “milli ideya” ilə “millət ideyası” arasında fərq qoyurlar. Bu anlayışlar ilk baxışdan bir-birinə sinonim kimi görünürlər, lakin dərinliyə varanda aralarında ciddi məna fərqlərinin olduğu üzə çıxır. Həmin fərqlər məhz toplumun tarixi-mədəni təkamül bağlılığında dərki zamanı özünü göstərir.

Bu baxımdan ingilis tarixşünası Benedikt Andersonun millətçiliklə və millətlə bağlı maraqlı araşdırmasına baxmaq olar. B.Anderson, ümumiyyətlə, “millət” anlayışını təxəyyülün məhsulu hesab edir. Kollektiv zəka özü haqqında “millət anlamını” yaradır. Reallıqda bunun belə olub-olmadığı isə tam aydın deyildir. Əslində, burada ingilis tədqiqatçı hər bir toplumun özünün daxili tarixi-mədəni dinamikası olduğuna işarə edir. Toplum özünü həmin çərçivədə dərk edir. Bu özünüdərk digərlərindən fərqlənir. Ona görə də “millət” konkret şərtlər daxilində hər şeydən öncə ideyadır.

Belə alınır ki, “millət” ideyası tarixi sosial-mədəni varlığın aktual anlayışlarından biridir. Müasir sosial-mədəni varlıq kontekstində “millət” ideyası milli ideyadan etno-mədəni identiklik aspektində fərqlənir. Milli ideya baxımından da məsələnin maraqlı və aktual tərəfi həmin məqamla əlaqəlidir. Səbəbi milli ideyanın “milliliyi”nin hansı məzmun, forma və məqsəd alması ilə bağlıdır.

Bunun təməlində isə milli ideyanın “millilik” xüsusiyyətinin “kültür varisliyi” və “sivil özünəməxsusluğu”ndan qaynaqlanması dayanır. Bununla, “milli ideya” və “millət” ideyasının mümkün qarşılıqlı müqayisəsinin ortaq idraki (koqnitiv) sahəsini müəyyən etmək mümkün olur: vurğulanan anlayışlar tarixi sosial-mədəni gerçəklik fonunda toplumun mədəniyyət varisliyi (və ya kültür dəyərlərinin irsiliyi) ilə sivil özünəməxsusluğunun vəhdəti sərhədləri daxilində konkret məzmun alırlar.

## Milli ideyanın formaları

Aydındır ki, müəyyən səbəblərdən bir cəmiyyət məhdud radikal ultramillətçi milli ideya formalaşdırır, digərləri sırf dini maraqlara görə milli ideyaya məzmun verir (onlar, adətən, özünü böyük sayan dövlətlərdə olur və uzaq strateji məqsədə xidmət edir), bir başqa dövlət isə demokratik müstəvidə yerli (milli) dəyərlərlə bəşəri dəyərlərin (qlobal, beynəlxalq, multikultural) sintezi kontekstində milli ideya müəyyən edir. Dünya tarixində rast gəlinən bir neçə nümunənin timsalında milli ideyanın vurğulanan növlərini görmək olar.

Ultramillətçi milli ideya faktiki olaraq eyni ruhda dərk edilən millət ideyasından qaynaqlanır. Filosoflar bunu cəmiyyətin tarixin gedişində özünü itirməmək üçün müraciət etdiyi və sosial-mədəni praktikanın özəlliyi ilə izah edirlər. Əgər bu praktikada qərəzli və başqalarına yönəlik aqressiv elementlər varsa, toplumun özünün millət haqqında təsəvvürlərində mütləq radikal ultramillətçi məqamlar üstünlük təşkil edəcəkdir. Misal olaraq keçən əsrin başlanğıcında alman cəmiyyətində qisas amili üzərində dövlətin inkişaf etdirilməsini göstərmək olar.

Almanlar öncəki tarixi mərhələlərdə Avropanın bir sıra dövlətlərindən zərbələr aldıqlarından XIX-XX əsrlərdə qisas duyğusu üzərində toplumsal sosial-psixoloji dəyişikliklər etdilər. Nəticəsi o oldu ki, XX əsrdə iki dəfə dünya savaşına qatıldılar və hər ikisində məğlub oldular.

II Dünya savaşında A.Hitlerin ideologiyası sırf ultraradikal, qisasçı və məhdud etno-mədəni xüsusiyyətlərə əsaslanırdı. Bunun təzahür forması faşizm oldu və dünya tarixində bu məsələyə görə almanlar müsbət olmayan imicə sahib oldular. Lakin kökdən alman toplumunun yaradıcı etnomədəni və sivil keyfiyyətələri K.Adenauerə imkan verdi ki, XX əsrin ikinci yarısında milli ideyanı yeniləşdirərək “barış strategiyası” tezisi müstəvisinə gətirə bilsin. Bu barədə Henri Kissincer XX əsrin dünya strategiyalarına həsr edilmiş əsərində vurğulayır.

## Erməni ultramillətçiliyi

Kiçik dövlət olan Ermənistan başqa məzmun və formada millət ideyasından milli ideyaya keçid etmişdir. Ermənilər uydurma müstəsnalıq təsəvvürü əsasında “ən qədim dini və mədəni millət” xülyasına uymuşlar. Bu əsasda onlar “hər bir qonşudan daha yaxşıyıq” xəyalına qapılmışlar. Nəticədə, “soyqırım” nağılı əsasında qonşu ölkələrə, mədəniyyətlərə, dövlətlərə qarşı radikal ultramillətçi baxışlar qazanmışlar.

Onlar almanlardan fərqli olaraq, toplum kimi təməldən güclü yaradıcılıq və dünyəvilik keyfiyyətlərinə malik olmadıqlarından millət anlayışında və milli ideyada hələ də radikal ultramillətçi mövqeni tərk edə bilmirlər. Konstitusiyalarında hələ də qonşu dövlətlərə ərazi iddiaları qalmaqdadır. Hətta təhlükəsizlik doktrinalarında Azərbaycanın Gəncə şəhərinə iddia yer almışdır.

Milli ideyanın ultramillətçi formasından fərqli növləri də vardır. Onlar dini təsəvvürlərə dayanan milli ideya və demokratik dəyərlərə söykənən müasir və sivil xarakterli növləridirlər. Dini təsəvvürlər üzərində bərqərar olan milli ideyaya nümunə olaraq Avropa dövlətlərini və Rusiyanı göstərə bilərik. Onlardan fərqli olaraq, Azərbaycan Respublikası demokrtatik dəyərlərə söykənən müasir və sivil xaraktrli milli ideya formalaşdırır. İndi Azərbaycan hakimiyyəti və cəmiyyəti yeni tarixi mərhələ üçün belə milli ideyanı formalaşdırır.

**(ardı var)**

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**



# Demokratik mühit həmkarlar ittifaqlarının azad fəaliyyətinə geniş imkanlar açır

**“Azərbaycan həmkarlar ittifaqlarının başlıca vəzifəsi üzvlərinin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsidir. Hazırda biz fəaliyyətimizin daha da təkmilləşdirilməsi istiqamətində səylə çalışırıq”. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov mediaya bu açıqlamasının davamında bildirib:**



– Azərbaycanda bərqərar olan demokratik mühit, insan hüquq və azadlıqlarının ən ali səviyyədə təmin edilməsi ictimai təşkilatların, o cümlədən həmkarlar ittifaqlarının da səmərəli fəaliyyətinə geniş imkanlar açır. Biz bu imkanlardan yararlanaraq ittifaq üzvü olan vətəndaşlarımızın iş şəraitinin qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılması, əməyin mühafizəsi, sağlam və təhlükəsiz iş şəraitinin yaradılması, sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi istiqamətində fəaliyyətimizi qururuq.

Üzvlərimizin sağlamlığına, sanatoriya, kurort müalicəsinə, istirahətlərinin təşkilinə diqqətimizi artırırıq. Hazırda Konfederasiyaya məxsus sanatoriyalara baxışlar keçiririk, vəziyyətlə yerində tanış oluruq. Bilirsiniz ki, hər il həmkarlar ittifaqlarının minlərlə üzvü yollayışlarla təmin edilir, onların normal müalicəsi və istirahəti üçün hər cür şərait yaradılır. Lakin onu da etiraf edək ki, hazırkı infrastrukturla bütün üzvlərimizin bu xidmətlərə əlçatanlığını tam təmin edə bilmirik. Bunun üçün mövcud vəziyyət diaqnostika olunur və biz bu prosesə Azərbaycan İnvestisiya Holdinqini, habelə beynəlxalq konsaltinq – “Boston Consulting Group” və "McKinsey & Company" şirkətlərini cəlb etmişik, xarici təcrübə də öyrənilir.

Çalışacağıq ki, sanatoriyaları daha müasir avadanlıqlarla təchiz edək, maddi-texniki bazanı təkmilləşdirək, eyni zamanda qabaqcıl beynəlxalq tələblər və mütərəqqi üsullarla idarə olunmasını təşkil edək. Sahə həmkarlar ittifaqlarının rəhbərləri ilə keçirdiyimiz görüşlərdə yollayışların verilməsində növbəlik prinsipinin qorunmasını xüsusi olaraq tövsiyə edirik. Çünki bu imkandan ehtiyacı olan bütün ittifaq üzvləri yararlanmalı, əlçatanlıq təmin olunmalıdır.

**Konfederasiya rəhbəri daha sonra qeyd edib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi davamlı sosial-iqtisadi islahatlar, qəbul etdiyi mütərəqqi proqramlar, bu istiqamətdə verdiyi vacib fərman və sərəncamlarla xalqımızın maddi təminatı dəfələrlə yüksəlib:**

– Müstəqil iqtisadi siyasət həyata keçirən dövlətimizin geniş maliyyə imkanları xalqımızın bilavasitə mənafeyinə xidmət edir. Son 5 ildə minimum əməkhaqqı 2,7 dəfə artıb. Sentyabrın 23-də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında iştirak edən cənab Prezidentimiz İlham Əliyev bildirdi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaq. Təbii ki, bu da ittifaq üzvlərinin sosial rifahına ciddi təsir göstərəcək.

Təcrübə göstərir ki, sosial dialoqun köməkliyi ilə mürəkkəb məsələlərin həlli, sosial sabitliyin təmin edilməsi ən uğurlu yoldur. Biz bundan sonra da qarşılıqlı əmək və sosial-iqtisadi münasibətləri sosial tərəfdaşlıq prinsipləri üzərində quracaq, hökumət və işəgötürənlərlə real dialoqu davam etdirəcək, əmək münasibətləri sisteminin optimallaşdırılmasına, sivil sosial tərəfdaşlığın inkişafı və təkmilləşdirilməsinə töhfələr verməyə çalışacağıq.

AHİK qadınların ölkənin sosial-iqtisadi həyatında fəal iştirakına, həmkarlar ittifaqlarının strukturlarında daha çox təmsil olunmasına, onların rolunun gücləndirilməsinə xüsusi diqqət yetirir. Respublika üzrə həmkarlar ittifaqı üzvlərinin 50 faizdən çoxu qadınlardır. Statistik hesabatların araşdırılması onu deməyə əsas verir ki, yerlərdə qadın və kişilər üçün bərabər hüquq və imkanların təmin olunması vacib məsələdir. Odur ki, bu sahə üzrə fəaliyyətimizi daha da intensivləşdirəcəyik. Eləcə də Konfederasiyada işçilərin fəaliyyətinin qiymətləndirilməsi prosesi aparılır, struktur təkmilləşdirilir və beynəlxalq standartlara uyğunlaşdırılır.

**Konfederasiya sədri vurğulayıb ki, gənclərin böyük qismi həmkarlar ittifaqı sıralarındadır – həmkarlar ittifaqı üzvlərinin 38 faizindən çoxunu gənclər təşkil edir:**

– Onların həmkarlar ittifaqlarının gələcək inkişafında və daha da möhkəmlənməsində rolu böyükdür. Buna görə də gənclərin sosial-iqtisadi problemlərinin həllinə kömək göstərilməsinə, onların həmkarlar ittifaqı strukturlarındakı fəaliyyətinə, keçirilən tədbirlərə cəlb edilməsinə və həmkarlar ittifaqının kadr ehtiyatının gənclər hesabına yaradılmasına xüsusi önəm verəcəyik.

Gənc kadrların hazırlanması və ixtisasının artırılmasında AHİK-in nəzdində olan Əmək və Sosial Münasibətlər Akademiyasının üzərinə də xüsusi məsuliyyət düşür. Akademiyanın digər təhsil müəssisələri sırasında abituriyentlər üçün cəlbediciliyinin artırılması, eyni zamanda rəqabətədavamlı struktur olaraq təkmilləşdirilməsi sahəsində də ciddi, ölçüləbilən nailiyyətlərin əldə olunması məqsədilə müvafiq tapşırıqlar verilib.

**AHİK sədri Sahib Məmmədov sonda bildirib ki rəhbərlik etdiyi qurum və üzv təşkilatlar beynəlxalq həmkarlar ittifaqı hərəkatının bir parçası olaraq Beynəlxalq Əmək Təşkilatı, eləcə də beynəlxalq və regional həmkarlar ittifaqı təşkilatları ilə daha sıx təmaslar quraraq münasibətlərini bundan sonra daha da genişləndirəcək:**

– Qeyd edim ki, sentyabrın 26–27-də Bakıda Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası və Pan-Avropa Regional Şurası ilə birgə “İqlim dəyişmələri və ədalətli keçid: həmkarlar ittifaqlarının rolu və fəaliyyətləri” mövzusunda beynəlxalq konfrans keçirdik. Bu çərçivədə beynəlxalq həmkarlarla keçirdiyimiz görüşlərdə gələcək əməkdaşlıqla bağlı geniş müzakirələr apardıq, istiqamətləri müəyyənləşdirdik.

Sonda bir daha vurğulayım ki, hazırda biz bütün istiqamətlər üzrə araşdırmalarımızı davam etdirir, yerlərdə mövcud vəziyyəti öyrənir və görüləcək işlərlə bağlı qərarlar qəbul edirik. Əsas məqsədimiz Azərbaycan həmkarlar ittifaqlarını dinamik olaraq inkişaf etdirmək, cəmiyyətdə nüfuzunu artırmaq, yeni çağırışlara uyğun olaraq, fəaliyyətimizi ardıcıl olaraq təkmilləşdirmək və Azərbaycanın xoşbəxt gələcəyinə mühüm töhfələr verməkdir.

**Çapa hazırladı:**
**Tahir AYDINOĞLU**
**XQ**



# Xalq o gün milli tariximizin ümid səhifəsini yazmışdı

## *Söhbət 1993-cü ilin 3 oktyabr seçkilərindən gedir*

**Ümid edirəm ki, hörmətli oxucular gündəlikdəki mövzuya birbaşa 1993-cü ilin oktyabrından deyil, 30 il sonrakı oktyabrdan başladığıma görə məni qınamazlar. Çünki 1993-cü ildə xalq prezident seçkilərinə gedəndə öz ümidinin əlindən tutub yeriyirdisə, 2023-cü il oktyabrın 15-də Xankəndidə öz sevincinin, qürurunun, məğrurluğunun miqyasını ölçüb-biçir, bayramını yaşayırdı.**

Həmin gün özünün dövlət başçısı seçilməsinin 20 illiyi münasibətilə Xankəndidən xalqa müraciət edən Prezident İlham Əliyev geridə qalan iki onillikdəki uğurların hamısını "unudaraq", ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyasını yada salmışdı: "Heydər Əliyevin dühası, onun siması, Heydər Əliyev amili Azərbaycan xalqının yardımına yetişdi və biz haqlı olaraq, Ulu öndəri Xilaskar adlandırırıq. O vaxt Azərbaycanın dövlət müstəqilliyi əldən gedə bilərdi". Təbii ki, Azərbaycanın çoxsaylı şəhidlər, unudulmaz itkilər bahasına bərpa etdiyi dövlət müstəqilliyimiz əldən getmədi. Çünki xalqın böyük oğlu Heydər Əliyev prezident seçiləndə bu müstəqilliyin əbədiləşdiriləcəyinə and içmişdi.

Bizim çoxumuz həmin günlərin şahidiyik. O, əlini Azərbaycan Respublikasının Konstitusiyasına və müqəddəs kitabımız Qurani-Şərifə basaraq and içmişdi ki, müstəqil dövlətimizin sivilizasiyalı dünya dövlətləri arasında yer tutmasına nail olacaq. Nail oldu. Bu gün məhz onun qurub-yaratdığı müstəqil Azərbaycan dövləti dünyanın ən qüdrətli dövlətləri, ən aparıcı beynəlxalq təşkilatları arasında mühüm söz sahibinə çevrilmişdir. O, and içmişdi ki, Azərbaycan Respubilkasının demokratik, hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı olacaq. Oldu. Hamının yadındadır, Azərbaycan dövləti dünyanın 200-dən artıq dövləti arasında "Ən islahatçı ölkə" adına layiq görülmüşdü. Ölkəmiz on illər boyu insan hüquq və azadlıqlarının qorunmasına görə bütün Avrasiyada nümunə göstərilir.

Doğrudur, 2020-ci ilin payızında işğalçı və qaniçən ermənilərin layiq olduqları cavabı almasından, separatçı qurumun quldur rəhbərlərinin tutularaq Bakıya gətirilməsindən sonra bəzi beynəlxalq təşkilatlar, guya, Azərbaycanda insan hüquqlarının pozulmasından danışırlar. Biz isə onlara xatırladırıq ki, Xocalı soyqırımını unutmayın, Qafqazın Xirosimasına çevrilmiş Ağdamı xatırlayın, ölkəmizin ərazisinin 20 faizinə səpilmiş minalardan danışın! Əgər bütün bunları görə bilmirsinizsə, onda insan hüquqlarından danışmağa haqqınız yoxdur!

Heydər Əliyevin qurub yaratdığı müstəqil Azərbaycandakı seçki qanunvericiliyinə və seçki təcrübəsinə görə Avropanın bütün ekspertləri ölkəmizin təcrübəsinin daha geniş yayılması barədə təkliflə çıxış edirlər. ... Məmnunluqla xatırladırıq ki, bu il keçirdiyimiz prezident və parlament seçkiləri barədə heç bir əcnəbi müşahidəçi (onların sayı əvvəlki seçkilərdəki müşahidəçilərdən çox idi) mənfi rəy vermədi. Bu gün Heydər Əliyevin məhv olmaqdan, parçalanmaqdan xilas etdiyi Azərbaycan dövləti Avropa üçün ən mühüm, ən gərəkli ölkələrdən birinə çevrilmişdir.

Zənnimcə, ulu öndərin müstəqil Azərbaycanda ilk dəfə dövlət başçısı seçilməsinin 31-ci ildönümü münasibətilə qələmə aldığımız bu yazıda əsasən üç mühüm məqama diqqət yetirmək zərurəti yaranır: Milli tariximizin həmin dövrünün reallıqları, xalqın bəla və məhrumiyyətlərdən qurtulmaq üçün çıxış yolu axtarması və Azərbaycan əhalisinin 3 oktyabr 1993-cü il tarixli seçiminin nəticələri. Qətiyyətlə deyə bilərəm ki, bu üç amil bir-biri ilə sıx şəkildə bağlıdır. Ona görə də biri haqqında söz açarkən deyəcəyin fikirlər başa çatan kimi istər-istəməz ikinci məsələnin üstünə gəlməli olursan.

> **And içirəm ki, Azərbaycan Respublikasına, Azərbaycan xalqına ləyaqətlə xidmət edəcəyəm, müstəqil dövlətimizin sivilizasiyalı dünya dövlətləri arasında, dünya birliyində ləyaqətli yer tutmasına çalışacağam.**
>
> ***Ümummilli lider Heydər Əliyevin ilk dəfə prezident kimi andiçmə mərasimindəki nitqindən***
>
> **10 oktyabr 1993-cü il**

1993-cü il 3 oktyabr seçkiləri ərəfəsində xalq ölkədə amansızcasına davam edən hakimiyyət davasından bezmişdi. İmperiyapərəst qüvvələrlə xalq azadlıq hərəkatının dalğası üzərində hakimiyyətə gəlmiş AXC–Müsavat iqtidarı arasında gedən hakimiyyət savaşı ölkəni xaos və anarxiya girdabına yuvarlamış, dövlətçiliyin məhv olmasına real zəmin yaranmışdı. Türkiyəli ekspertlərin söylədiyi kimi, həmin günlərdə mütəllibovçu qüvvələr də, Xalq Cəbhəsi də tamamilə hakimiyyətdən uzaqlaşdırılsaydı və hakimiyyətə Əliyev deyil (söhbət Heydər Əliyevdən gedir – red.) başqa bir azərbaycanlı siyasətçi gəlsəydi, bu ölkə yenə də öz bəlaları içərisində bulunacaqdı. Ona görə də hakimiyyət kürsüsünə, idarəetmə sükanı arxasına Heydər Əliyevin gəlməsi zərurətini tarix, zaman yaratmışdı. Xalq bunu yaxşı dərk edirdi. Ona görə də mitinqlərdə, etiraz aksiyalarında belə bir deyimə tez-tez rast gəlinirdi: Oyanmış xalqa yatmış rəhbər gərək deyil.

Bu gün xalqımızın elə bir fərdi ola bilməz ki, 1993-cü ilin 3 oktyabr seçkilərinin nəticələrindən bəhrələnməmiş olsun. Həmin gün seçilən, bir həftədən sonra dövlət başçısı kimi and içən ulu öndər Heydər Əliyev, ilk növbədə, fəaliyyətə ölkədə daxili ictimai-siyasi sabitliyin bərqərar olunmasından başladı. Xaos və anarxiya yaradan, istənilən anda istənilən yerdə özbaşınalıq edən silahlı birləşmələr ləğv edildi. Ordu vahid rəhbərlik altında birləşdirildi. Nəticədə düşmən atəşkəs haqqında müqaviləni imzalamağa məcbur oldu.

Daha sonra isə çoxsaylı islahatlara start verildi. Aparılan hüquqi islahatlar nəticəsində ölkəyə xaricdən gətirilən sərmayələrin qorunmasına dövlət zəmanəti verildi. Bu isə Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının əcnəbi şirkətlərlə müştərək işlənməsinə zəmin yaratdı. 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" Azərbaycana külli miqdarda xarici investisiyalar gətirilməsi ilə nəticələndi. Bundan sonra isə ölkədə yeni parlament seçilməsinə və yeni Konstitusiyanın hazırlanmasına başlamaq olardı. Heydər Əliyev bu iki mühüm layihəni də uğurla başa çatdıraraq, sözün həqiqi mənasında, Azərbaycanın sivilizasiyalı dövlətlər sırasına çıxarılması üçün gərəkli olan bütün addımları atmış oldu.

...Biz xoşbəxtik ki, ulu öndər Heydər Əliyevin qurub-yaratdığı müstəqil, suveren, qüdrətli Azərbaycan dövləti dünyanın ən mühüm beynəlxalq təşkilatlarında söz sahibidir. Rəsmi Bakı mötəbər beynəlxalq təşkilatların ali məclislərinin keçirildiyi məkana çevrilib. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Avropa İttifaqının üzvü olan 9 dövlətlə strateji müttəfiqliyimiz var. ABŞ, Çin, Rusiya kimi qüdrətli dövlətlərlə sıx əməkdaşlıq edirik. Gələcəyinə böyük ümidlər bəslənən Türk Dövlətləri Təşkilatının əsas lokomotivlərindən biri, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının ən fəal üzvlərindənik.

Ən başlıcası, ulu öndər Heydər Əliyevin 1993-cü ilin oktyabrında müəyyən etdiyi hədəflərin hamısının mərhələ-mərhələ qət edilməsinin nəticəsidir ki, bu gün dövlətimizin suverenliyi tam təmin edilmişdir. Bu, bizim son 2 əsrdəki ən böyük qələbəmizdir.

Ancaq hələ başqa hədəflərimiz də var. İnanırıq ki, Heydər Əliyevin siyasi kursunun davam etdirilməsi və Prezident İlham Əliyevin qətiyyəti nəticəsində həmin hədəflərə də çatacağıq. Bu əminliyimizin təməlində isə Xalq – İqtidar birliyi dayanır. Birmənalı olaraq deyə bilərik ki, həmin birliyi də bizə məhz ulu öndər Heydər Əliyev bəxş etmişdir.

Bütün bunlara görə isə ulu öndərimizin məzarı bu gün ümummilli ziyarət ünvanına çevrilmişdir.

***İttifaq MİRZƏBƏYLİ***

# Bakı estafeti Sinqapura verdi



**Oktyabrın 2-də Bakıda keçirilən Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağı öz işini başa çatdırıb.**

Dünən Bakı Konqres Mərkəzində 4 gün davam edən tədbirin sonuncu günü "Rəqəmsal əsrdə qanunun aliliyinin təmin edilməsində prokurorun rolu – çağırış və cavablar", "Rəqəmsal sübutlar və süni intellektdən istifadə çərçivəsində şəffaflığın, hesabatlılığın və məlumatların qorunmasının təmin edilməsi", "Kibercinayətkarlığın təqibində beynəlxalq əməkdaşlığın əhəmiyyəti" adlı plenar sessiyalar və "Ekoloji cinayət", "Kibercinayətkarlıq" və "Terrorla mübarizə" mövzularındakı seminarlarda faydalı fikir mübadilələri və maraqlı müzakirələr aparılıb.

Nüfuzlu beynəlxalq təşkilatın gündəliyində nəzərdə tutulan bütün tədbirlər başa çatdıqdan sonra təntənəli bağlanış mərasimi olub. Mərasimdə çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının uğurla başa çatdığını bildirərək qeyd edib ki, bu 4 gündə keçirilən müzakirələr cinayətkarlığın bütün növlərinə qarşı birgə mübarizədə iştirakçı dövlətlərin həmfikir olduğunu nümayiş etdirdi. Burada səslənən dəyərli fikir və ideyalar üzv ölkələrin prokurorluq və ədliyyə qurumları arasında münasibətlərin inkişafına öz müsbət təsirini göstərəcək.

Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti, Buenos-Ayres Muxtar Şəhərinin Dövlət Prokurorluğu Xidmətinin Baş prokuroru Juan Bautista Mahiques də çıxış edərək, 29-cu İllik Konfrans və Ümumi Yığıncağın uğurla başa çatması münasibətilə Baş prokuror Kamran Əliyevi və digər iştirakçıları təbrik etdi və göstərilən qonaqpərvərliyə və xoş münasibətə görə Azərbaycan dövlətinə təşəkkürünü bildirdi.

Assosiasiyasının Baş katibi Roel Dona da çıxışında tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prokurorluğuna və əməyi keçən hər kəsə təşəkkür etdi, dünyanın ən gözəl paytaxt şəhərlərdən olan Bakının indiyədək təyin olunmuş Konfranslar tarixində ön sıralarda yer tutduğunu bildirdi.

Baş prokuror Kamran Əliyev prosedura uyğun olaraq Beynəlxalq Prokurorlar Assosiasiyasının növbəti 30-cu yubiley İllik Konfransının və Ümumi Yığıncağının Sinqapurda keçiriləcəyini açıqladı və Bakı konfransında iştiak edən Sinqapur Respublikasının Baş prokuroru cənab Lüsyen Vonqa təbriklərini çatdırıb, uğurlar arzuladı.

Tribunaya dəvət olunan Lüsyen Vonq çıxışı zamanı Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının uğurla başa çatması münasibətilə Kamran Əliyev başda olmaqla, bütün üzv ölkələri təbrik etdi və BPA-nın 30-cu yubiley Konfransı və Ümumi Yığıncağının Siqapurda keçirilməsi üçün artıq hazırlıq işlərinə başlanıldığını bildirdi və bu hazırlıqlar zamanı Azərbaycanın uğurlu təcrübəsindən məmnuniyyətlə istifadə olunacağını vurğuladı.

Sonda, Kamran Əliyev Beynəlxalq Prokurorlar Assosiasiyasının rəmzi bayrağını Sinqapur Respublikasının Baş prokuroru Lüsyen Vonqa təqdim etdi. Bununla da, ölkəmizdə keçirilən nüfuzlu beynəlxalq tədbir uğurla başa çatdı.

***İ.RÜSTƏMOV***
***XQ***

# İtkin düşmüş şəxslər probleminin həlli dövlət başçısının nəzarətindədir

## *Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatı*

**Oktyabrın 2-də Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) birgə təşkilatçılığı ilə "İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin "həqiqəti bilmək" hüququnun dəstəklənməsi" mövzusunda növbəti beynəlxalq konfrans təşkil olunmuşdur. Tədbirdə itkin düşmüş şəxslər və insan hüquqları üzrə beynəlxalq təsisatların nümayəndələri və ekspertləri, xarici ölkələrin müvafiq sahədə fəaliyyət göstərən qurumlarının əməkdaşları, itkin şəxslərin ailə üzvləri iştirak etmişlər.**

Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin konfrans iştirakçılarına müraciəti oxunmuş, sonra tədbirin mövzusuna aid qısametrajlı film nümayiş etdirilmişdir.

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, dövlət komissiyasının sədri Əli Nağıyev çıxış edərək qonaqları salamlamış, belə bir həssas məsələyə dair ötən ilin sentyabr ayında təşkil edilmiş beynəlxalq konfransdan sonra builki tədbirin keçirilməsinin itkin düşmüş şəxslər probleminin həlli istiqamətində görülən işlərə mühüm töhfə verəcəyinə ümidvar olduğunu bildirmiş, ailələrin öz itkin düşmüş yaxınları barədə məlumatları almaq hüququnun beynəlxalq səviyyədə dəstəklənməsinin vacibliyini qeyd etmişdir. Xidmət rəisi hazırda dövlət komissiyasında 3979 nəfərin itkin düşmüş şəxs kimi qeydiyyata alındığını, indiyədək işğaldan azad olunmuş ərazilərdə 18 kütləvi məzarlığın aşkarlandığını, bununla yanaşı, Birinci Qarabağ müharibəsində itkin düşənlərdən 155 nəfərinin şəxsiyyətinin eyniləşdirildiyini, cari ilin sentyabr ayında görülmüş tədbirlər nəticəsində Ağdərə rayonunun Sırxavənd kəndində 15-ə yaxın şəxsə aid meyit qalıqlarının müəyyən edildiyini nəzərə çatdırmışdır.

Dövlət komissiyasının sədri vaxtilə Azərbaycanın Qarabağ ərazisində mövcud olmuş separatçı rejimin Vətən müharibəsi bitdiyi vaxtdan 2023-cü ilin sentyabr ayında həyata keçirilmiş antiterror tədbirlərinədək olan müddət ərzində bir neçə kütləvi məzarlığı məqsədyönlü şəkildə məhv etməsinin və Ermənistan tərəfinin həmin məzarlıqlar barədə məlumatları verməməsinin beynəlxalq hüquqa, həmçinin uzun illərdir yaxınlarının yolunu gözləyən itkin ailələrinə və bütövlükdə insanlığa açıq-aşkar hörmətsizlik olduğunu bildirmişdir. Sonuncu qeyd olunan halın Xocavənd rayonunun Qaradağlı kəndi, Xocalı rayonunun Dəhraz kəndi və Ağdərə rayonunun Sırxavənd kəndindəki məzar




yerlərində müşahidə etməyin mümkünlüyü diqqətə çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin itkin vətəndaşların taleyinin aydınlaşdırılmasını dövlət komissiyasının qarşısında ən ümdə vəzifə kimi qoyduğunu və bu məsələni daim xüsusi nəzarətdə saxladığını bildirən xidmət rəisi Əli Nağıyev vurğulamışdır ki, itkin düşmüş şəxslər problemi təkcə ayrı-ayrı dövlətləri deyil, o cümlədən, beynəlxalq təşkilatları və beynəlxalq siyasi dairələri ciddi şəkildə düşündürməlidir.

Sonra digər çıxışçılar itkin şəxslərin taleyinə aydınlıq gətirilməsi ilə bağlı təmsil etdikləri təsisatlar tərəfindən ötən zamanda görülən işlər və qarşıda duran vəzifələr haqqında ətraflı məlumat vermiş, itkin düşmüş şəxslərin tapılması yönündə birgə səylərin bundan sonra da davam etdiriləcəyinə, konfransda səslənəcək fikirlərin, irəli sürüləcək təkliflərin və aparılacaq fikir mübadilələrinin itkinlər probleminin həlli üçün yeni üfüqlər açacağına inamlarını ifadə etmişlər.

Tədbir mövzu ətrafında panel sessiyalarla davam etmişdir.

***XQ***

# Bakı Beynəlxalq Kitab Sərgisinin təntənəli açılışı





**Dünən Bakı Ekspo Mərkəzində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunan Bakı Beynəlxalq Kitab Sərgisinin açılışı olub.**

Mərasimdə Milli Məclisin vitse-spikeri, akademik Rafael Hüseynov, mədəniyyət naziri Adil Kərimli, AMEA prezidenti, akademik İsa Həbibbəyli, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Xalq yazıçısı Elçin, deputatlar, ziyalılar, yerli və xarici yazıçılar, oxucular iştirak ediblər.

**Adil Kərimli beynəlxalq kitab sərgisinin ölkəmizin mədəniyyətində önəmli hadisə olduğunu bildirdi. İşğaldan azad edilmiş ərazilərimizdə geniş mədəni-quruculuq işləri həyata keçirildiyini qeyd edən nazir dedi:** "Əsas istiqamətlərindən biri də kitabxanaların bərpası, doğma yurdlarına qayıdan insanların kitablara əlçatanlığının təmin edilməsidir. Həmin ərazilərdə artıq kitab işi canlanıb və gələcək üçün ciddi layihələrimiz var. Oktyabrın 8-nə qədər davam edəcək sərgidə 4 qitəni təmsil edən 18 ölkədən 56 təşkilat, 110 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti müəssisəsi iştirak edir. Con Boyn, Vulf Dorn və Azərbaycan əsilli Fəriba Vəfi sərginin fəxri qonaqlarıdırlar. Tədbirlər çərçivəsində uşaqlar və böyüklər üçün ustad dərsləri, aktual mövzular üzrə kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, qiraət və musiqi saatları təşkil edilir".

Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, Milli Aviasiya Akademiyasının kafedra müdiri, akademik Əhəd Canəhmədovun "Kainat haqqında düşüncələr" traktatının təqdimatı maraqla keçdi. O, kitabının ərsəyə gəlməsindən danışaraq bildirdi ki, indi ölkəmizdə kitabsevərlərin, mütaliəyə həvəs göstərənlərin sayı artmaqdadır və bu cür sərgilər bu baxımdan önəm kəsb edir.

**AYB sədri, Xalq yazıçısı Anar sərginin işinə uğurlar arzuladı:** "Bakı Beynəlxalq Kitab Sərgisi əhəmiyyətli hadisədir, kitabsevərlər üçün böyük bayramdır. Qoy, kitab həmişə yaşasın və sivil dəyərləri yaşatsın".

**"Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin sədri Şəmil Sadiq XQ-yə açıqlamasında dedi:** "Dünyanın 10-dan çox ölkəsində keçirilmiş 20-dən çox kitab sərgisinin iştirakçısı kimi deyə bilərəm ki, Azərbaycanda kitab sərgisinin formatı, mahiyyəti, dizaynı, fəlsəfəsi yeniləşir. Sözsüz ki, kitabın təbliği baxımından görüləcək işlər çoxdur. Beynəlxalq sərgini yerli yazarların, naşirlərin və oxucuların bayramı hesab etmək olar".



**Rizvan FİKRƏTOĞLU,**
**Elşən AĞALAR (foto)**
**XQ**



# Vətən müharibəsinin xronikası: *3 oktyabr*

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

## Zəfər marafonunun 7-ci günü

– "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan Bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!". Bu barədə Prezident, Ali Baş Komandan İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

Prezident İlham Əliyev "Twitter" səhifəsində bu gün ordumuzun Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı yaşayış məntəqəsini də işğalçıdan geri aldığını vurğulayıb.

– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində işğaldan azad olunan Madagizin tarixi adını bərpa edərək onun Suqovuşan adlandırıldığını bildirib: "2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!"

– Bu gün ərzində Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə ərazini düşmən qüvvələrdən təmizləyib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi və digər döyüş texnikası məhv edilib. Məlumatda, eyni zamanda, müharibənin ilk həftəsi ərzində düşmənin ümumi itkilərinin sayı açıqlayıb: 230-dək tank və digər zirehli texnika, 250 artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 38 hava hücumundan müdafiə vasitələri, 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 7 silah-sursat anbarı, 130-dan çox avtomobil texnikası, 1 "S-300" zenit-raket kompleksi.

– Baş prokurorun məlumatına görə, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutmaları nəticəsində 19 mülki şəxs həlak olub, 63 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı Baş Prokurorluqda 12 cinayət işinə başlanıb.

– Ermənistan ordusunun bölmələri Naftalanın Qaşaltı Qaraqoyunlu kəndini, Tərtər rayonunda məcburi köçkünlər üçün salınmış yaşayış kompleksini, Ağcabədi rayonunun Hindarx qəsəbəsini və digər yaşayış məntəqələrini ağır silahlardan və artilleriya qurğularından atəşə tutub. Onlarla ev və infrastruktur obyekti dağılıb, yaxud ziyan çəkib.

Beləliklə, Vətən müharibəsinin ilk günündən etibarən Azərbaycan Ordusunun gücü və qüdrəti qarşısında aciz qalan düşmən vətəndaşlarımızın sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən, fərdi evləri, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutaraq dinc əhalinin əmlakına ciddi ziyan vurur. Bu hərəkətləri ilə işğalçı barbarlığını, müharibə cinayəti törətdiyini, faşistliyini bir daha sübut edir.

**XQ**

# Füzulinin dünya şöhrəti



**Dünən X Bakı Beynəlxalq Kitab Sərgisində "Məhəmməd Füzuli 530" mövzusunda ekspozisiyanın da açılışı olub. Sonra Mədəniyyət Nazirliyi və Milli Kitabxananın təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində "Klassik Azərbaycan şeirinin günəşi - Məhəmməd Füzuli" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Milli Kitabxananın direktoru professor Kərim Tahirov konfransın məqsədinin Məhəmməd Füzulinin dünya miqyasında əsərlərinin təbliği, çapı, əlyazmaların yerləşdiyi kitabxanalar haqqında müzakirələrin aparılması olduğunu bildirib.

Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar Füzulinin Nizami və Nəvai ilə birlikdə Türk dünyasının ən böyük şəxsiyyətlərindən biri olduğunu söyləyib. O, dahi şairin yazdığı mükəmməl əsərlərlə Azərbaycan və dünya ədəbiyyatına təsir etdiyini, onun hikmətinin əsrlərdən bəri yaşadığını vurğulayıb. AMEA-nın prezidenti akademik İsa Həbibbəyli AMEA Ədəbiyyat İnstitutunun füzulişünaslıq sektorunda Füzulinin 530 illik yubileyinə həsr edilmiş kollektiv monoqrafiya üzərində iş aparıldığını bildirib.

AMEA Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri professor Fəridə Əzizova, Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, Milli Məclisin Elm və təhsil komitəsinin sədri professor Anar İsgəndərov, Gürcüstan Milli Parlament Kitabxanasının direktoru professor Konstantin Qamsaxurdiya, Macarıstan Seçeni Milli Kitabxanasının direktor müavini xanım Judit Gerencser dahi mütəfəkkir Məhəmməd Füzulinin zəngin irsinin bəşəri dəyərindən, dünya şöhrətindən ətraflı bəhs ediblər.

Elmi məclisdə aktyorlar Hüseynağa Aslanov və aktrisa Jalə Novruzova Məhəmməd Füzulinin şeirlərini səsləndiriblər.

**T.RÜSTƏMLİ**
**XQ**

# Qərbi Azərbaycan İcması İrəvanı və Vaşinqtonu ədalətə çağırır

**(əvvəli 1-ci səhifədə)**

Simonyanın azərbaycanlıları "öz tarixi yurdlarını axtarmaq" adı ilə Altay dağlarına göndərmək barədə ifadəsi isə Ermənistanın rəhbər dairələrində irqçilik və etnik müstəsnalıq ideologiyasının hakim olduğunu bir daha ortaya qoyur.

Bəyanatda xatırladılır: "27 sentyabr 2020-ci ildə Ermənistan tərəfi Azərbaycana qarşı müharibəyə başlayanda bu ölkənin ordusunun baş qərargah rəisi oxşar irqçi bəyanat verərək Ermənistanın hücumunun məqsədinin azərbaycanlıları Altay dağlarına göndərmək olduğunu bildirmişdi. Bunun Ermənistan üçün necə nəticələndiyi hamıya məlumdur. Simonyanın çıxışı sülh prosesini pozmaq və Ermənistandan qovulmuş azərbaycanlıların geri dönmək hüququna xələl gətirmək cəhdidir. Qərbi Azərbaycan İcması olaraq, Ermənistandan bu cür irqçi ritorikalardan çəkinməyi və Qərbi azərbaycanlıların qayıdış hüququna hörmət etməyi tələb edirik".

*

***Qərbi Azərbaycan İcması ATƏT-in İnsan Ölçüsü Konfransında ABŞ Dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə köməkçisi Dafna Randın, guya, "Dağlıq Qarabağda insan hüquqları və humanitar hüquqların pozulması"nı iddia etməsini də qətiyyətlə qınayıb:***

– Əvvəla Azərbaycanda "Dağlıq Qarabağ" adlı heç bir region mövcud deyil. ABŞ rəsmisinin işğal və separatçılıqla assosiasiya olunan bu termini işlətməsi Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlikdir. İkincisi, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa edərkən Qarabağ bölgəsində heç bir insan hüquqları və humanitar hüquq pozulması halı baş verməmişdir. Etnik ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiyadan imtina etməsini hüquq pozuntusu kimi qələmə vermək tamamilə qəbuledilməzdir.



**Bəyanatın davamında qeyd edilir:** "ABŞ-nin Ermənistanın etnik təmizləmə və hərbi təcavüzü nəticəsində azərbaycanlıların hüquqlarının kütləvi şəkildə pozulmasına onilliklər ərzində göz yumması fonunda belə bir mövqe sərgiləməsi azərbaycanlılara qarşı etnik və dini mənsubiyyətinə görə ayrı-seçkiliyin bariz sübutudur. Ermənistandan axırıncı deportasiya zamanı qovulmuş 300 mindən çox azərbaycanlı hələ də öz evlərinə geri qayıda bilmir. İşğal altında olmuş Azərbaycan torpaqlarından qovulmuş 700 mindən çox azərbaycanlı 30 il ərzində geri qayıda bilməmişdir.



Bütün bunlara görə biz ABŞ hökumətini azərbaycanlılara qarşı ayrı-seçkiliyə son qoymağa, bölgədə yenidən münaqişə alovlandırmaq cəhdlərindən əl çəkməyə və deportasiya olunmuş azərbaycanlıların Ermənistana qayıdışına dəstək olmağa çağırırıq".

**XQ**

# “Odlar yurdu”nun “qara qızıl” xəzinəsi



**(əvvəli 1-ci səhifədə)**

Bütövlükdə isə, Azərbaycanda karbohidrogenlərin sənaye üsulu ilə çıxarılmasına başlandığı vaxtdan indiyədək quru və dəniz yataqlarından 2 milyard 214,2 milyon ton neft və kondensat, eləcə də 1 trilyon 31,9 milyard kubmetr qaz çıxarılıb. İşlənmənin əvvəlindən qurudakı yataqlardan 985 milyon ton neft-kondensat və 140 milyard kubmetr qaz hasil olunub. Dəniz yataqlarında isə hasilata başlandığı vaxtdan 2024-cü il yanvarın 1-dək 1 milyard 229,2 milyon ton neft-kondensat və 891,9 milyard kubmetr “mavi yanacaq” çıxarılıb.

Yeri gəlmişkən, mütəxəssislərin proqnozlarına görə, hazırda Azərbaycanın çıxarıla bilən qalıq neft ehtiyatları 1 milyard tondan artıqdır ki, bunun da əksər hissəsi dəniz neft yataqlarının payına düşür. Bununla belə, son illər ölkəmizdə neft hasilatında azalma müşahidə olunur. Bu da ümumi iqtisadi inkişafa təsirsiz ötüşmür. Təsadüfi deyil ki, sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədə Prezident İlham Əliyev bu məsələyə münasibət bildirərkən deyib: “Son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə neftin hasilatı ildən-ilə azalırdı və bu da təbii olaraq bizim ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərirdi və biz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyirdik. Ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və onlardan tələb edilmişdir ki, bu nöqsanlar aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin”.

Hökumət qurumlarının və Dövlət Neft Şirkətinin bu işlərin gələcək gedişatına daim diqqət yetirəcəyini vurğulayan dövlət başçısı ölkənin ümumi iqtisadi inkişaf templərini geriyə çəkən bu azalmanın aradan qaldırılacağına və gələn il sabit neft hasilatının təmin ediləcəyinə ümidvar olduğunu diqqətə çatdırıb: “Nəzərə alsaq ki, hazırda biz neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işləyirik və o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımız var. Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır”.

Göründüyü kimi, ölkədə neft hasilatında sabitliyi qoruyub saxlamaq, bir çox hallarda isə artıma da nail olmaq üçün potensial imkanlar var. Məlum olduğu kimi, 2017-ci il sentyabrın 14-də Azərbaycan hökuməti və konsorsium iştirakçıları arasında “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” (AÇG) yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş saziş imzalanıb. “Yeni əsrin müqaviləsi” adlandırılan həmin sazişlə AÇG yataqlar blokunun işlənməsi 2050-ci ilədək uzadılıb. Bununla da, “Azəri–Çıraq–Günəşli” yataqlar blokunun işlənilməsində yeni dövr başlanıb. 2024-cü ilin aprelində saziş çərçivəsində inşa olunmuş yeni platformadan ilk neft çıxarılıb. Yeni quyuların istismara daxil edilməsi ilə burada hasilat getdikcə artacaq.

Bununla yanaşı, son illər qurudakı yataqların da qalıq neft ehtiyatlarının işlənməyə cəlb edilməsi istiqamətində mühüm işlər görülür, ən müasir texnika və texnologiyaların tətbiqi ilə bu ərazilərdə yeni quyular qazılır. Bütün bunlar isə onu deməyə əsas verir ki, neft amili hələ uzun illər ölkə iqtisadiyyatının inkişafına xidmət edəcək.

# Özəl bölmə 500 milyon manat güzəştli kredit alıb

**İpoteka və Kredit Zəmanət Fondunun zəmanəti ilə Azərbaycan sahibkarlarına indiyə qədər güzəştli şərtlərlə 500 milyon manatdan artıq kredit verilib. Fonddan redaksiyamıza bildirildiyinə görə, həmin göstəricinin 65,155 milyon manatı cari ilin yanvar-sentyabr aylarında reallaşıb.**

Prezident İlham Əliyevin 2017-ci il noyabrın 29-da imzaladığı fərmana əsasən, ölkədə ilk dəfə olaraq sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə zəmanətin və bu kreditlər üzrə hesablanan faizlərə görə subsidiyanın verilməsinə başlanılıb. Həmin sənəddə kredit–zəmanət mexanizminin formalaşdırılması və inkişaf etdirilməsi adıçəkilən fond qarşısında prioritet vəzifə kimi müəyyən edilib.




Mexanizm çərçivəsində indiyə kimi zəmanət verilən kreditlərin orta müddəti 30 ay, sahibkarlıq kreditləri üzrə hesablanan faizlərin bir hissəsinə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki faiz dərəcəsi 6 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min – 5 milyon manat təşkil edib.

Kreditlər sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesi, tikinti sektoru, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələrə, eləcə də maşın və avadanlıq istehsalına, ticarət və digər xidmət sektorlarına yönəldilib. Fondun zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayrılan kreditlər vasitəsilə maliyyələşən layihələrdə 6500 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Qeyd edək ki, dövlət başçısının 24 avqust 2022-ci il tarixli fərmanına əsasən, qeyri-neft sektorunda fəaliyyət göstərən mikro və kiçik sahibkarların, həmçinin emitent şirkətlərin maliyyə vəsaitlərinə əlçatanlığının artırılması məqsədilə sahibkarlığa dəstək vasitələri genişləndirilib və cari ildən etibarən daha iki yeni alətin – sahibkarların manatla aldıqları kreditlərə münasibətdə kredit portfelinin təminatı, həmçinin istiqrazlar üzrə sahibkarların öhdəliklərinə təminat mexanizmlərinin tətbiqinə başlanılıb.

Ümumiyyətlə, son illər aparılan islahatların nəticəsində güzəştli maliyyələşmə, kredit-zəmanət və faizlərin subsidiyalaşdırılması mexanizmlərinə çıxış imkanları genişləndirilib, investisiya təşviqi mexanizmi əhəmiyyətli dərəcədə təkmilləşdirilib, sənaye zonalarının inkişafı təşviq olunub, dövlətin yeni dəstək alətləri tətbiq edilib. Eyni zamanda, özəl bölmədə lisenziya tələb olunan fəaliyyət növlərinin sayı əhəmiyyətli dərəcədə azaldılıb, investisiya yatırımının stimullaşdırılması məqsədilə investisiya təşviqi sənədinin verilməsinə başlanılıb, satınalmalar sahəsində kotirovka sorğusu proseduru tamamilə elektronlaşdırılaraq vahid internet portalı yaradılıb.

Bütün bunlarla yanaşı, sahibkarlığın inkişafını şərtləndirən vergi qanunvericiliyi müasirləşdirilib. Özəl sektorun fəaliyyətini daha da gücləndirilmək məqsədilə şəffaflıq və hesabatlılığın artırılması, rəqəmsallaşmanın geniş vüsət alması, rəqabət mühitinin inkişafının təmin olunması, əlverişli biznes mühitinin inkişafı və investisiya imkanlarının genişləndirilməsi məqsədilə tətbiq edilən vergi və gömrük islahatları kimi məsələlər də hər zaman diqqətdə saxlanılıb.

Beləliklə, sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü və uğurlu islahatlar nəticəsində ölkəmizdə özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib, sahibkarlığın ÜDM-də payı 81 faizi, məşğulluqda payı isə 70 faizi keçib. Özəl bölməyə dövlət dəstəyinin daim diqqətdə saxlanılması qeyri-neft sektorunda müasir texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələrinin, infrastruktur sahələrin yaradılmasına, real sektora investisiya qoyuluşlarının sürətlənməsinə əlverişli şərait yaradıb.

Sahibkarlığın inkişafını şərtləndirən ən mühüm amil isə hazırda qlobal çağırışlar fonunda respublikamızda mövcud makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyat şaxələndirilməsinin diqqət mərkəzində saxlanılması, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühitinin formalaşdırılmasıdır. Həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində sahibkarların ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilməsi də bunun bariz ifadəsidir.

# Naxçıvanda rəqabət hüququ təlimi

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndələri Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əməkdaşları üçün təcrübə mübadiləsi məqsədilə seminarlar keçiriblər.**



Maarifləndirici tədbirin ilk günündə istehlakçı hüquqlarının müdafiə vasitələri, sözügedən sahədə mövcud qanunvericilik aktlarından irəli gələn məsələlər və digər əhəmiyyətli mövzuları əhatə edən təqdimatlar olunub.

Həmçinin Dövlət Xidməti tərəfindən istehlakçı hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində pozuntu hallarının preventiv şəkildə qarşısının alınması istiqamətində görülən işlər diqqətə çatdırılıb. İstehlak bazarında istehlakçı məmnunluğuna nail olunması üçün dövlət–özəl tərəfdaşlığının vacibliyi vurğulanıb, istehlakçıların hüquqlarının təmin edilməsində sahibkarların rolunun artırılmasının əhəmiyyətindən bəhs edilib.

Rəqabət Məcəlləsinin tətbiqinə həsr olunmuş növbəti seminarda muxtar respublikanın aidiyyəti qurum əməkdaşları ilə yanaşı, təbii inhisar subyektlərinin nümayəndələri və sahibkarlar da iştirak ediblər.

Təlim çərçivəsində rəqabəti məhdudlaşdıran sazişlər, iqtisadi təmərküzləşmələr, haqsız rəqabət və hökmran mövqedən sui-istifadə hallarının aradan qaldırılmasına dair məcəllədə yer alan tənzimləmə mexanizmləri diqqətə çatdırılıb.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# İmişlidə pambıq yığımı

**İmişli rayonunun pambıq tarlalarında məhsul yığımına başlanılıb. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin məlumatına görə, bu il 7 min 33 hektardan artıq sahədə pambıq əkilib. Yığımdan əvvəl pambıq kollarının yarpaqlarının tökülməsi məqsədilə tarlalarda defolvasiya işləri aparılıb.**



Pambıq yığımına 28 maşın, 53 traktor və 114 yedəkli qoşqu cəlb olunub. İndiyə qədər sahələrdən 193 ton məhsul toplanıb. Mövsum ərzində hər hektardan 30,1 sentner məhsul toplanacağı gözlənilir.

Xatırladaq ki, ötən il sahələrdən 18 min 680,3 ton məhsul yığılıb. İl ərzində hektarın orta məhsuldarlığı isə 24,6 sentner təşkil edib.

# Əhmədbəyli–Füzuli–Şuşa yolu dünyada 1-ci yeri tutub

## *İnşaat işləri innovativ metodologiya ilə aparılıb*



***Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) redaksiyamıza verilən məlumata görə, bu il Avropa və Mərkəzi Asiya Regional Mükəmməllik Mükafatlarına təqdim edilən Əhmədbəyli–Füzuli–Şuşa Avtomobil yolu layihəsi Beynəlxalq Yol Federasiyasının innovativ inşaat metodologiyası kateqoriyasında birinci yerə layiq görülüb. Bu nüfuzlu mükafatın qalibi yol-nəqliyyat ekspertləri, müstəqil beynəlxalq münsiflər heyəti və hakimlərin qiymətləndirmələrinə əsasən seçilib. Belə bir uğur əldə etməklə AAYDA müstəsna layihələri mükəmməlliyə, eləcə də innovasiyaya və cəmiyyətə müsbət təsirinə görə mükafatlandırılan təşkilatların elit qrupuna qoşulub.***

Bolqarıstanın Plovdiv şəhərində sentyabrın 26-da reallaşan mükafatlandırma mərasimində Azərbaycanın yol infrastrukturu sahəsində əldə etdiyi uğurlar, icrası həyata keçirilən və davam etdirilən mühüm yol layihələri barədə geniş məlumat verilib. Ölkəmizdə yol infrastrukturunun yenilənməsinin Prezident İlham Əliyevin diqqətdə saxladığı əsas məsələlərdən biri olduğu vurğulanıb.

Mərasimdə BMT-nin 29-cu iqlim konfransının bu il Azərbaycanda keçiriləcəyi, bu nüfuzlu tədbirə ölkəmizin, eləcə də AAYDA-nın ciddi hazırlaşdığı, 30 illik işğaldan sonra azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində 69,1 kilometrlik 45 avtomobil tunelinin, 13,4 kilometrlik 463-dən artıq körpü və yol ötürücüsünün tikildiyi bildirilib. Mühüm yol infrastrukturu layihələrindən biri olan və innovativ inşaat metodologiyası nominasiyası üzrə qalib seçilən, 81,7 kilometrlik I texniki dərəcəli Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunda da 11 körpü, 7 tunel və 9 viaduk inşa edildiyi diqqətə çatdırılıb.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# “Yaşıl dünya” naminə həmrəylik



*Bəşəriyyətin narahat gündəmi*

# Ekoloji fəlakətdən “yaşıl” transformasiyaya körpü

## *COP29-a yol haradan başlayır?*



**(əvvəli 1-ci səhifədə)**

Artıq Stokholm Bəyannaməsində ilk dəfə olaraq iqtisadi artımla ətraf mühitin mühafizəsi arasında əsaslı ziddiyyət qeyd olunurdu: vurğulanırdı ki, nə inkişaf etmiş, nə də inkişaf etməkdə olan dövlətlərin ekoloji siyasəti onların sosial-iqtisadi inkişafına mənfi təsir göstərməlidir. Stokholmda olduğu kimi, ətraf mühit və iqlim dəyişikliyi ilə bağlı bir çox sonrakı beynəlxalq danışıqlarda da, dövlətlər qısamüddətli itkilərin qaçılmazlığı və bütün bəşəriyyət üçün uzunmüddətli fayda vədləri haqqında arqumentləri necə uzlaşdırmaq barədə konsensusa gələ bilmədilər. Bu daha çox ondan irəli gəlirdi ki, dövlətlər bu məsələdə elmi əsaslandırmalara inanmırdılar.

***

İqlim dəyişiklikləri problemləri bəşəriyyəti ekoloji problemlərdən, təxminən, 20 il sonra ciddi şəkildə narahat etməyə başladı. Beynəlxalq iqlim rejiminin əsasları öz təməlini Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UN FCCC) qəbul edildiyi 1992-ci ildən götürür. Sənəd Rio-de-Janeyroda keçirilən “Yer Sammitində” - SSRİ-nin dağılmasından sonra ilk böyük ekoloji forumda qəbul edilib. Bu sammitdə ilk dəfə olaraq, ölkələrdən oxşar metodologiya ilə hesablanmış istixana qazları emissiyaları barədə mütəmadi olaraq hesabat vermələri tələb olunurdu.

İqlim Dəyişmələri haqqında Çərçivə Sazişinə inkişaf etməkdə olan ölkələrin dəstəyini təmin etmək üçün istixana qazları emissiyalarının məcburi azaldılması ilə bağlı müddəaların daxil edilməməsinə baxmayaraq, 1990-cı illərin əvvəllərində bir çox inkişaf etmiş iqtisadiyyatlar, o cümlədən, Avropa ölkələri, Avstraliya, Yeni Zelandiya və Yaponiya bu sahədə ilk könüllü öhdəlikləri qəbul etdilər. Lakin UN FCCC-nin I Əlavəsinə daxil olan inkişaf etmiş sənaye ölkələri istixana qazları emissiyalarını azaltmaq üçün addımlar atmağı öhdələrinə götürsələr də, heç bir xüsusi kəmiyyət hədəfləri müəyyən edilmədi.

Konvensiyaya qədər və onun müddətində aparılan iqlim dəyişikliyi danışıqları beynəlxalq ictimaiyyəti parçaladı. Tədricən dövlətlər enerji artıqlığı/enerji çatışmazlığı və mədən yanacaqlardan ixrac/idxal asılılığı prinsipinə görə qruplaşmadan çox fərqli maraqları olan az və ya çox güclü alyansların yaradılmasına keçdilər.

Bu alyanslara iqlim dəyişikliyi səbəbindən dəniz səviyyəsinin qalxmasının nəticələrindən digərlərindən daha çox əziyyət çəkən kiçik ada və inkişaf etməkdə olan dövlətlərdən (SIDS) tutmuş, əsasən qlobal emissiyaların istixana qazlarının tənzimlənməsi üçün Avropa İttifaqından daha yumşaq variant təklif etməklə, ümumi maraqları kifayət qədər fərqli bir “çətir” qrupuna (Rusiya, Yaponiya, ABŞ, İsveçrə, Kanada, Avstraliya, Norveç, Yeni Zelandiya və Ukrayna) daxil olan dövlətlər konsolidasiya etdilər.

Yalnız 1997-ci ildə qəbul edilmiş UN FCCC-nin Kioto Protokolu bu qrup ölkələrin mövqeləri arasında kompromis yarada bildi. Bir tərəfdən, o, ilk dəfə olaraq istixana qazlarının emissiyalarını azaltmaq üçün beynəlxalq kəmiyyət öhdəlikləri qoydu, digər tərəfdən, bu öhdəliklər yalnız inkişaf etmiş ölkələri əhatə edirdi, nisbətən yumşaq idi və o ölkələrdən heç bir ciddi səy tələb etmirdi. Onilliklər sonra istixana qazlarının əsas emitentlərinə çevrilən inkişaf etməkdə olan ölkələrin sürətli böyüməsini nəzərə alan Kioto Protokolu bu mübarizədə ilk mühüm addım olsa da, hazırda o, iqlim dəyişikliyi ilə mübarizə üçün məqbul olmayan son dərəcə zəif saziş kimi qəbul edilir.

“Yer Sammiti” təkcə UN FCCC-nin qəbulu ilə deyil, həm də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin gündəliyində daha aydın görünən boşluqlarla diqqət çəkdi. Birincilər diqqəti iqlim dəyişikliyinə, meşələrin qırılmasına, turşulu yağışlarına və digər ekoloji problemlərə yönəltməyə çalışsalar da, sonuncular bu problemləri bərabərsizlik məsələləri ilə əlaqələndirmədən həll olunmayacağında davamlı təkid edirdilər. Nəticədə, bu fərqləri uzlaşdırmaq və davamlı inkişaf paradiqmasının əsaslarını möhkəmləndirmək üçün Ətraf Mühit və İnkişaf üzrə Rio Bəyannaməsi, həmçinin “XXI əsrin gündəliyi” qəbul olundu. Yəni, müasir ekoloji və iqlim siyasətinin bir çox əsas prinsiplərinin yekun hüquqi rəsmiləşdirilməsinə, o cümlədən: ehtiyatlılıq; ümumi, diferensiallaşdırılmış məsuliyyət; “çirkləndirən ödəyir” prinsiplərinin qəbuluna nail olundu.

**2010 – 2020-ci illərin əvvəlləri: dünya iqtisadiyyatının “yaşıl” transformasiyasını sürətləndirmək**

2010-cu illərdə ekoloji məsələlərə maraq kəskin artmağa başladı. Ətraf mühit məsələləri milli və beynəlxalq gündəmdə aparıcı yer tutaraq daha geniş ictimai diskursun və siyasi rəqabətin mühüm hissəsinə çevrildi. 2008-2009-cu illərin iqtisadi böhranından sonra ekoloji problemlərin siyasi səhnədə ön plana çıxması bir sıra amillərlə şərtlənirdi:

- ekoloji problemlər haqqında biliklərin artması, onlardan yarana biləcək potensial zərərlər barədə düşüncənin inkişaf etməsi və nəticədə əhalinin getdikcə daha böyük bir hissəsində bu problemlərlə bağlı narahatlığın yaranması;
- Minilliyin İnkişaf Məqsədləri və ya Kioto Protokolu kimi köhnəlmiş paradiqmalardan və institusional mexanizmlərdən istifadə etməklə, dərinləşməkdə olan qlobal problemlərin (o cümlədən ekoloji problemlərin) həllinin mümkünsüzlüyünün dərk edilməsi;
- iri biznesin strategiyalarında “yaşıl” texnologiyaların və idarəetmə təcrübələrinin tətbiqinin və onlardan faydalanmaq imkanlarının dərk edilməsi;
- 2008–2009-cu illər böhranından sonra Qərb ölkələrinin daxili siyasətlərində “sola dönüş”, neoliberal kapitalizmin böhranı fonunda yeni inkişaf modelləri hazırlamaq cəhdi.

Məhz bu illərdə dünyada iqlim dəyişikliyi ən mühüm ekoloji problem kimi önə çıxdı. Yer kürəsində temperaturun yüksəlməsi nəinki davam etdi, əksinə, daha da sürətləndi. Beləliklə, meteoroloji müşahidələr tarixində hər 8 il əvvəlkindən daha isti oldu. Kioto Protokolu istixana qazları emissiyalarında lazımi azalmaya nail ola bilmədi. 2009-cu ildə Kopenhagendə onu əvəz etmək üçün daha iddialı saziş hazırlamaq cəhdi fiaskoya uğradı. Nəticədə, altı illik davamlı danışıqlardan sonra dövlətlər “əvvəlki dövrlərlə müqayisədə qlobal orta temperatur göstəricisinin artımını 2°C-dən xeyli aşağı saxlamaq” məqsədi ilə yeni beynəlxalq iqlim sazişi bağlamağa nail oldular və eyni zamanda, sənayeləşmə epoxasına qədər olan dövrlə müqayisədə temperatur artımını 1,5°C-yə qədər məhdudlaşdırmaq üçün səy göstərməyə” razılaşdılar. Amma istəklərlə reallıq arasında məsafə heç də elə qısa deyildi...

**(ardı var)**

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

# Ölkəmiz COP29 öhdəliklərini davamlı olaraq gerçəkləşdirir




**İqtisadiyyat naziri Mikayıl Cabbarov Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində keçirilən konfransda hazırda Azərbaycanın dünyanın prioritet hesab etdiyi “yaşıl” keçidin əsas iştirakçılarından biri olduğunu, ölkəmizdə iqlim dəyişikliyi məqsədlərinin qlobal çağırışlarla uzlaşdırıldığını, bu istiqamətdə dəyərli bir təcrübə yaradıldığını bildirib.**

Onun sözlərinə görə, böyük enerji şirkətləri ilə həyata keçirilən “yaşıl” layihələr ölkəmizi təmiz enerji dövlətinə çevirmək və ekoloji dayanıqlığı dəstəkləyən investisiyaları təşviq etmək məqsədi güdür. Bununla əlaqədar Azərbaycanın müəyyən öhdəliklər götürdüyünü vurğulayan M.Cabbarov “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda elektrik enerjisi istehsalı üçün bərpaolunan enerji mənbələrinin payının artırılması və tullantıların təkrar emalı proseslərinin genişləndirilməsi məqsədinin müəyyənləşdirildiyini diqqətə çatdırıb.

Nazir daha sonra deyib: “Azərbaycan Dövlət Neft Şirkətinin COP28 çərçivəsində 2050-ci ilə qədər karbonsuzlaşdırma strategiyasını gerçəkləşdirmək və sıfır metan emissiyasına nail olmaq üzrə könüllü öhdəliyi mühüm önəm daşıyır. Beynəlxalq Valyuta Fondunun 2023-cü il hesabatına əsasən, qlobal qalıq yanacaq subsidiyaları 7 trilyon dollara çatıb ki, bu da qlobal ÜDM-in, təxminən, 7,1 faizini təşkil edir. Bu sərmayə qalıq yanacaqlardan davamlı asılılığı göstərməklə yanaşı, həm də davamlı enerji həllərinə keçidə əsas maneə yaradır”.

M. Cabbarov fikirlərini davam etdirərək bildirib ki, həmin subsidiyaların yalnız bir hissəsi bərpaolunan enerji, yaşıl texnologiyalar və iqlimə davamlılıq təşəbbüslərinə yönəldilərsə, transformasiya imkanları daha da genişlənər, təmiz enerjiyə doğru hərəkət sürətlənər, innovasiyaların stimullaşdırılması gerçəkləşər və “yaşıl” iqtisadiyyatda milyonlarla yeni iş yeri yaradılar.

*Bakı İqlim Fəaliyyəti Həftəsi*

# Təmiz istehsalatların peşəkarlıq, maliyyə və hüquqi təminatları



**Oktyabrın 2-də Bakıda COP29-a həsr olunmuş İqlim Fəaliyyəti Həftəsi çərçivəsində keçirilən beynəlxalq konfrans öz işini davam etdirib. Tədbirin 3-cü gününün əsas mövzusu “Yaşıl iqtisadiyyat: bacarıqların həlli, maliyyələşmə və ədalətli keçid” olub.**

Günün açılış mərasimində çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qeyd edib ki, “yaşıl” iqtisadiyyata keçid dövründə vətəndaşların əmək və sosial hüquqlarının qorunması məsələsi insan kapitalının inkişafı kontekstində dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycanda da böyük əhəmiyyət kəsb edir. Nazirin sözlərinə görə, beynəlxalq təşkilatlar tərəfindən aparılan tədqiqatlar göstərir ki, son dövrlərdə əksər inkişaf etmiş ölkələrdə milli sərvət strukturunda nəzərəçarpacaq dəyişikliklər müşahidə olunur.

Azərbaycanın regional və qlobal səviyyədə mürəkkəb siyasi iqtisadi proseslərin mənfi təsirinə baxmayaraq, əhalinin sosial rifahının yüksəldilməsini ən əsas fəaliyyətdə olaraq müəyyən etdiyini diqqətə çatdıran nazir deyib ki, 2018-ci ildən sonrakı dövrdə 4 milyon vətəndaşımızı əhatə edən, ümumi dəyəri 7 milyard manatdan artıq olan böyük sosial islahat paketləri həyata keçirilib.

BMT-nin COP29-da iqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai çıxışında bildirib ki, “yaşıl” enerji layihələrini və davamlı inkişafı dəstəkləmək üçün qlobal maliyyələşdirmə axını vacibdir. Qeyd olunub ki, belə layihələrin həyata keçirilməsi üçün milyardlarla dollar tələb olunur və hər bir ölkənin, xüsusilə də iqlim dəyişikliyinə həssas olan regionların bu vəsaitlərə çıxışının olması vacibdir.

Onun sözlərinə görə, iqlim dəyişikliyi ilə mübarizədə uğurun əsas elementlərindən biri əlçatan maliyyələşdirmə, eləcə də dövlət və özəl sektor arasında əməkdaşlıqdır. “Yaşıl” iqtisadiyyata keçidin təkcə texnoloji dəyişikliklərlə deyil, həm də insan kapitalının inkişafı ilə müşayiət olunduğunu vurğulayan. N. Arpadarai davamlı ekoloji inkişaf və “yaşıl” nəqliyyat üçün zəruri bilik və bacarıqlara malik mütəxəssislər tələb olunduğunu diqqətə çatdırıb.

Dünya Bankının Azərbaycan üzrə meneceri Steffi Stallmeister isə çıxışında ölkəmizin “yaşıl” iqtisadiyyata uğurlu keçid üçün əhəmiyyətli potensiala malik olduğunu diqqətə çatdırıb. Təhsil və səhiyyə sistemində yeni çağırışların əhəmiyyətini vurğulayan ölkə meneceri gender bərabərliyinə də diqqət yetirmək vacibliyini önə çəkib, təmsil etdiyi bankın Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni iş yerlərinin, o cümlədən “yaşıl” iş yerlərinin yaradılmasına yönəlmiş proqramını dəstəklədiyini bildirib.

Bakı İqlim Fəaliyyəti Həftəsinin 3-cü günündə, həmçinin müxtəlif mövzularda panel sessiyalar və “dəyirmi masa”lar keçirilib.

# Karbon artımı daşqınları da çoxaldıb

**İqlim dəyişikliyi ilə mübarizədə ölkələr və icmalar birgə adaptasiya tədbirləri həyata keçirməlidirlər. Həmin tədbirlər müxtəlif formalarda tətbiq edilə bilər. Bu, təkcə hökumətin, aidiyyəti qurumların deyil, vətəndaşların və özəl sektorun da məsuliyyətidir.**



Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində keçirilən sessiyada çıxışı zamanı bu fikrini davam etdirərək ötən il Azərbaycanda temperatur anomaliyasının 1,9 dərəcə olduğunu deyib: “Ölkəmizdə son illərdə daşqınların sayının xeyli artdığını xüsusi qeyd etmək lazımdır. Ötən il 147, bu ilin ötən dövründə isə 100-dən çox belə hadisə qeydə alınıb”.

# BMT: Azərbaycan enerji keçidinin ön cərgəsindədir

**BMT-nin İnkişaf Proqramının ölkəmizdəki rezident-nümayəndəsi Alessandra Rokkasalvo Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində keçirilən beynəlxalq konfransda Azərbaycanın qalıq yanacağın istehsalçısı olaraq enerji keçidinin tələbləri ilə bağlı böyük məsuliyyət daşıdığını bildirib. Onun sözlərinə görə, Azərbaycan enerji keçidinin ön cərgəsindədir.**

Alessandra Rokkasalvo, həmçinin deyib ki, BMT İnkişaf Proqramı Azərbaycanda iqlim dəyişikliyi, iqlim keçidi və ona bağlı məsələlər üzrə ən böyük agentlikdir. İlk Bakı İqlim Fəaliyyəti Həftəsinin keçirilməsi münasibətilə COP29 sədrliyinə təbriklərini çatdıran rezident-nümayəndə bunun məcburi deyil, könüllü bir tədbir olduğunu və yüksək qiymətləndiriləcəyinə əminliyini bildirib.



***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Zəfər yolu ilə ...
## *Son dayanacaq Şuşadır*

**Xəbər verdiyimiz kimi, sentyabrın 23–24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı, Daxili İşlər Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi, Mətbuat Şurası və digər qurumların, habelə ölkənin aparıcı kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Şuşada "İdeoloji mübarizədə din amili: mediadan gözləntilər" mövzusunda ikigünlük seminar keçirildi. Həmin seminarın iştirakçısı kimi, bu mühüm tədbirlə bağlı deyəcəklərimi sona saxlamaqla, bəzi məsələlərdən başlamağı məsləhət bildim.**

İndiyədək Şuşada olmamışdım. Nəinki Şuşada, heç Füzulidə, Xankəndidə, Laçında, Kəlbəcərdə də... olmamışdım. Ölkəmizin bu dilbər guşəsinə dəfələrlə getmək istəsəm də, müəyyən səbəblər üzündən alınmamışdı. Haradasa otuz il bundan əvvəlki erməni işğalından sonra güman edirdim ki, bu yerləri görmək mənə nəsib olmayacaq. Amma, necə deyərlər, sən saydığını say, görək fələk nə sayır...

İndi isə seminar iştirakçılarını aparan avtobusda Zəfər yolu ilə Füzulinin Alxanlı qəsəbəsindən Şuşaya doğru gedirik. Burada bizi Şuşaya aparan Zəfər yolunun əhəmiyyəti barədə bir neçə kəlmə deməyə ehtiyac var. İndiyədək Füzulidən Şuşaya yol olmayıb. Sovetlərin vaxtında belə Qalaya ancaq bir yol vardı – Ağdam–Xankəndi–Şuşa yolu. İndi isə Füzulidən Şuşaya müasir tələblərə cavab verən geniş və rahat yol çəkilmişdir. Həm də Qələbə günündən 8 gün, Ermənistanın kapitulyasiyasından isə 6 gün sonra çəkilişinə başlanılmış Zəfər yolu işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən ilk layihə olmuşdur.

İşğala məruz qalmamış yaşayış məskənləri bitdikdən sonra erməni faşistlərinin xaraba qoyduqları kənd və qəsəbələrin arasından keçdikcə, daha doğrusu, düşmən vəhşiliyinin nəticəsini gördükcə insanın damarlarında qanı donur.

Təsəvvürümə 70-80-ci illərin, yəni bu yerlərdə həyatın qaynadığı dövrün mənzərəsi gəlir. O vaxtlar bu kəndlərdə insanlar firavan və sülh içində yaşayıb-yaradır, özlərinə ev-eşik, qapı-baca qurub-tikir, qayğısız ömür sürürdülər. Ta bədnam qonşularımız peyda olanadək...

Yağı düşmən "bu torpaqlarda siz yox, biz yaşamalıyıq!" iddiası ilə vəhşicəsinə hücuma keçdi, hər şeyi alt-üst etdi. Daş üstündə daş qoymadı, əlinə keçəni yağmalayıb Ermənistana apardı, qalanını isə şor qiymətinə cənub qonşularımıza –dindaşlarımıza satdı.

Əhalinin bir qismi döyüşlərdə həlak oldu, qalanı isə tələm-tələsik başını götürüb təhlükəsiz yerlərə pənah apardı.

Yol boyu hər iki tərəfdə dünyanın güclü, demokratik dövlətlərinin məzlum və mədəni xalq kimi qəbul etdiyi ermənilərin "dəst-xətti" görünür: yandırılmış evlər, məktəblər, xəstəxanalar, dağıdılmış və yerlə-yeksan edilmiş məscidlər, ziyarət yerləri, qəbiristanlıqlar, kəsilmiş ağaclar, qırılmış elektrik xətləri... Budur Amerika Birləşmiş Ştatları və Fransa başda olmaqla Qərb dövlətləri rəhbərlərinin utanıb-qızarmadan halına göz yaşı axıtdıqları, kütləvi şəkildə silahlandırdıqları, çox böyük məbləğlərdə vəsait ayırdıqları erməni faşistlərinin əməlləri...

Dörd il bundan əvvəl, noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzulidə olarkən dövlət başçımız bu vəziyyəti görərək ürək ağrısı ilə demişdir: "Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər... Sanki bu torpaqlardan vəhşi bir qəbilə keçib."

Zəfər yolu Şuşaya yaxınlaşdıqca dik və sərt döngələr, qalın meşələr bir-birini əvəz edir. Bizim şir ürəkli əsgər və zabitlərimiz dörd il bundan əvvəl məhz bu qalın meşələri, uca zirvələri, sıldırım qayaları dəf edərək Şuşaya yaxınlaşmışdılar.

O vaxta qədər Azərbaycan Ordusunun belə hünər sahibi olduğuna nəinki ermənilər, heç hayların Qərbdəki havadarları da inanmırdılar. Onlar güman edir və inanırdılar ki, erməni xalqı döyüşkən millətdir və Ermənistanın çox güclü ordusu var. Azərbaycanlılar isə döyüşməyi bacarmırlar, zəif ordusu var.

Ermənistan–Azərbaycan münasibətlərinin tənzimlənməsi ilə məşğul olan beynəlxalq qurumların rəhbərləri, ATƏT-in Minsk qrupunun həmsədrləri, həmin dövlətlərin liderləri söhbətlər zamanı dəfələrlə Azərbaycana məsləhət görürdülər ki, münaqişənin hərbi həlli yolu yoxdur, məsələ yalnız sülh, danışıqlar vasitəsilə həll olunmalıdır.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz sübut etdi ki, münaqişənin hərbi yolla həlli var. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, qazilərimizin sağlamlığı, şəhidlərimizin canı-qanı bahasına biz bütün dünyaya sübut etdik ki, bu münaqişənin hərbi yolla həlli var və buna nail olmuşuq.

Avtobus Şuşaya yaxınlaşdıqca Cıdır düzü tərəfdən sıldırım qayalar bütün əzəməti ilə görünürdü. Bizə məlumat verdilər ki, Azərbaycanın xüsusi təyinatlıları məhz həmin qayaları dırmaşaraq şəhərə girmiş və düşmən üzərinə şığımışlar. Şübhəsiz, həmin qayaları dəf eləmək üçün gərək yüksək səviyyəli peşəkar alpinist olasan. Xüsusi təyinatlı Azərbaycan oğulları yüngül silahlar götürərək, həmin keçilməz qayaları dəf etmiş və düşmənin başının üstünü almışlar...

Ermənilər bu istiqamətdən hücumun qeyri-mümkünlüyünü nəzərə alaraq, oraya nəzarətçi belə qoymamışdılar. Əsas diqqəti şəhərə Xankəndi tərəfdən gələn yeganə yola yönəltmiş, orada güclü müdafiə istehkamları qurmuşdular.



Azərbaycan döyüşçülərinin gözləmədikləri tərəfdən qəfil hücumu təpədən-dırnağadək ən müasir silah-sursat və döyüş texnikası ilə təchiz olunmuş erməni silahlı qüvvələrini çaşdırıb pərən-pərən saldı. Beləliklə, "Ermənistanın güclü ordusu var, ermənilər döyüşkən xalqdır" mifi də darmadağın edildi. Çünki qəhrəman Azərbaycan oğulları Şuşada qərarlaşmış, özlərindən qat-qat çox olan düşmən əsgər və zabitlərini darmadağın etdilər. Biz elə həmin döyüşdə bütün dünyaya göstərdik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Azərbaycan Prezidentinin dediyi kimi, "erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerində oturtduq. Onlar bizim qabağımızda diz çöküblər və bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq – müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi."

Şuşa işğaldan azad olunandan sonra düşmən dərk etdi ki, digər ərazilərdə də müqavimət göstərməyin heç bir mənası yoxdur. Qəhrəman Ordumuz ertəsi günü 70-dən çox kənd, qəsəbəni və digər yaşayış məntəqələrini işğalçılardan azad etdi. Bu, əslində, düşmənə vurulan sonuncu zərbələr idi. Bütövlükdə isə, əməliyyatların gedişində 300-dən çox yaşayış məntəqəsi Silahlı Qüvvələrimiz tərəfindən azad edildi, necə deyərlər, düşmənin beli qırıldı, məcbur olub noyabrın 10-da kapitulyasiya sənədinə imza atdılar...

Amma istər Şuşanın geri alınması, istərsə də digər şəhər, qəsəbə və kəndlərimizin düşməndən təmizlənməsi çox böyük çətinliklər hesabına başa gəldi. Qırx dörd gün çəkən İkinci Qarabağ müharibəsində ordumuz hər gün irəli gedib, bir-birinin ardınca yaşayış məntəqələrimizi azad edib. Bir nəfər də olsun döyüş meydanını tərk etməyib. Tərifli Ermənistan ordusunda isə özlərinin etiraf etdiklərinə görə, 12 mindən çox fərari olmuşdur. Budur bizə nümunə göstərilən "güclü ordu"nun real sifəti.

Azərbaycan Ordusu isə ... Gəlin burada Prezident İlham Əliyevi dinləyək: "...Sinəsini qabağa verən, ölümə gedən gənclər bir amalla yaşayırdılar ki, milli ləyaqətimizi bərpa edək... Ali Baş Komandan kimi müharibənin nəticələrini şərtləndirən amillərə nəzər salaraq, təhlil edərək tam əminliklə deyə bilərəm ki, birinci yerdə, birinci növbədə milli ruh məsələsidir, mənəvi hazırlıqdır...

44 gün ərzində bu çətin coğrafiyada düşmənin 5-6, bəzi yerlərdə 7 müdafiə xəttini yararaq, hər gün irəliyə getmək, itkilər verərək aşağıdan yuxarıya qalxmaq, Şuşa kimi alınmaz qalanı, sıldırım qayalara dırmaşaraq ancaq yüngül silahlarla azad etmək – müasir tarixdə hansı ordu buna bənzər qəhrəmanlıq, peşəkarlıq göstərmişdir! Bu, həqiqətdir!"

Ali Baş Komandan, həmçinin ordumuzun itki verməsini də qeyd etdi. Bəli, müharibələr itkisiz ötüşmür. Vətən müharibəsi və antiterror tədbirlərində Azərbaycan Ordusu 3200-dən çox şəhid vermişdir. Şübhəsiz, II Qarabağ savaşında qazanılmış şanlı Qələbədə bu tarixi savaşda iştirak edən 90 mindən çox gəncin hər birinin xidməti danılmazdır. Amma şəhidlik zirvəsinə ucalmış gənclərimizin xidmətləri daha böyükdür.



Onlar Vətən, torpaq uğrunda canlarını qurban vermişlər...

Bu yerdə Şuşanın azad edilməsindən sonra telekanalların birində gedən verilişi xatırlamamaq olmur. Həmin verilişdə o vaxtadək olan şəhidlərimizin sayı açıqlandı – 2783 nəfər. Türkiyə orgeneralına sual verildi: sizcə, çoxdur, yoxsa az? Generalın cavabı, təqribən, belə oldu: Qarabağ sizin üçün qiymətlidirsə, 278 min şəhid versəniz də azdır. Yox, əgər qiymətsizdirsə 2783 şəhid çoxdur...

*

Şuşa bizi ənənəvi şəkildə – dumanı, çiskini ilə qarşılamadı. Əsl sakit payız havası idi. Ömür boyu Bakının tüstüsünü, zəhərli havasını udmuş bizim üçün tərtəmiz Şuşa havasına öyrəşmək o qədər də asan olmadı.

Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa ona doğma olan sakinlərini görüb ikinci ömrünü yaşayır. Şəhər böyük tikinti meydanını xatırladır. Hər tərəfdə tikinti-quruculuq işləri gedir. Ermənilərin dağıtdığı tarixi abidələr, mədəniyyət nümunələri, digər tikililər bərpa olunur, yenidən inşa edilir...

Şəhərdə tikinti-quruculuq işləri, əslində, İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra başlamışdır. İlk növbədə, Şuşaya yol çəkilməli idi. Ona görə Füzuli şəhərindən Şuşaya qısa müddət ərzində Zəfər yolu çəkildi. İndi isə daha geniş magistral avtomobil yolu çəkilir. Yeddi tuneli, doqquz viaduku, bir çox körpüləri olan dördzolaqlı gözəl bir yol çəkilir və gələn ilin sonuna qədər onun da hazır olacağı gözlənilir. Qaladakı tarixi abidələrin bərpasına da dərhal başlanılmışdır. Vaqifin məqbərəsi yenidən qurulmuşdur. Ondan sonra Yuxarı Gövhər ağa məscidi, Saatlı məscidi, Mamayı məscidi, Mehmandarov məscidi və evi də bərpa olunmuşdur. Çöl Qala məscidində artıq bərpa işləri aparılır. Şəhərdə dörd mehmanxana fəaliyyət göstərir. Onların içində ən böyüyü beşulduzlu "Şuşa" mehmanxanasıdır. Bütün tikililər ənənəvi Şuşa memarlığı üslubunda inşa edilmişdir. Eyni zamanda, Şirinsu hamamı əsaslı təmirdən sonra açılmışdır. Aşağı Gövhər ağa məscidində təmir-bərpa işləri yekunlaşmaq üzrədir. Üzeyir Hacıbəylinin düşmən tərəfindən dağıdılmış abidəsi, habelə Xurşidbanu Natəvanın, Üzeyir bəyin və Bülbülün güllələnmiş büstləri yenidən öz yerinə qoyulmuşdur. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü yenə də əvvəlki görkəmində bərpa edilmişdir. Üzeyir Hacıbəylinin ermənilər tərəfindən dağıdılmış evi yenidən qurulur.

Məscidlərdən söhbət düşmüşkən, deməliyik ki, ermənilər Şuşadakı 17 məsciddən 16-sını dağıtmış, birini isə başqa xalqa mənsub olan məscid kimi təqdim etməyə çalışmışlar. Şuşa azad ediləndən sonra, guya, orada aparılmış təmir işləri dərhal ləğv edilmiş və məscid yenidən qurulmuşdur.

Yeni tikilən binalar və digər obyektlər də qədim Şuşa memarlığına uyğun inşa olunur. Şəhəri gəzdikcə insanın ruhu dincəlir. Hər şey göz oxşayırdı. Bəli, bu gün biz yenidən dirçəldilən Şuşanı görürük.

*

... Amma, şəxsən mən Şuşanı təsəvvürümdəki Şuşa kimi görmək istəyirdim. Ertəsi günü də Günəş çıxarkən qaldığımız "Qarabağ" hotelinin 4-cü mərtəbəsinin eyvanından şəhəri seyr edərkən yaxındakı dağların zirvələrində nə duman gördüm, nə də çən. Heç səmada da bulud yox idi. Səhər yeməyindən sonra Saatlı məscidinin yanında ağaclara qulluq edən bağbandan soruşdum:

– Bəs hanı Şuşanın duman-çəni?

O bir qədər uzaqdakı zirvəyə tərəf baxıb dedi:

– Bir qədər səbirli olun, görəcəksiniz.

O boylandığı səmtə mən də baxdım. Kor duman yavaş-yavaş şəhərə doğru sürünürdü.

Az sonra duman şəhəri qoynuna aldı. Əvvəlcə çiskin, sonra dolu yağdı. Daha



sonra isə gurşad yağış başladı. Axır ki, Şuşanı təsəvvür etdiyim kimi gördüm.

*

Bakıya qayıdarkən yolüstü Xankəndidə olduq. Şəhərin əsas küçələrindən keçərək bu dərs ilində fəaliyyətə başlamış Qarabağ Universitetinə getdik. Universitetin qarşısında bizi rektor Şahin Bayramov qarşıladı. Rektor dedi ki, universitetin pedaqoji-müəllim heyəti və tələbələri dörd gün bundan əvvəl möhtərəm Prezidentimiz İlham Əliyevlə keçirdiyi görüşün unudulmaz təsiri altındadır. Dövlət başçımız universitetimizin açılışında iştirak etdi və çıxışında bildirdi ki, Xankəndidə Qarabağ Universitetinin yaradılması tarixi hadisədir.

Prezidentə məlumat verdik ki, hazırda universitetin 1200 tələbəsi var. Demək olar ki, ölkəmizin bütün bölgələrindən tələbələrimiz var. Xeyli hissəsi 600-dən çox bal toplayıb.

Universitetdə altı fakültə yaradılıb. Qarşıdakı illərdə tibb fakültəsi də təşkil olunacaq. Bundan əlavə, Xocalıda Aqrar elmlər fakültəsi, Şuşada turizm fakültəsi də açmağı nəzərdə tutmuşuq. Bu mənada universitetimiz bir neçə şəhəri birləşdirəcək.

Universitetin əsas tədris korpusuna baş çəkdik, bəzi auditoriyalarda dərsin gedişi ilə maraqlandıq. Hər şey yüksək səviyyədə idi. Əmin olduq ki, Qarabağ Universiteti yaxın vaxtlarda Azərbaycanın qabaqcıl ali təhsil müəssisələrindən birinə çevriləcəkdir.

*

"Azərbaycanın Xirosiması" adlandırılan Ağdam ərazisinə daxil olarkən viran edilmiş, xarabazara çevrilmiş böyük şəhərin miskin görkəmi insanı haldan çıxarır. Ucu-bucağı görünməyən xarabalıqda Cümə məscidindən savayı salamat bir tikili gözə dəymir. Bunu bədnam qonşularımız, çörəyimizi yeyən, amma bizə daim nifrət bəsləyən ermənilər etmişlər. Cümə məscidini mal, heyvan, hətta donuz saxlamaq üçün, minarələrindən isə ətrafı nəzərdən keçirmək məqsədilə nisbətən salamat saxlamışlar.

Üç il bundan əvvəl Prezident İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşını qoyarkən demişdir: "Ağdamda İşğal muzeyi və Zəfər muzeyi konsepsiyası mənə təqdim edildi. Yer seçildi və həm Zəfər, həm İşğal muzeyləri çox möhtəşəm olacaq. Şəhərin içində böyük bir meşə zolağı olacaq – 125 hektarlıq. Süni göl yaradılacaq, kanallar, körpülər. Şəhərin müasir standartlara, müasir tələblərə uyğun inkişaf planı artıq tam işlənib hazırlanıb... Tramvaylar ölkəmizdə hələ heç yerdə yoxdur. Amma Ağdamda olacaq... Biz Ağdamı bir güllə atmadan, bir şahid vermədən azad etdik və bu gün buradayıq və bundan sonra əbədi burada olacağıq. Mən deyirəm bu şəhər, bütöv rayon dünya üçün nümunə olacaq".

*

Yazının əvvəlində qeyd etdiyim kimi, bu səfərimiz Şuşada "İdeoloji mübarizədə din amili: mediadan gözləntilər" mövzusunda keçirilən iki günlük seminarla bağlı idi. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramil Məmmədov media nümayəndələri ilə dini mövzuda seminarın Şuşada keçirilməsinin təsadüfi olmadığını diqqətə çatdırdı. Bu ərazilərdə xalqımıza məxsus yüzlərlə dini və tarixi abidə dağıdılıb. Məscidlərimiz təhqir olunub, dini məbədlərimizin tarixinin saxtalaşdırılmasına cəhdlər edilib.

Komitə sədri əlavə etdi ki, hazırda müxtəlif dövlətlər din amilindən siyasi-psixoloji və ideoloji təzyiq vasitəsi kimi istifadə etməyə çalışırlar. İdeologiya elə bir həssas istiqamətdir ki, ictimaiyyət və dövlət, vətəndaş cəmiyyətləri institutları ilə hökumət qurumları məsuliyyəti bölüşməlidirlər. Açılış mərasimində çıxış edən Nazirlər Kabineti Aparatı Humanitar məsələlər şöbəsinin müdiri Ərəstü Həbibbəyli sosial mediada yayılan dezinformasiyalar və ənənəvi medianın rolu barədə fikirlərini diqqətə çatdırdı.

Seminarın "Dini etiqad azadlığı və azad media: sərhədlər haradan başlayır?" mövzusunda I sessiyası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılovun, "Dini radikalizmlə mübarizə və media" mövzusunda II sessiyası Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinovun, "Dini maarifləndirmənin təşkilində medianın rolu: əsas təbliğat və təsir metodları" mövzusunda III sessiyası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Aparatı rəhbərinin müavini Elşad Miraləmin moderatorluğu ilə aparıldı. Mütəxəssislər və ekspertlər mövzularla bağlı fikirlərini söyləyib, təkliflərini verdilər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri R.Məmmədov seminarda səslənən bütün təkliflərin nəzərdən keçiriləcəyini bildirdi.

***Qüdrət PİRİYEV***
***XQ***

**Bakı–Şuşa–Xankəndi–Ağdam–Bakı**

*Kərkük xatirələri*

# Bağdadda Füzuli festivalı



**(əvvəli qəzetimizin 27 və 29 sentyabr saylarında)**

Füzulinin 500 illiyinə həsr olunan festivalda 128 nəfərlik Azərbaycan nümayəndə heyətinin rəhbəri olmuş Xalq yazıçısı, o dönəmdə Azərbaycan Respublikası baş nazirinin müavini Elçin Əfəndiyevi 2013-cü ildə ziyarət edərkən festivalda iştirakı və Kərkük səfəri ilə bağlı xatirələrini öyrəndim.

Mənə bunları danışdı: "Unudulmayacaq bir ziyarət idi. İran üzərindən Bağdada, sonra da Kərkükə getmək bizim ən böyük istəklərimizdən biri idi. Kərkükün ağsaqqalı Əta Tərzibaşı ilə heyətimizdən 5 nəfərin görüşməsi və ona Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvlük vəsiqəsinin təqdimi bizim üçün böyük bir hadisə idi. O günlər hər yadıma düşəndə çox xoşbəxt oluram. Məndən Kərkükə və İraq türkmanlarına və Türkmaneliyə qucaq dolusu salamlarımı və sevgilərimi yetirin".

Azərbaycanın digər ziyalıları da həmin İraq səfərinin təəssüratlarını ürəklərində yaşadırlar. Onların bəzilərini yada salaq.

**Akademik İsa Həbibbəyli:** "1994-cü ildə Füzulinin 500 illik yubileyi münasibətilə İraqda təşkil olunan tədbirlərə qatılmaq üçün İran üzərindən Bağdada, daha sonra da Kərkükə getmişdik. Kərkükdə çox gözəl 2 gün keçirdik. Şəmsəddin Küzəci və dostları bizlərdən Kərkük TV üçün müsahibələr aldılar. Möhtəşəm təqdimatlar etdik. Azərbaycanla Kərkük arasında eyni dil və eyni mədəniyyət yaşanmaqdadır. Xoyratları bayatılarımız kimi təsirli və möhtəşəmdir. Qismət olsa, 30 il sonra bir daha Kərkükə gedib öz doğma qardaşlarımızla bir arada olmaq arzumdur. Kərbəlada Füzulinin məzarını ziyarət etmək ən böyük arzumdur.

**Dr.Mustafa Ziya:** "1994-cü ildə Bağdad Universitetinin doktorantı idim. Dekanlıqdan bir nəfər gəlib mənə telefon edildiyini xəbər verdi. Mən də qaça-qaça getdim. Xəttin o biri başında Əbdüllətif Bəndəroğlu: "Mustafa bəy, xoş gördük. Azərbaycandan geniş bir heyət gələcək. Sizi də rəhbər yazdım. Təcili yanıma gəlin, görüşək" – dedi. Mən də dərhal getdim, görüşdük. Mənə bunları dedi: "Füzulinin 500 illiyi ilə bağlı təşkil olunacaq festivala böyük bir heyət gələcək. Sizi, Qasım Sarıkahyanı və Nevzat Abdülkərimi rəhbər olaraq İraq Mədəniyyət və İnformasiya Nazirliyinə təqdim etdim. Hazırlaşın, vəzifə sizdə". Mən də dedim ki, doktorantam. "Önəmi yox" – dedi, – Bütün icazələri nazirlik həll edər.

16 sentyabr 1994-cü il tarixində qonaqları üçümüz qarşıladıq və "Melia Mansur" otelində yerləşdirdik. Həmin gün Azərbaycan nümayəndə heyəti Bağdadın böyük salonunda "Leyli və Məcnun" operasını təqdim etdi. İkinci gün Kərbəlada Füzulinin məzarı ziyarət edildi. Nəcəf və Kufə ziyarətindən sonra Bağdada qayıtdıq. Ertəsi gün Elçin Əfəndiyev mənə dedi ki, naziri görmək istəyirlər. Mən də lazımi adamlara məlumat verdim. Həmin gün İraq Mədəniyyət və İnformasiya naziri Məhəmməd Saif əl-Sahhaf otelə gəldi. Elçin Əfəndiyev və Sabir Rüstəmxanlı ilə görüşdü. Elçin bəy nazirə Kərkükə getmək istədiklərini dedi. Sonra qonaqlar Səddam Hüseynlə görüşdülər və Kərkükə getmək üçün icazə ala bildilər. Ertəsi gün günortadan sonra Azərbaycan nümayəndə heyəti 3 avtobusla Kərkükə yola düşdü.

Avtobuslar Kərkükə yaxınlaşanda Günəş batmışdı. Lakin Kərkükün üfüqlərini Gugur Babanın alovları işıqlandırırdı. Xalq şairi Zəlimxan Yaqub üfüqə işarə edərək orada nəyin işıldadığını soruşdu. "Kərkükdür" – dedim. Zəlimxan Yaqub sürücüyə "Dayan, dayan" – deyə qışqırdı. Ərəb kökənli sürücü sözləri başa düşmədi. Mən tərcümə etdim. Avtobuslar dayanan kimi heyət endi. Zəlimxan Yaqub səcdə edərək torpağı öpdü və dedi: "Kərkükə qovuşdum. İndi ölsəm də qəm yemərəm". Hər kəs Kərkük torpağını öpürdü. O an gözlərim yaşardı, qəlbim sızıldadı...

Sabir Rüstəmxanlı, Anar və Qəzənfər Paşayev Əta Tərzibaşını görmək istədiklərini və məndən onları böyük alimin evinə aparmağımı istədilər. Çətinliklə də olsa, bu görüş baş tutdu. Bu hadisə Qəzənfər Paşayevin öz tədqiqatları ilə Azərbaycan xalqında oyandırdığı Kərkük sevdasının bariz nümunəsi idi".

**Şair Ümid Köprülü:** "Məni İraq Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları



təqib edirdi. Əbdüllətif Bəndəroğlu mənə demişdi ki, Azərbaycan heyəti ilə maraqlanın. Mən də otelə gedib bir neçə nəfərlə görüşdüm. O əsnada məni izləyən iki nəfər yaxınlaşdı. Baxdım ki, onlar İraq dövlətinin adamlarıdır. Daha əvvəllər dəfələrlə məni sıxışdırmışdılar. Bu dəfə tək kəlmə ilə mənə dedilər ki, Azərbaycan heyətinin siyahısını bizə ver. Mən də necə verim sizə? Mən onların bir qismini şair və yazıçı olaraq tanıyıram. Amma məndə siyahı yoxdur, – dedim. Məni təhdid etdilər. Mən oradan Əbdüllətif Bəndəroğluya telefon açdım. Məni incitdiklərini dedim. O da heç bir şey edə bilməzlər dedi. Azərbaycan heyətinin konsertindən sonra məni aparıb bir neçə saat saxladılar, sonra sərbəst buraxdılar".

**Şair Fövzi Əkrəm Tərzioğlu:** "Mən o zaman Kərkük TV-də sənət verilişi aparırdım. "Leyli və Məcnun" operası və azərbaycanlı sənətçi Mələkxanım haqqında reportaj hazırlamışdım. Axşam efirə getməli idi. Azərbaycan heyətilə oteldə oturub verilişin başlanmasını gözləyirdik. Mənim verilişimin əvəzinə Şəmsəddin Küzəcinin verilişi efirə verildi. Hamımız çox üzülmüşdük. Daha sonra TV ilə danışdıq. Xüsusi veriliş olduğu üçün montaj işlərini yekunlaşdırmamışdılar. Lakin bu gecə efirə verəcəklərini dedilər. Gecə saatlarında bir Misir filmini yarıda kəsib "Azərbaycan özəl" verilişini efirə verdilər. Çox sevindik. Azərbaycan sənətçiləri də sevinmişdilər. 30 il əvvəl belə bir xatirəmiz oldu".

**Professor Asif Rüstəmli:** "Biz əvvəlcə Bağdad, Kərbəla, Kufə və Nəcəf şəhərlərini gəzdik. Füzulinin məzarına getdik. Kərkükü də görmək istəyirdik. Ümidimiz yox idi. Səlahiyyətlilər bizə dəfələrlə söylədilər ki, Kərkükdə vəziyyət çətindir. Orada təhlükəsizlik problemi var. Gedə bilməzsiz. Ancaq bizimkilər çox israr etdilər. Bizdən bir neçə nəfəri Səddam Hüseyn qəbul etdi. Nəhayət, Səddam Hüseyn Kərkükə getməyimizə izn verdi. Kərkükü biz öz doğma vətənimiz kimi gördük, insanlar öz dilimizdə danışırdılar. Ünsiyyət qurmaqda heç bir çətinlik çəkmədik. Konsertin təşkil edildiyi salonun girişində yüzlərlə insan çöldə qalmışdı. Salon içərisində də millət ayaqda dayanmışdı. İlk dəfə gördüm ki, sıraların arasında pilləkənlərdə polislər də var idi. Bizə dedilər ki, bu polislər sizin təhlükəsizliyiniz üçündür. Biz də heyrətləndik. Öz soyumuzdan, kökümüzdən olan insanların arasına ərəb polislərini qoymaq heç bir məntiqə sığmırdı".

**Mərhum Xalq şairi Zəlimxan Yaqub 2009-cu ildə Azərbaycanda keçirilən "Kərkük gecəsi"ndə öz ləhcəsi ilə bunları söyləmişdi:** "Azərbaycan poetik sözünün peyğəmbəri Füzulinin doğumunun 500 illiyi münasibətilə Azərbaycandan İraqa, Bakıdan Bağdada böyük bir nümayəndə heyəti getmişdik. Və orda Bağdadı, Kərbəlanı, Kərkükü ziyarət etmişdik. Ancaq o gündən bugünə Kərkükdə gördüyümüz məclislər, eşitdiyimiz havalar, dinlədiyimiz nəğmələr, bal kimi şirin ləhcə yaddaşımızda və ürəyimizdə yaşayır. Mən bu məclisdə "Kövrək bir havadır sazımda Kərkük" adlı 6 albomdan əvvəl yazdığım dastandan parçalar oxumaq istəyirdim. Ancaq gördüm ki, hər dəfə burda ürək açan məqamlarda xalqımın balaları yumruğunu havaya qaldırır. Türkün ruhunu, türkün səsini car eləyir bütün dünyaya. Odur ki, şeir parçalarını oxumaqdan hələlik vaz keçirəm. Və sizə söz verirəm ki, başqa bir münasibətdə başdan ayağa oxuyacağam. Ancaq bir halda ki, bu gün Kərkükün səsi, nəfəsi, havası, avazı, sazı, sözü, şeiriyyəti, xoyratı, xoyratçısı, bayatıçısı buradadır, həmin o havaya qalxan yumruqların eşqinə, Türk dünyasının eşqinə, Kərkükün eşqinə bu şeiri oxuyacağam".

Sonra Zəlimxan Yaqub "Döyüşən türk..." şeirini səsləndirdi. Hər kəsi coşdurdu. İllər sonra onunla təkrar-təkrar görüşəndə məxsusi "Kərkük" şeiri hazır idi. Dedi ki, öz dilimizdə danışan, xoyratlarla qidalanan, Füzuli ruhu ilə nəfəs alan Kərkükün ab-havasına ithaf edirəm. Və şeiri oxudu:

***"Bu gün sənin taleyini düşünürəm,***
***Ağır gündə üstünü od alan Kərkük.***
***Öndə qatil, sağda düşmən, solda yağı,***
***Yurd-yuvası, el-obası talan Kərkük.***

***Beş yüz ildi Boyat səndə, Nəsim səndə,***
***Məndən qopan ruhum səndə,***
***səsim səndə.***
***Gəl qovuşaq, qurbanımı kəsim səndə,***
***Bəd xəbərlər yalan olsun,***
***yalan, Kərkük…***

**Zəlimxan YAQUB – Azərbaycan**
**16 mart 2003-cü il"**

Məzarı nurla dolsun.

...Bu gün Türk dünyasının böyük şairi Məhəmməd Füzulinin anadan olmasından 530 il ötür. Buna baxmayaraq, şairin doğum yeri ilə bağlı məlumatlar və sənədlər hələ də açıqlığa qovuşmayıb. Kərküklü tədqiqatçı Əta Tərzibaşının Füzulinin Kərkükdə doğulması haqqında iddialarına cavab verilmədiyi üçün onun fikirləri hələ ki, əsas sayılır.

İraq səlahiyyətlilərinin Füzulinin məzar daşı və həqiqi türbəsinin yeri ilə bağlı irəli sürdükləri faktların dəqiqliyi sübut olunmayıb. İddia edildiyi kimi olsaydı, bu gün Füzulinin məzar daşına, heykəlinə rast gələrdik. Amma təəssüflər olsun ki, nə İraq dövləti, nə də nazirlik Füzuliyə nə bir heykəl, nə bir abidə, nə də bir Mədəniyyət mərkəzi təsis etməmişdir. Bu mövzu Azərbaycan və Türkiyə səlahiyyətliləri üçün də keçərlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Füzulinin 530 illik yubileyi çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Folklor İnstitutunda müəyyən tədbirlər keçirilir. Çox istərdik ki, türk dövlətlərinin mədəniyyət nazirliklərini təmsil edən TÜRKSOY və Türk Ağsaqqallar Birliyi bu yubileylə bağlı geniş tədbirlər keçirsin və dahi şairin ruhunu şad etsinlər.

***Şəmsəddin KÜZƏCİ,***
***şair-publisist***

**Kərkük**

# Vətən sevgisinin Zəfər nəğmələri

Şair Gəray Göyyurdun 44 günlük Vətən müharibəsində qazanılan Zəfərə həsr elədiyi "Dövlət, Vətən, Ordu, Xalq" lirik poemasının, "Şuşa Bəyannaməsi", "Zəfər sənin zəfərindi, Sayın Ali Baş Komandan" şeirlər kitablarının qayəsini şəhidlərimizin ölməz ruhuna sayğı, qazilərimizə dərin ehtiram, Qarabağda aparılan quruculuq işlərinə, Azərbaycan–Türkiyə dostluğuna vətəndaş dəstəyi və yanğısı təşkil edir.

Onun şeirləri Vətənə intəhasız sevgisindən, yurduna, onun insanına ülvi, pak olduğu qədər də isti münasibətindən yoğrulub. Poemanın proloqunu:

***Şeirimdən güc alıb qoy çiçəklənsin,***
***Vətənim, torpağım, yurdum, İlahi.***
***Firavan yaşasın xalqım, millətim,***
***Daha güclü olsun ordum, İlahi!***

– misraları ilə başlayıb, epiloqunu:

***Qoruyaq və uğrunda***
***Uf demədən verək can.***
***Ən böyük birliyimiz –***
***Türkiyə, Azərbaycan!***

– ilə möhürbənd edən şairin bədii təxəyyülünün genişliyinə, Vətəninə, dövlətinə tükənməz sevgisini sözün qüdrətilə obrazlaşdırmaq məharətinə, vətənpərvərliyin lirizm zirvəsinə heyran qalırsan. Doğma yurda məhəbbətini təxəllüsündə həkk edən Gəray Göyyurdun 60 illik yubileyi Gədəbəy Aşıqlar Məktəbində düzənlənən mərasimdə qeyd olunub. İstedadlı şairin Prezident, Ali Baş Komandan İlham Əliyevə həsr elədiyi "Zəfər sənin zəfərindi, Sayın Ali Baş Komandan" adlı yeni şeirlər kitabı mərasim iştirakçılarının ixtiyarına verilib.

Gec-gec görüşsək də, hər dəfə bizi yüz ilin dostu kimi bağrına basan yubilyar qardaşımızın elə hal-əhval söhbəti də nəzmə çəkilmiş formada olur. Allahın salamı və coşqu dolu şaqraq gülüşü ilə müşayiət olunan şairin müsbət aurasından doymaq olmur. Gərayın "İki qardaş, iki Cümhurbaşqanı" şeirini aşıqların ifasında dinləmək isə bir ayrı zövqdür. Bizə isə şairə



60-ın gümrahlığını daim saxlamaq əzmi, yazıb-yaratmaq həvəsi və yeni-yeni ədəbi uğurlar diləmək qalır...

***İ.HƏSƏNQALA***
***XQ***

*Yeni kitablar*

**"Füyuzat" nəşriyyatında tənqidçi, ədəbiyyatşünas Mehman Qaraxanoğlunun "Kamal Abdulla: yaradıcılıq stixiyası" adlı kitabı işıq üzü görüb. Yeni nəşrdə yorulmaz tədqiqatçı, akademik, "Şərəf" ordenli Xalq yazıçısı Kamal Abdullanın ədəbi-filoloji fəaliyyət dairəsinə dair təhlillər və esselər toplanıb.**

"Müxtəlifliyin harmoniyası", "Kamal Abdulla hekayələrinin meditasiyası: Özünü oxu, özünü şərh et!" və "Görükməz təpələr: romanlar" kimi fəsillərdən ibarət olan kitabda müəllif Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsinin yaradıcılığı ilə bağlı hermenevtik (təfsiri) üsul və fəlsəfi, hissi-analitik yanaşmalarla özünəməxsus təhlillər apararaq, onun əsərlərindəki mürəkkəb məna qatlarını, dərin estetik dəyərləri diqqət mərkəzinə gətirir. Bu yanaşmalar Xalq yazıçısının milli söz sənətinə verdiyi töhfələrinin sanbalını aydınlığı ilə göstərir. Təhlillərdə hər bir bədii mətnə fərqli rakursdan baxılır və bu da Kamal Abdullanın söz dünyasını daha aydın dərk etmək imkanı yaradır.

# Akademikin çoxşaxəli irsinə özəl baxış




"Elm Kamal müəllim üçün sınırları məlum olmayan nəhəng bir yaradıcılıq növü, qeyri-səlis məntiqlə, vird, vəcd və sonsuz metamorfozlarla iç-içə olan bütöv bir Kosmosdur" – deyən Mehman Qaraxanoğlu diqqəti görkəmli alimin mifoloji mətnlərinə, Dədə Qorqud sevgisinə yönəltməklə yazılanların daha da cəlbedici olmasını təmin edə bilib. Müəllif daha sonra göstərib ki, ümumiyyətlə, qeyri-səlis məntiq nəzəriyyəsi bütün elm və incəsənət sahələrində son nöqtənin olmadığını iddia edir. "Zənnimizcə, Kamal Abdullanın "Dədə Qorqud"dan heç cür qopa və ona son nöqtəsini qoya bilməməsinin başlıca səbəblərindən biri də budur". Əlavə edək ki, hələ 25 il öncə dastanın tədqiqinə görə Əməkdar elm xadimi fəxri adına, daha sonra (2021) Türk Ədəbiyyatı Vəqfinin təsis etdiyi "Yaşayan Dədə Qorqud" mükafatına layiq görülməsi də alimin ümumtürk ədəbiyyatının möhtəşəm yazılı eposunu çeşidli yönlərdən daha geniş araşdırmasını ondan ötrü bir vəfa borcu edib.

Müasir ədəbi prosesi izləyənlər təsdiqləyərlər ki, Kamal Abdullanın "Yarımçıq əlyazma", "Sehirbazlar dərəsi", "Unutmağa kimsə yox...", "Sirlərin sərgüzəşti", "Laokoon… Laokoon" romanları, "Tarixsiz gündəlik" povesti, sanballı "Gizli "Dədə Qorqud", "Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud" dastanı", "Beyrəyin taleyi" və "Casus" pyesləri, "Nar çiçəkləri" adlı şeir kitabları, "300 azərbaycanlı" toplusu və sair nəşrləri ilə yanaşı, son illərdə "Düma ilə Coys arasında" adlı ədəbi-tənqidi esselər (2016), "Edam vaxtını dəyişmək olmaz" adlı hekayələr (2017) kitabı, 7 cildlik "Seçilmiş əsərləri" onun necə dərin düşüncəli və məhsuldar qələm sahibi olduğuna dəlalət edir. Kamal Abdullanı ədəbi kuluarlarda Azərbaycan ədəbiyyatının Umberto Ekosu da adlandırırlar. Amma italyan yazıçıdan fərqli olaraq, o, tapdığı adi bir əlyazmaya göstərdiyi marağı qələmə aldığı gözəl romanla oxucusunun da maraq orbitinə keçirə bilib. Üstəlik, dilçi alim kimi danılmaz xidmətləri var, postmodernizmi Azərbaycan ədəbiyyatının ana xətlərindən birinə çevirməyi bacarıb, "Dədə Qorqud"la bağlı semantik sayrışmaları – mifolinqvistikası isə, düşünürük ki, uzun müddət öz yerində sayan mövzuların dəyişdirilməsi, onların yeni istiqamətə yönəlməsi ilə maraqlıdır.

Təsadüfi deyil ki, çoxsaylı müəlliflər – görkəmli alimlər, yazıçılar, tələbələri Kamal Abdulladan bəhs edən monoqrafiyalar, məqalələr, esselər yazmağa sonsuz həvəs göstərirlər. Akademik İsa Həbibbəylinin, Asif Hacılının, Rüstəm Kamalın, Mehman Musaoğlunun, Elçin Səlcuqun, Lyudmila Bejenarunun, Salidə Şərifovanın, Jalə Qəribovanın, Nargis İsmayılovanın çalışmaları buna misal ola bilər. Bir neçə ay öncə isə Türkiyədə Kamal Abdullanın yaradıcılığından bəhs edən "Psixoanalitik, arxetipik və postmodern baxışlar çərçivəsində Kamal Abdullanın romanları" adlı yeni kitab işıq üzü görüb. Mehman Qaraxanoğlunun "Kamal Abdulla: yaradıcılıq stixiyası" kitabının da bu siyahıda layiqli yerini tutacağına əminik.

Yeni nəşr müəllifin Kamal Abdulla irsinə dərindən bələdliyini göstərir. Xatırlayırıq ki, Mehman Qaraxanoğlunun Kamal Abdullanın 70 yaşına ərməğan etdiyi "Allah, sənin yuxunuq biz" adlı qeydləri də diqqət çəkmişdi. Yazmışdı ki, Kamal Abdulla "Sirr içində sirr" konsepsiyasını bir azərbaycanlı olaraq məhz milli, etnomifoloji, mifolinqvistik uçuş zolağından dünya elmi, bədii və fəlsəfi mühitinə doğru istiqamətləndirən mütəfəkkirdir. O, ictimai-siyasi fəaliyyətində olduğu kimi, yaradıcılığında da multikulturaldır; müxtəliflikləri özünün kəşf etdiyi ortaq bir sehrli nöqtədə birləşdirə bilir...

Oxuculara təqdim olunan yeni kitabın elmi redaktoru akademik Muxtar İmanov, redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Maral Yaqubovadır. Nəşrin rəyçiləri isə filologiya üzrə fəlsəfə doktorları Ağahüseyn Şükürov və Adil Həsənoğludur.

***Əli NƏCƏFXANLI***
***XQ***

# "Yaradıcı həftə"nin film festivalları

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə oktyabrın 2-dən ölkəmizdə "Yaradıcı həftə" layihəsinin həyata keçirilməsinə başlanıb.**

Bu, Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası istiqamətində reallaşdırılan təşəbbüsdür.

Mədəniyyət Nazirliyindən bildirilib ki, yaradıcı sektor təmsilçilərinin, beynəlxalq və yerli təşkilatların nümayəndələrinin, eləcə də ictimai birliklərin qoşulduğu layihənin əsas məqsədi mədəniyyət və yaradıcı sənayelərin vahid bir ekosistem kimi formalaşdırılması, bu sahənin bazar iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi, eyni zamanda, sahəvi klasterləşmənin təşviq edilməsidir.

"Yaradıcı həftə" çərçivəsində "Baku Cinema Breeze" platforması üzrə XV Bakı Beynəlxalq Film Festivalı, VIII "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı, VII ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı, "Alove" Animatorların Akselerasiyası və Türk Animasiyası Festivalı kimi




tədbirlər nəzərdə tutulur. Bundan əlavə, Azərbaycanda ilk dəfə Şərqi və Mərkəzi Asiya ölkələrinin film marketi də təşkil ediləcək.

Qeyd edək ki, ölkəmizdə ilk dəfə ötən il keçirilmiş "Yaradıcı həftə" çərçivəsində 5000-dən artıq iştirakçını əhatə edən 20-yə qədər tədbir təşkil olunub.

***XQ***

# Urbanizasiya – sivilizasiyanın tərs üzü

*Bu proses paytaxtlarda daha ciddi fəsadlar doğurur*

**Bu gün dünya əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayır. 2050-ci ilə qədər burada əhalinin daha 2 dəfə artacağı gözlənilir. Beləliklə, urbanizasiya günümüzdə əhatəsini daha da genişləndirir və çeşidli ekoloji problemlər yaradır. Nəticədə, ətraf mühit aşınır, yararsız vəziyyətə düşür. Onun fəsadları Bakı kimi meqapolisin həyatında daha qabarıq müşahidə olunur. Bu barədə ETN Coğrafiya İnstitutunun əməkdaşı, dosent Etibar Bədəlov XQ-yə müsahibəsində ətraflı söhbət açdı.**



***– Bakı aqlomerasiyasında əhalinin həddindən çox toplanması bir sıra sosial çətinliklərlə yanaşı, ekoloji problemlərə də gətirib çıxarır. Urbanizasiya bu arealda özünü necə göstərir?***

– Proses yaxşılığa doğru getmir. 2024-cü ildə Azərbaycan əhalisinin 54,5 faizi, yəni yarıdan çoxu şəhərlərdə məskunlaşıb. Əhali, əsasən, Bakıda toplaşır. Urbanizasiyanın bir şəhərin üzərində müşahidə edilməsi ölkə üçün heç də xoş olmayan nəticələrə gətirib çıxarır. İndi Bakı dünyanın bütün böyük şəhərlərində olduğu kimi, urbanizasiyanın mənfi nəticələrini yaşayır. Mənzil, işıq, qaz, su, kanalizasiya və digər kommunal xidmətlər sahəsində ciddi problemlər yaranır. Şəhərin yaşıllıq sahələri də əhalinin artım tempinə uyğun gəlmir. Bakı, təəssüf ki, ən az yaşıllıq sahəsi olan şəhərlər sırasındadır.

Bundan başqa, nəqliyyat sistemi ciddi problemlər yaşayır. Hazırda Bakı şəhərində 700 mindən çox nəqliyyat vasitəsi daimi qeydiyyatdadır. Bununla yanaşı, hər gün Abşeron, Sumqayıt, eləcə də respublikanın digər şəhər və rayonlarından paytaxta 250–300 min və bəzən daha çox nəqliyyat vasitəsi daxil olur. Habelə 2 mindən çox avtobusla sərnişindaşıma həyata keçirilir. Nəticədə avtomobil yollarında sutka ərzində 1 milyona yaxın nəqliyyat vasitəsi hərəkətdə olur. Onlardan isə atmosferə zərərli qazlar buraxılır.

Bakıda maşınların sayının çox, yaşıllıq sahələrinin az olması isə heç də ürəkaçan deyil. Şəhərdə tez-tez tıxaclar yaranır, hava çirklənməyə məruz qalır. Nəqliyyat səsi əsəb yaradır, insanların sinir sistemini pozur.

İnsanların sayı artdıqca məişət tullantıları da artır. Bərk məişət tullantıları, xüsusilə plastik tullantılar ciddi problemlər yaradır. Bu sahədə vəziyyəti mürəkkəbləşdirən amillərdən biri də plastik tullantıların təbiətdə uzun müddət qalması və miqdarının ilbəil artmasıdır.

Əhalinin Bakıda toplanması maliyyə sisteminə də təsir edir. Banklar tərəfindən verilmiş kreditin 76-77 faizi paytaxtın payına düşür. Eyni zamanda, Ümumi Daxili Məhsulun formalaşmasında, vergi daxilolmalarında və digər makroiqtisadi göstəricilərdə bir şəhərin payı artır. Bu hal regionların inkşafına mənfi təsir göstərir. Ölkə üzrə iqtisadiyyatın düzgün paylanmamasına gətirib çıxarır. Şəhər böyüdükcə, ictimai asayişin qorunması məsələsi də çətinləşir.

Qeyd etmək lazımdır ki, urbanizasiyanın fəsadları şəhər sakinlərinin sağlamlığına da xələl gətirir. Ətraf mühitin, atmosfer havasının çirklənməsi, nəqliyyatın yaratdığı böyük hay-küy insanlarda stress hallarını artırır, müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur.

***– Sağlam ətraf mühit və təbii həyat tərzi üçün yaşıllaşdırma çox önəmlidir. Bu sahədə hansı zəruri tədbirlərə ehtiyac var?***

– Küçələrin abadlaşdırılması və şəhər landşaft dizaynı bütöv bir elmdir və bu sahə ilə az və ya çox tanış olan deyəcək ki, aqressiv şəhər mühitində uğurla böyüyən ağaclar müəyyən şərtlərin yaradılmasını tələb edir. Ən azı, münbit torpaq olmalı, müntəzəm suvarma və gübrələmə həyata keçirilməlidir. Çox xoşdur ki, son vaxtlar paytaxtda yaşıllıqların sahəsi genişlənir. Ölkə başçısının səyləri ilə Bakıda 400-ə yaxın yeni park salınıb və proses davam edir. Bu istiqamətdə görülən işlər sayəsində paytaxtımız MDB-nin digər şəhərlərindən seçilir.

Hazırda şəhərin ərazisində 10 meqaparkın salınması işləri həyata keçirilir, bəzi parkların ərazisi artırılır. Bu parklardan biri də Bakı Dəmiryol Vağzalı ilə metronun “28 May” stansiyasının qarşısında inşa olunur. Layihə üzrə ərazidə tikinti altına düşən yaşıllıqlar köçürülür. Parkda əkiləcək ağaclar paytaxtın iqliminə uyğun növlərdir. Burada böyük avtobus dayanacağı, eyni anda 4 ədəd elektrik enerjisi ilə işləyən avtobusların şarj edəcəyi 2 stansiya, velosiped zolağı və fəvvarələr də olacaq.

Bundan başqa, dövlət başçısının müvafiq sərəncamı ilə Mərkəzi Nəbatat, həmçinin Mərdəkandakı Dendrologiya parklarında əsaslı təmir-yenidənqurma işləri görülür və ilin sonuna kimi başa çatdırılması nəzərdə tutulub.

Paytaxtda aparılan geniş tikinti-quruculuq işləri çərçivəsində bir çox yerlərdə istismar müddəti bitmiş, qəzalı tikililərin əvəzinə yeni bina və obyektlər yox, məhz parklar salınır. Hazırda Xətai rayonunda yerləşən “Sevgi” parkının genişləndirilməsi ilə bağlı işlər görülür. Bununla əlaqədar şəhərin əsas magistral yollarından sayılan Yusif Səfərov küçəsinin ətrafında yerləşən və istismar müddəti bitmiş tikililərin sökülməsi və ərazidə yaşayan sakinlərə, obyekt sahiblərinə mövcud qanunvericiliyə uyğun kompensasiya ödənilməsi şərti ilə onların köçürülməsi prosesi həyata keçirilir.

Mərkəzi parkın 3-cü hissəsində də genişləndirmə–abadlıq işləri görülür, Nərimanov parkı əsaslı yenidənqurmadan sonra istifadəyə verilib. Bir sözlə, paytaxtın daha da yaşıllaşdırılması və gözəlləşdirilməsi istiqamətində işlər davam etdirilir. Küçə və prospektlər boyunca, mövcud park və istirahət bağlarında yeni ağaclar, həmişəyaşıl kollar və rəngbərəng güllər əkilir.

Bu işlərin yerinə yetirilməsi bizə uğur qazanmağa və şəhəri çiçəklənən bir bağa çevirməyə imkan verir. Yaşıllıqlar ətrafı gözəlləşdirməklə yanaşı, çox insan yaşayan və nəqliyyatın intensiv hərəkət etdiyi paytaxtda hay-küyün azalmasına müsbət təsir edir. Havanı zəhərli qazlardan, toz, his qarışıqlarından təmizləyir. Toz və his bitkilərin yarpaqları üzərinə çökür, yağmurlar zamanı yuyulub torpağa tökülür. Ağac və kollardan ibarət olan yolkənarı yaşıllıqlar yolun torpaqla örtülməsinin qarşısını alır, küləklərin hərəkət sürətini azaldır və sıx yerləşdikdə sakitlik yaradır. Hazırda ağaclar və yaşıl sahələr yalnız estetik məqsədlər üçün deyil, havanın keyfiyyətinin və temperaturun tənzimlənməsinin və ümumi sağlamlığın yaxşılaşdırılması üçün vacib rol oynayır. Çünki havanın çirklənməsi, temperaturun yüksəlməsi, oturaq həyat tərzi ürək-damar və tənəffüs sistemi xəstəliklərinin, piylənmənin və yeni patogenlərin yayılması ehtimalını artırır. Nəticələr, necə deyərlər, göz qabağındadır.

***– Urbanizasiya paytaxtın gündəlik ahəngində hansı arzuolunmaz hallar doğurub?***

– Bakıda qablaşdırma tullantılarının əmələ gəlməsinin qarşısını almaq və bu tullantıların ətraf mühitə təsirini azaltmaq məqsədilə onların təkrar istifadəsi sisteminin formalaşdırılması ilə bağlı tədbirlər görülür. Bu məqsədlə təhlükəli sənaye tullantılarının yerləşdirilməsi üçün yeni poliqonlar yaradılıb. Məişət tullantılarının çeşidlənməsi, utilizə edilməsi və təkrar emalının təşkili həyata keçirilir. Tullantılardan bioqazın alınması üçün müvafiq üsullar tətbiq edilir, enerji alınması üçün onlardan səmərəli istifadə edilir. Bu məqsədlə tullantıların emalı zavodu (Bərk Məişət Tullantılarının Yandırılması Zavodu) tikilib.

Atmosfer havasının çirklənməsinin qarşısının alınması və təbii sərvətlərdən səmərəli istifadə edilməsi məqsədi ilə enerji effektivliyini təkmilləşdirən texnologiyalardan, habelə davamlı enerji mənbələri kimi alternativ enerjidən (külək, günəş, bioqaz, biokütlə, geotermal, hidroelektrik) istifadə də genişləndirilir. Görülən işlər sağlam, dayanıqlı şəhər mühiti yaratmağa yönəlib.

***– Nəqliyyat sisteminin elektrikləşdirilməsinə dünyada çıxış yollarından biri kimi baxılır. Şübhəsiz, biz də bu yolla getməliyik.***

– Bakının ekologiyasının qorunması məqsədi ilə nəqliyyat sisteminin elektrikləşdirilməsi, avtomobillərin bu sistemə görə təkmilləşdirilməsi həyata keçirilir. Bu gün paytaxtda elektrik və hibrid avtomobillərinin sayı sürətlə artır. Ətraf mühitin mühafizəsi məqsədilə Avro standartlarına keçilir. Artıq paytaxtın avtobus parkının 70 faizi yenilənib. Yeni alınan avtobusların çoxu Avro 6 standartına uyğun ekoloji baxımdan təmiz sıxılmış təbii qaz (CNG) mühərriklidir. Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 73 nömrəli qərarına əsasən də paytaxtda müntəzəm marşrut xətləri üzrə istismarda olan avtobuslar sıxılmış təbii qaz (CNG) və elektrik mühərrikli nəqliyyat vasitələri ilə əvəz edilməlidir. Bu yanaşma şəhərin ətraf mühitinin qorunması və havanın çirklənməsinin qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edir.

Sentyabrdan Bakıda marşrut xəttinə Çinin “BYD” şirkətindən alınan ilk elektrik mühərrikli avtobus buraxılıb. Avtobus tam enerji toplayaraq 350 kilometr məsafə qət edə bilir. COP29 çərçivəsində Çinin “BYD” şirkəti ilə əməkdaşlıq çərçivəsində ümumi 160 yeni elektrik mühərrikli avtobusun alınaraq Bakı şəhərinə gətirilməsi və sərnişinlərin xidmətinə verilməsi nəzərdə tutulub. Artıq onların bəzisi istismara verilib. Avtobusların 2024-cü il oktyabrın 31-dək mərhələli şəkildə gətirilərək, Bakı şəhərində marşrut xəttinə çıxarılması planlaşdırılır. Buna uyğun olaraq elektrik enerjisi doldurma məntəqələri yaradılıb. Nəqliyyat vasitələrinin sərnişinlərin xidmətinə verilməsi ilə avtobusların sayı 2341-ə çatdırılacaq. Hədəf isə sərnişinlərə xidmət göstərəcək avtobusların sayının 2500-ə çatdırılmasıdır.



***Müsahibəni hazırladı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**BEYNƏLXALQ HƏYAT**

**Bu il oktyabrın 1-də günün axşam saatlarından başlayaraq İran ordusu bir neçə saat ərzində əzəli rəqibi İsrailin ərazisini dron və raketlərlə kütləvi hücuma məruz qoyub. İran rəsmiləri “sionist ölkə”yə qarşı 500-ə yaxın dron və raket atıldığını iddia edirlər. Rəsmi Təl-Əviv isə cəmi 180 raketin havaya buraxıldığını və onlardan çoxunun havada zərərsizləşdirildiyini bildirir.**

# Yaxın Şərqdə əzələ nümayişi, yoxsa müharibə?!



Kimin düz, kimin səhv məlumat verdiyini ayırd etmək çətindir, bəlkə də buna heç ehtiyac yoxdur. Qeyd etmək lazımdır ki, hücum yəhudilərin ta qədimdən hər il yeni il bayramı – Roş-Ha-Şana bir gün qalmış baş verib. Bu il bayram 2 gün davam etməli idi.

Qeyd etmək lazımdır ki, İranın İsrailə havadan hücum edəcəyi gözlənilən idi. İran rəsmiləri bildirirlər ki, məqsəd bir müddət əvvəl Tehranda qətlə yetirilən HƏMAS-ın siyasi lideri İsmayıl Haniyə və bu günlərdə Beyrutda qərargahında öldürülən Hizbullahın rəhbəri Həsən Nəsrullahın qisasını almaqdır. Hər iki şəxsin məhv edilməsində İsrail günahlandırılır.

Hörmətli oxucu, gəlin yenidən 2 oktyabr gecəsində İranın başladığı hava hücumuna qayıdaq. İsrail bildirir ki, kütləvi dron və raket hücumu zamanı cəmi 1 nəfər həlak olub. Həmin şəxs İordan çayının qərb sahilində yaşayan bir fələstinli imiş. Təl-Əviv həmçinin etiraf edir ki, İran raketlərindən İsrailin mərkəzi hissəsində bir məktəb binası zərər çəkib və bundan başqa Təl-Əvivdə isə restoranlardan biri zədələnib. Yəni, vəssalam, şüttəmam. İran tərəfi isə hücum zamanı “düşmənin ağır itkilər verdiyini” vurğulayır.

Dünən İsrail Müdafiə Ordusunun generalı Daniel Haqari mediaya açıqlamasında bildirib ki, İranın hücumu zamanı İsrail və ABŞ ordularının havadan müdafiə sistemləri birlikdə səmərəli fəaliyyət göstəriblər. Ağ evin məlumatına görə, İsraildəki hədəflərə 200-ə yaxın ballistik raket atılıb və onların böyük əksəriyyəti havadaca sıradan çıxarılıb.

Yeri gəlmişkən, İsrail aviasiyası İranın hücumundan qısa müddət sonra Hizbullahın Livanın cənubunda və Beyrutdakı obyektlərinə zərbələr endirib. Ölən və yaralananlar barədə məlumat verilmir.

İranın təhlükəsizlik xidmətlərinin ürəyi İsrailə onlarla dron və raket atmaqla “soyumayıb”. Təl-Əvivdə oktyabrın 1-dəki ağır terror aktını da israillilər iranlıların ayağına yazırlar. Atışma nəticəsində İsrailin 7 vətəndaşı ölüb, 16-sı yaralanıb.

Müəyyən edilib ki, terror aktını iki nəfər törədib, onlardan biri ölüb, digəri isə ağır yaralanıb. Hər ikisi Hevron (İordan çayının qərb sahilindəki şəhər) sakinləridir. Məlumata görə, terrorçular dayanacaqda tramvay vaqonuna daxil olaraq sərnişinlərə atəş açıblar.

Hazırda siyasətçiləri belə bir sual maraqlandırır: İranın İsrailə hücumu Yaxın Şərqdə rəqiblərin bir-birinə qarşı növbəti əzələ nümayişidir, yoxsa regionda ağır, geniş miqyaslı yeni müharibə başlayır?

İran açıq-aşkar bildirir ki, İran İsrailin yalnız hərbi obyektlərini hədəf alıb və heç də böyük müharibənin başlanmasını arzulamır. Lakin İsrail “əlavə cavab tədbirləri görərsə”, İran da adekvat adddımlar atmalı olacaq.

Dünən İran Prezidenti Məsud Pezeşkian özünün “X” sosial şəbəkəsindəki səhifəsində bəyan edib ki, Tehranın məqsədi özünün milli maraqlarını qorumaqda qətiyyətli olduğunu nümayiş etdirməkdir. Onun sözlərinə görə, İran öz gücünün ancaq kiçik bir qismini göstərib. Pezeşkian İsrailin iqtidarını xəbərdar edərək eskalasiyaya yol verməkdən çəkinməyə çağırıb.

İranın xarici işlər naziri Abbas Ərakçi sosial şəbəkələrdə qeyd edib ki, hadisələrin sonrakı gedişatı İsrailin mövqeyindən asılı olacaq. İsrailin baş naziri Benyamin Netanyahu isə qəti və birmənalı surətdə bildirib ki, İran “böyük səhv edib və mütləq bunun bədəlini ödəyəcək”.

Dünən axşam Yəmən husiləri İsraildəki hərbi obyektlərə raket zərbələri endiriblər. Bu barədə husi generalı Yəhya Sari “X” sosial şəbəkəsində paylaşım edib. Y.Sari vurğulayıb ki, İranın İsrailə zərbələr endirməsini dəstəkləyir.

Bütün bunlar ona dəlalət edir ki, Yaxın Şərqdə tezliklə vəziyyətin sabitləşəcəyinə ümid bəsləmək çətindir. Çünki rəqiblərin bir-birinə qarşı kin və küdurəti sonsuzdur. Amma bütün hallarda ümid sonda ölür.

***M.HACIXANLI,***
***C.ALIŞLI***
***XQ***

# Alimlərimiz “Stenford” reytinqində yüksək yer tutublar

**Stenford Universiteti bu ilin sentyabr ayında növbəti dəfə dünyanın ən yaxşı alimlərinin reytinq siyahısını təqdim edib. Həmin siyahı bir çox elmmetrik göstəricilər nəzərə alınmaqla çoxmeyarlı qiymətləndirmə əsasında hazırlanır.**





AMEA İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyevin adı bu ildə də həmin siyahıya daxil edilmişdir. Xatırladaq ki, 2020-ci ildən başlayaraq ardıcıl olaraq artıq 5-ci ildir ki, akademik bu siyahıda yer alır. O, bu siyahıya dünyanın bütün ölkələrində süni intellekt sahəsində tədqiqat aparan və məqalələri “Scopus” bazasında indeksləşən 399 min alimin arasından seçilmişdir. Digər elm sahələrinə nəzərən ən böyük rəqabət məhz süni intellekt sahəsində olmuşdur.

Stenford Universiteti yuxarıda qeyd olunan siyahıdan başqa, hər il eyni metodika əsasında, lakin uzunmüddətli dövrü əhatə edən ikinci (“karyeraboyu təsir”) siyahını da təqdim edir. Belə ki, əgər 1-ci siyahı tədqiqatçının hesabat ilindəki (yəni 2023) elmi nəticəsinə görə hazırlanırsa, “karyeraboyu təsir” siyahısı tədqiqatçının 1996-cı ildən hesabat ilinə qədərki (1996-2023) dövrü əhatə edən elmi fəaliyyətinin nəticəsi əsasında hazırlanır.

Texnologiyalar İnstitutunun digər bir əməkdaşı, bu institutun şöbə müdiri, AMEA-nın müxbir üzvü Ramiz Əliquliyev də 2024-cü ildə süni intellekt sahəsi üzrə “karyeraboyu təsir” reytinq siyahısında yer almışdır. O da bu siyahıya 400 minə yaxın alimin arasından seçilmişdir.

***XQ***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 216 (30620) 3 oktyabr 2024-cü il, cümə axşamı

## İdman xəbərləri

### İdmançılarımızın reytinq cədvəli




**Gənclər və İdman Nazirliyi Olimpiya idman növləri üzrə milli komandaların idmançılarının 2024-cü il oktyabr ayına olan reytinq cədvəlini açıqlayıb.**

Siyahıya 590 xalla Paris Olimpiadasının qalibi Hidayət Heydərov başçılıq edir. Olimpiadada 5-ci yeri tutaraq tarixi nəticəyə imza atmış bədii gimnastika üzrə qrup hərəkətləri komandası 500 xalla ikinci, Olimpiya Oyunlarının digər qızıl medalçısı Zelim Kotsoyev (cüdo) 470 xalla üçüncü yerdə qərarlaşıb.

Növbəti pillələrdə, müvafiq olaraq, Nikita Simonov (kişi idman gimnastikası, 340 xal), Elcan Hacıyev (cüdo, 320), Anna Skidan (çəkic atma, 315 xal), Balabəy Ağayev (cüdo, 310 xal), Yaşar Nəcəfov (cüdo, 300 xal), Leyla Əliyeva (cüdo, 290 xal) və Zelim Tçkayev (cüdo, 280 xal) yer alıblar.

### MMA döyüşçümüz qələbə qazanıb




**Azərbaycanın MMA (Qarışıq Döyüş Sənəti) döyüşçüsü Məhəmmədəli Osmanlı Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçirilən "UAE warriors 54" peşəkar turnirində rinqə çıxıb.**

20 yaşlı idmançımız çeçenistanlı Şamil Borayevlə qarşılaşıb. Döyüş Azərbaycan təmsilçisinin qələbəsi ilə başa çatıb.

*Leyla QURBANOVA*
*XQ*

### Qəbələdə xeyriyyə aksiyası



**Yeni dərs ilinin başlanması münasibətilə Qəbələ rayonunda aztəminatlı ailələrin övladlarına məktəbli forması və dərs ləvazimatları paylanılıb.**

Bildirilib ki, rayon icra hakimiyyətinin və Qəbələ Konserv zavodunun birgə təşkilatçılığı ilə şəhər 5 saylı tam orta məktəbdə sosialyönümlü tədbir keçirilib. Tədbirdə rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova və təhsil sektorunun müdiri Arifə Bayramova çıxış edərək, tədris ocaqlarının pedaqoji kollektivlərini və şagirdləri yeni dərs ilinin başlanması münasibətilə təbrik edib, onlara təhsildə uğurlar arzulayıblar. Çıxış edənlər təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş təhsilə dövlət qayğısı ənənələrinin bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam və inkişaf etdirildiyini diqqətə çatdırıb, ölkəmizdə təhsil sahəsində icra olunan məqsədyönlü layihələrdən, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlərdən söz açıblar.

Qəbələ Konserv zavodunun direktoru Özgür Demirkıran çıxış edərək, zavod tərəfindən həyata keçirilən sosial layihələr və görülən işlər barədə məlumat verib.

Tədbirin sonunda 180 şagirdə məktəbli forması və dərs ləvazimatları paylanılıb.

*XQ*

*✓ 5 aprel 2024-cü ildə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Xəlilov İlham Mikayıl oğlunun adına verilmiş AR 055897 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

**Avroliqa: 2-ci tur**

# "Qarabağ" borclu qalmaz!

## *Bu axşam çox vacib oyunumuz var*



**Elə buna görə də yunanıstanlı hakim Anastasios Papapetrunun işarəsi ilə saat 20:45-də Tofiq Bəhramov adına Respublika stadionunda başlayacaq "Qarabağ" (Azərbaycan) – "Malmö" (İsveç) görüşünü həmişəkindən də böyük həyəcanla gözləyirik. Uğurlu sonluğa inamımız az deyil. Ümid edirik ki, hamımız birlikdə Ağdam kollektivini tribunalarda və teleekran qarşısında yorulmadan, ürəkdən ruhlandırmaqla əhalisinin sayına görə Stokholm və Geteborqdan sonra İsveçin üçüncü ən böyük şəhəri Malmönün eyniadlı klubu ilə çox prinsipial oyunda xoşbəxtliyi rəqib qapısında tapmağı bacaracağıq.**



Hərçənd bizim çempion kimi start turunda "büdrəyib" öz meydanında Şotlandiyanın "Reyncers" (Qlazqo) komandasına 0:2 hesabı ilə məğlub olan "Malmö" də Bakıya turist səfərinə, şəhərimizlə tanışlığa, onun gözəlliyinə valeh olmağa yox, qələbə arxasınca gəlib.

Bir həftə əvvəl yeni formatlı Avroliqanın 1-ci raundunda Londonda "Tottenhem"lə görüşdə qeydə alınmış böyük hesablı məğlubiyyət (0:3) "Qarabağ"ı da, onun azarkeşlərini də ruhdan sala bilməz. Həmin oyun ərəfəsində və onun gedişində meydanda, eləcə də ondan kənarda baş verən hadisələrin şahidi olanların, xüsusən də bitərəf mütəxəssislərin etiraf etdikləri kimi, açıq-aşkar bəxti gətirməyən Azərbaycan çempionu belə məğlubiyyətə layiq deyildi.

Amma nə etmək olar, həyat kimi futbol da gözlənilməz hadisələr və epizodlarla doludur. Milyonların bu gözəl oyununda heç kim, hətta dünya çempionları da qeyri-dəqiq zərbələrdən, uğursuzluqdan sığortalanmayıb.

26 sentyabr axşamında Londonda "Qarabağ"ı stadiona aparan yolda baş verənlər, meydanda qaçırılan imkanlar yada düşəndə adamın ağlı az qala başından çıxa… Qapının beş-altı metrliyində, heç kimin mane ola bilməyəcəyi mövqedə ayağını topa düzgün toxundurmursan və azarkeş yerindən tullanaraq "qol, qol" demək əvəzinə hər iki əli ilə başını tutur. Bu azmış kimi, penalti nöqtəsindən zərbəni dəqiq yerinə yetirə bilmirsən. Bir başqa hücumda sənin çox güclü və sərrast zərbəndən sonra rəqib qapıçı şir kimi oynayıb, topun qapısından keçməsinə izn vermir və tamaşaçılardan alqış, müdafiəçi dostlarından isə təşəkkür qazanır.

Nə isə, futbolda bəxtsizlik deyimi təsadüfi deyil. Hələ London matçından əvvəl, Çempionlar Liqasının pley-off mərhələsində Xorvatiya "Dinamo"su ilə istər uzaq Zaqrebdə, istərsə də doğma Bakıda keçirilən görüşlərdə itirilən imkanları da bir daha təəssüflə xatırlamaq olar. Bununla belə, razılaşın ki, bəxtsizlik, uğursuzluq zolağı daimi deyil, gec-tez vəziyyət düzəlir.

Bir sözlə, qətiyyən ruhdan düşməyək, əksinə, UEFA Avropa Liqasının əsas mərhələsinin 2-ci turunda 1-ci qələbəmizi bayram etmək arzusu ilə yaşayaq. Düzdür, təkrar edək ki, "Malmö" də, malmölülər də, bütün isveçli azarkeşlər də bu gün qələbə və ya ən azı heç-heçə barədə düşünürlər. Onların bu hüquqlarını əllərindən ala bilmərik. Qoy düşünsünlər və bu axşam kim rəqib qapısı ağzında yaradacağı imkanlardan daha dəqiq, daha ustalıqla istifadə edəcəksə, o da qalib gəlsin.

Yeri gəlmişkən, futbol ictimaiyyətimiz yaxşı xatırlayır ki, ötən mövsümdə Avroliqa turnirinin qrup mərhələsində Azərbaycan çempionunun bəxtinə bir İsveç təmsilçisi də düşmüşdü. "Hekken"i deyirəm. "Qarabağ"ın həm səfərdə, həm də evdə onunla hər iki görüşdən qalib ayrıldığını unutmamışıq. Ötən ilin sonlarında İsveçdən qələbə ilə qayıdan (1:0) Ağdam komandası Bakıda da rəqibi üzərində bir top üstünlüklə qələbə qazanmışdı (2:1).

Bunu elə-belə, söz düşmüşkən xatırlatdım. Əlbəttə, "Malmö" futbolçuları "Hekken"dəki həmvətənlərinin aqibətini yaşamaq istəməzlər. Onlar da qələbənin komandaya necə böyük şan-şöhrət gətirdiyini, onun bal kimi şirin bir nemət olduğunu yaxşı bilirlər.

İndi siz bu sətirləri oxuyarkən azarkeşləri "Tofiq Bəhramov"a aparan yollar hər an qısalır. Yenicə, bu qızıl payız günlərində 73 yaşı tamam olmuş Respublika stadionu öz tarixində növbəti böyük oyuna şahidlik etməyə hazırlaşır. Qələbə stadionumuzu da çox sevindirər, onun şanlı tarixinə gözəl töhfə olar. Həm də unudulmaz hakimimizin ruhu bir daha şad olar…

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

**3 Oktyabr Ümumdünya Ayıqlıq və Alkoqolizmlə Mübarizə Günüdür**

# Şəffaf şüşədən qalxan qatı duman



**...Ağappaq şüşənin ilan kimi nazik boğazından girdə badələrə şərab süzülür. İçkinin təsirindən başlar dumanlanır, qan çanağı kimi qızarmış gözlər alacalanır, mey masasının ətrafında əyləşənlər bir-birinə üz vura-vura yavaş-yavaş araq şüşəsini boşaldırlar. Şərab dolu badələr yenidən bir-birinə dəyərək cingildəyir...**

Bu, tez-tez, hətta bəzən hər gün üzləşilən və çoxları üçün adiləşən mənzərədir. Neçə-neçə ailənin faciəsi, kəndiri qırılan dostluq, "beş günlük dünyada" puç olub gedən ömür çox vaxt cingildəyən şərab dolu badələrdən başlayır. Amma kimə deyirsən? İçkidən dumanlanan başlara, "kefi ala buludda olan"lara sözmü təsir edər? Hər kəsin özü-özünün ağası olduğu indiki dövrdə kim kimə qulaq asır?

Gözümüz görə-görə yarım litrlik şüşələr, girdə-girdə badələr kürəyində igid gizlənən azman-azman oğlanları əlimizdən alır. Cavanlarımız bir gözələ könül vermək əvəzinə üstü bəzəkli, içi zəhrimar kimi acı şərab şüşəsinə könül verirlər. Nəticədə ən böyük bəlalardan olan sərxoşluq və alkoqolizmə yuvarlananların sayı artır.

Uzun müddət və müntəzəm olaraq çoxlu spirtli içki qəbul edəndə arterial təzyiqin yüksəlməsi, stenokardiya və miokard infarktının baş verməsi və həmin xəstəliklərin ağır keçməsinə daha çox təsadüf edilir. Spirtli içki məclislərinin ürək-damar xəstəlikləri ilə uyuşmayan pəhriz pozulmaları xəstəliklərin inkişafını bir qədər də sürətləndirir. Çoxlu spirtli içki qəbulundan sonra toy şənliklərində, rəqs meydançasında, idman zalında müşahidə edilən miokard infarktı, qəfləti ölüm hadisələrinin səbəbi alkoqol qəbul edənlərin öz vəziyyətlərini düzgün qiymətləndirməməsidir.

Oktyabrın 3-ü Ümumdünya Ayıqlıq və Alkoqolizmlə Mübarizə Günü qeyd olunur. Həmin günün qeyd olunması üçün ictimai xadim, XIX əsrin axırlarında sərxoşluq əleyhinə hərəkatın fəallarından olan Con Finçin ölüm günü seçilib. Ayıqlıq və Alkoqolizmlə Mübarizə Gününün əsas məqsədi alkoqolizmlə mübarizə aparmaq və heç olmasa bir gün alkoqollu içkilərdən imtina etmək çağırışıdır. Alkoqol asılılığı müasir cəmiyyətin ən böyük problemlərindən biridir. Təəssüf ki, indi hətta yeniyetmələr arasında da həmin problemlə üzləşirik.

Ağır ürək patologiyaları olan, hipertoniya, ritm pozulmaları, ürək çatışmazlığında, mədə-bağırsaq, xüsusilə qaraciyər, tənəffüs, mərkəzi sinir və endokrin sistemi xəstəlikləri zamanı spirtli içki qəbul etmək müalicənin səmərəsini heçə endirir. Ona görə də həmin xəstələrin spirtli içki qəbul etməsinə ciddi qadağa qoyulmalıdır, çünki hətta 30-50 qram şərab içilməsi onlar üçün son hədd ola bilər.

...Hər şey bir yana, dağılan ailələri, həniri çəkilən ocaqları beş-on dəqiqəlik, lap uzağı bir günlük "tərki-dünyalığı" əldə qədəh xumarlanan gözlərə qurban verməyə dəyərmi? Axı hamı bilir ki, şərabın rəngi ağ olsa da, o, hələ heç kimə üzağlığı gətirməyib...

Elə isə təkcə maddiyyata deyil, sağlamlığa da çox böyük ziyan vuran zərərli vərdişdən yaxa qurtarmağın, onun hələ ala bilmədiklərini qorumağın zamanı deyilmi?..

*Süleyman QARADAĞLI*

# Hava bir az şıltaqlıq edəcək...

**Bakıda və Abşeron yarımadasında oktyabrın 3-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.

Mülayim şimal-qərb küləyi arabir güclənəcək.

Havanın temperaturu gecə 14-18° isti, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 11-16° isti, gündüz 22-27° isti, dağlarda gecə 2-7° isti, gündüz 13-18° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Prezident Administrasiyasının Xarici siyasət məsələləri və Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbələrinin əməkdaşları Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsi müdirinin müavini Nüsrət Süleymanova əzizi

**MARİYAT ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2231
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00